# İNSAN HƏYATINDA TƏQLİDİN ROLU

**AYƏTULLAH MƏHƏMMƏDTƏQİ MİSBAH YƏZDİ**

ادخلوها بسلام آمنين

**Kitabın adı:.........İnsan həyatında təqlidin rolu**
**Müəllif:..Ayətullah Məhəmmədtəqi Misbah Yəzdi**
**Tərcümə edən:....................................................Əli Nur**
**Çap tarixi:..............................................................2008**
**Çap növbəsi:..................................................Birinci**
**Tiraj:..................................................................3000**

# MÜQƏDDİMƏ

İnsan bütün seçimlərində məqsədə çatmaq üçün zəruri biliklərə malik olmalıdır. O, əldə etdiyi elm və mərifət, araşdırmalarla iqtisadi və ictimai, dünyəvi və üxrəvi (axirətə aid) həyat yolu və ənənələri müəyyənləşdirməlidir. İnsanın istedadları və gücü məhdud olduğundan, eləcə də, bütün sahələrdə mütəxəssislik dərəcəsinə yüksələ bilmədiyindən o başqalarının biliklərindən faydalanmağa məcburdur. Bəli, fərdi və ictimai təkamül, etiqadi və əməli nizam üçün təqlid qaçılmaz bir zərurətdir. Qanunlar və ədalət bəşəriyyətin mütəxəssislərə, alimlərə təqlidi sayəsində təmin olunur. Düzgün təqlid nəticəsində cəmiyyətdəki nizamsızlıqlar, hərc-mərcliklər aradan qaldırılır. İnsan məlumatsız olduğu peşə və ixtisaslara müdaxilə etməməli, rəy bildirməməlidir. Bu barədə Quran buyurur: “Əgər bilmirsinizsə, zikr əhlindən (bilənlərdən) soruşun.” [1]

[1] “Nəhl”, 43

İnsanın bir çox məlumat və bilikləri təqlid yolu ilə əldə etdiyini nəzərə alsaq, şübhə yeri qalmaz ki, hər hansı sahədə məlumatlanmaq üçün ən yaxşı yol layiqli ideala müraciət edilməsidir. Bütün bunlardan agah olan Allah-taala insana xeyirxahlıq göstərərək həzrət Peyğəmbər və onun məsum canişinlərini təyin etmişdir. Bu ilahi nümunələr insanın maddi və mənəvi təkamülü üçün geniş üfüqlər açır. Səadət və təkamül yolunda addım atanlar bu nümunələrdən parlaq günəş kimi faydalanır.

Məsumların olmadığı, eləcə də imam Mehdinin (ə) qeyb dövründə İslam cəmiyyətinin məlumatlandırılması, hidayəti din alimlərinin, təqlid mərcələrinin üzərinə düşmüşdür. Bu layiqli davamçılar öz həyatlarını dinin hifzi və təbliğinə sərf etmişlər. Onlar öz davamlı mücahidələri ilə dini dəyərləri bədxahların və vəsvəsəçilərin hücumlarından qorumağa çalışmış, öz ilahi missiyalarını yerinə yetirmişlər. Bütün bunları nəzərə aldıqda şübhə yeri qalmır ki, imam Mehdinin (ə) qeyb dövründə ehtiyac həddində bu insanlara təqlid zəruridir. Həqiqətin kəşfi və məqsədə çatmaq üçün mütəxəssislərə təqlidin zəruriliyi aydın olsa da, bəziləri din rəhbərinə təqlidə qarşı çıxır, saxta arqumentlərlə əsaslandırmağa çalışırlar ki, insanın seçim azadlığı var və o istədiyi kimi hərəkət edə bilər. Onlar bu təbliğatları ilə cəmiyyətin, xüsusi ilə gənc nəslin düşüncəsini zəhərləyirlər.

Bəli, təqlidə qarşı şeytani təbliğatlar planlı şəkildə həyata keçirilir. İlk növbədə müqəddəsliklərə və dinə münasibətdə biganəlik yaradılır. Uyğun yönümdə fəaliyyətlər dünya imperializmi tərəfindən himayə olunur, hər vəchlə dini dəyərlərin insanların həyatından sıxışdırılıb çıxarılmasına cəhd göstərilir. Təqlidə münasibətdə şübhə yaradanlar təkcə təqlid mövzusunu yox, bütün dini dəyərləri sual altına alırlar.

Bu yönümdə Allah-taala din alimlərinin üzərinə müəyyən vəzifələr qoymuşdur. Onlar qətiyyətlə ayağa qalxmalı və uyğun məsələlərə etirazlarını bildirməlidirlər. Böyük ustad həzrət Ayətullah Misbah Yəzdi təqlid və onun əhatəsi mövzusunda hicri-şəmsi 1381-ci ilin (2002 M) mübarək ramazan ayında müqəddəs Qum şəhərində söhbətlər etmiş, uyğun sahədə şübhələri cavablandırmışdır. Əlinizdəki kitab cənab Kərim Sübhani tərəfindən qələmə alınmışdır. Ona təşəkkürümüzü bildirir və bu kitabın Allahın və həzrət Mehdinin razılığı, əziz oxucuların məhəbbəti ilə qarşılanacağına ümid edirik.

Elmi Araşdırmalar Mərkəzi

# BİRİNCİ SÖHBƏT

## PEYĞƏMBƏR VƏ MƏSUM İMAMLARIN MƏQAM VƏ VƏZİFƏLƏRİNƏ BİR BAXIŞ

## *QƏDR GECƏSİNİN ƏHƏMİYYƏTİ*

Bu gün mübarək ramazan ayının iyirmi birinci gecəsi, qədr gecələrindən biridir. On doqquzuncu gecəyə münasibətdə iyirmi birinci gecənin qədr gecəsi olması daha çox ehtimal edilir. Bu əziz gecənin əhəmiyyət və əzəməti Qurani-kərimdə aydın şəkildə bəyan olunmuşdur. Fürsəti qənimət saymalı, ömrümüzün bu dəyərli anlarının boşa getməsinə yol verməməliyik. Olsun ki, kimlərsə rəvayətlərdə buyurulan, alimlərin nəql etdiyi məlumatlara şübhə ilə yanaşır. Amma Qurana zərrəcə imanı olan kəs qədr gecəsinin dəyərini inkar etmir. Allah-taala öz səmavi kitabında aydın şəkildə buyurur: “Qədr gecəsi min aydan üstündür.”[1] Min ay səksən üç il dörd ay deməkdir. Bu həqiqətə inam insanı qədr gecəsinə diqqətli olmağa, həmin gecənin anlarının qədrini bilməyə sövq edir. Əlbəttə ki, əməllərin ən üstünü şəriətin vacib buyurduğu əməllərdir. Əgər bir insanın öhdəsində qəza namazı varsa, imkanı həddində həmin gecə qəza namazlarından qılsın. Əgər bir müsəlmanın boynunda xüms və zəkat, qohumların və qonşuların haqqı varsa, çalışsın ki, bu haqdan heç olmaya bir qədərini ödəsin. Əgər mömin şəxs kiminləsə küsülüdürsə, həmin gecə barışmağa çalışsın. Unutmamalıyıq ki, günahlara diqqət ən vacib əməllərdəndir. Vacib əməllərdən sonra Quran oxumaq, zikrlər söyləmək və Allahla raz-niyaz etmək həmin gecənin faydalı işlərindəndir.

Qədr gecəsi yerinə yetirilməsi məsləhət görülən müstəhəb əməllər din rəhbərlərinin və alimlərinin buyuruqlarında əks olunmuşdur. Mərhum Şeyx Səduq imamiyyə şiə etiqadı

---

[1] “Qədr”, 3

əsaslarından bəhs edən dərsində buyurmuşdur: “Bizim etiqadımıza əsasən, qədr gecəsi iyirmi birinci gecə ilə iyirmi üçüncü gecə arasındadır. Həmin gecələri ibadət üçün oyaq qalmaq min ay oyaq qalmaqdan üstündür.” Alim sonra belə əlavə edir: "Həmin gecələri elmi söhbətlərə məşğul olmaq daha yaxşıdır.” [1] Əlbəttə ki, alim dini söhbətləri, insanı Allaha yaxınlaşdıran mövzuları nəzərdə tutur. Alim bunu da nəzərdə tuta bilər ki, qədr gecəsi elmi müzakirələrə məşğulluq mərifət və agahlıqdan uzaq oyaqlıqdan (ehyadan) üstündür. Bu o demək deyil ki, elmi söhbətlər bütün ibadətlərdən üstündür. Elmi müzakirələr vacib əməllərdən, başqalarının haqqının ödənməsi kimi zəruri ibadətlərdən üstün ola bilməz. Alimin nəzərdə tutduğu ibadətlərin agahlıq və mərifətlə həyata keçməsidir. Çünka agahlıq və mərifət ibadətin dəyərini yüksəldir.

Heç şübhəsiz, qədr gecəsinin ən mühüm ibadətlərindən biri Əmirəl-mömininə (ə) məhəbbətin izharıdır. Əmirəl-möminin Əli ibn Əbu Talib tarixin ən məzlum qəhrəmanıdır. Bu məsum şəxsə əzadarlıq min ayın ibadətlərindən üstündür. Mən qədr gecələrini Əmirəl-mömininə əzadarlıqla keçirən insanlar qarşısında baş əyirəm. Onların əlindən öpürəm ki, təqvalılar mövlasının xatirəsini yaşadırlar. Amma unutmamalıyıq ki, əzadarlıqlar, növhəxanlıqlar bir-birindən fərqlənir. Əzadarlığa dəyər verən əzadarların mərifətidir. Əmirəl-mömininі daha yaxşı tanıyan insanın əzadarlığı daha dəyərlidir. Belə insanlar həmin əzadarlıqdan böyük ruhi qida alırlar. Mən fürsəti qənimət sayıb Peyğəmbər (s) və onun əhli-beytinin (ə) məqamı haqqında danışıram. Ümid edirəm ki, bu yolla həmin insanlarla tanışlığımız artsın.

[1] Səduq, “Əmali”, s. 649)

## *PEYĞƏMBƏR VƏ MƏSUM İMAMLARIN MƏQAMI*

Peyğəmbərlik və risalət Allahın rəsuluna məxsus məqamdır. Bu məqam Allahın iradəsi ilə təyin edilmişdir. Peyğəmbərlik silsiləsi İslam peyğəmbəri ilə tamamlanır. Allah-taalanın İslam peyğəmbərinə əta etdiyi digər məqamlardan Əmirəl-möminin (ə) və başqa məsum imamlara da pay düşür. Məsum imamların bəhrələndiyi məqamlarla bağlı alimlərin və din böyüklərinin müxtəlif bəyanatları vardır. Əllamə Təbatəbai "Təfsiri-Əlmizan"da və digər kitablarında bu mövzuda açıqlamalar verir. Əllaməyə şagirdlik bizim üçün böyük iftixardır. Haqqında danışacağımız mövzuda bildiklərimiz yalnız ondan öyrəndiklərimizdir. Bu böyük ustadın xatirəsini əziz tutur və bu dəyərli gecədə Allah-taaladan onun üçün ali dərəcələr arzulayırıq. Ümid edirik ki, bu işimizlə ona şagirdlik haqqını ödəyə bilək. Əllamə Təbatəbainin İslam aləmi, xüsusilə şiə aləmi üzərində böyük haqqı var. Ustad ona qədər diqqətdən kənarda qalmış, əhəmiyyət verilməmiş bir çox həqiqətlərə öz dərslərində və kitablarında aydınlıq gətirərdi. Əllamənin elmi nailiyyətləri bugünkü araşdırmalar üçün əsaslı bir bazadır. Həmin bazadan İslam maarifinin yayılmasında istifadə edilir. İnanmıram ki, İslam və şiə maarifi mövzularını araşdıran hər hansı bir fərd Əllamənin "Əlmizan" təfsiri və digər kitablarına müraciət etmədən keçinə bilsin.

Ustad ayə bə rəvayətlər əsasında sübuta yetirir ki, İslam peyğəmbərinin peyğəmbərlik və risalət məqamından əlavə də məqamları olmuşdur. Həmin məqamları nəzərdən keçirəcəyik.

## *QURAN TƏFSİRİ, ƏHKAM VƏ MAARİF BƏYANI MƏQAMI*

Heç şübhəsiz, Qurani-kərim bəşəriyyətin hidayəti üçün göndərilmiş səmavi kitabdır. Bu kitab qiyamət gününədək bəşəriyyətin ehtiyaclarına cavab verəsidir. Bu da aydındır ki,

maarif və əhkamla bağlı Quranda bəyan olunmamış nöqtələr var. Məsələn, hər birimiz bilirik ki, gündəlik vacib namazlar İslamın zərurətlərindəndir. Bütün firqələr, şiə və sünni məzhəbləri bu həqiqətə etiqadlıdırlar. Bununla belə namazın qılınma qaydası və rəkətlərinin sayı Quranda bəyan olunmamışdır. Çünki Allah-taala Qurani-kərimi dini hökmlərin ətraflı bəyanı üçün nəzərdə tutmamışdır. Quran hamının müraciət edə biləcəyi şəkildə tərtib olunmuşdur, onun asan öyrənilməsi və yayılması üçün xüsusi bir üslub izlənilmişdir. Əgər İslam maarifi və dini hökmlər tam şəkildə Quranda bəyan olunsaydı, səmavi kitab bir neçə yüz cilddən ibarət olardı və bu halda insanların çoxu ondan istifadə edə bilməzdi. Amma insanlara təqdim olunmuş kiçik həcmli bu kitab hətta yeddi-səkkiz yaşlı uşaqlar tərəfindən istifadə edilə bilər. Bu kitabı uşaqlar da əzbərləyə bilirlər. Bəli, bir çox hökmlər və mövzular Quranda bəyan edilməmişdir. Uyğun istiqamətlərdə məlumatları tamamlamaq İslam peyğəmbərinin öhdəsinə düşür. “Nəhl” surəsinin 44-cü ayəsində buyurulur ki, göndərilmiş hökmlər peyğəmbər tərəfindən izah olunmalıdır. Bu ayə Quranın təfsirə ehtiyaclı olduğunu aydın şəkildə təsdiqləyir. Əgər bu ayədə Quranın təfsiri, hökmlərin aydınlaşdırılması nəzərdə tutulmasaydı “Xalq üçün aydınlaşdır” yox, “xalqa bəyan et” deyilməsi kifayət idi.

“Cumuə” surəsinin 2-ci ayəsində də İslam hökmləri və İslam maarifinin təfsir və şərhi nəzərdə tutulur: “Odur oxumamışlar arasında onların özlərindən peyğəmbər seçən. Belə ki, ayələrini onlara oxusun, onları paklaşdırsın, onlara kitab və hikmət öyrətsin.”

Nəzərdən keçirilən ayədə “tilavət”, həm də “təlim” sözləri işlədilmişdir. Şübhəsiz ki, bu sözlər ayrı-ayrı mənalar ifadə edir. “Tilavət” dedikdə Quranın oxunması, “təlim” dedikdə onların şərhi və təfsiri mənası anlaşılır. Adətən, müqəddəs kitabların oxunması “tilavət” sayılır. “Təlim” isə hamının anlaya bilməyəcəyi mənaların dəqiq şəkildə bəyanıdır.

Allah-taala tərəfindən Quranın təfsiri, ilahi hökm və maarifin bəyanı vəzifəsi ortaya qoyulduğu vaxt insanların anlayacağı şərhlər verildi. Quran özü xalq üçün bir dəlildir və Quranı qəbul etməyə hamı vəzifəlidir. Peyğəmbər tərəfindən verilən şərhlər də dəlildir. Çünki peyğəmbər məsumdur, onun bəyanatları Allahın buyuruqlarına əsaslanır. Peyğəmbərin buyuruqlarında nöqsan tapılması mümkünsüzdür. Həzrət Peyğəmbər düşüncə və əməl baxımından da məsum olmuşdur. Allah-taala gündəlik namaz göstərişini verdiyi vaxt İslam peyğəmbəri bu namazların on yeddi rəkət olduğunu və necə icra edildiyini açıqlayır. İnsanlar peyğəmbərin buyuruğunu Allahın buyuruğu kimi qəbul etməlidirlər. Kimsə deyə bilməz ki, peyğəmbər vəhyə yox, öz elminə əsaslanıb açıqlama verir, biz də öz elmimiz əsasında rəy söyləyə bilərik. Eyni zamanda din alimlərinin İslam maarifi, əxlaq və əhkam sahəsində müəyyən baxış fərqləri mövcuddur. Məsumlar tərəfindən ayələr açıqlanmasaydı, çox böyük ziddiyyətlər yaranardı. Olsun ki, iki alim hər hansı ayə ilə bağlı eyni fikirdə olmazdı.

Qeyd etdiyimiz kimi, pak Peyğəmbər əhli-beyti (ə) də Quranın təfsiri, ilahi hökmlərin bəyanı məqamına malik olmuşlar. Bu müddəanın isbatı üçün dəlillər çoxdur. Nümunə olaraq İslam peyğəmbərinin Əhli-beyt (ə) haqqındakı bir buyuruğunu nəzərdən keçirək: "Mən sizin üçün Allahın kitabı və Əhli-beytimi (ə) iki dəyərli miras qoyuram. Onlar Kövzər hovuzu kənarında mənə çatanadək bir-birindən ayrılmaz.”[1]

Quran və Əhli-beytin (ə) bir-birindən ayrılmaması onlar arasındakı kamil uyğunluğu göstərir. Əgər Quranla Əhli-beyt (ə) buyuruqları arasında ziddiyyət olsaydı, onların bir-birindən ayrılığı da zəruriləşərdi. Belə bir ehtimal Peyğəmbərin buyuruğuna da ziddir. Quranla Əhli-beyt (ə) buyuruqları arasında ayrılığı mümkünsüz edən onlar arasında zərrəcə

---

[1] “Biharul-ənvar”, c.2, bab 14, rəvayət 59, s.100

ziddiyyətin olmamasıdır. Necə ki peyğəmbər sünnəsi ilə Quran arasında ziddiyyət yoxdur!

## *VİLAYƏT VƏ HAKİMİYYƏT MƏQAMI*

İslam peyğəmbərinin ixtiyarına verilmiş məqamlardan biri də cəmiyyət üzərində vilayət və hakimiyyət məqamıdır. Hər bir peyğəmbərdə belə bir məqamın olması zəruri deyil. Ola bilər ki, bir fərddə peyğəmbərlik məqamı olsun, vilayət məqamı olmasın. Belə bir peyğəmbərin yalnız Allah tərəfindən gətirdiyi göstərişlərə tabeçilik zəruridir. Uyğun əmrlərə itaət peyğəmbərə yox, Allaha itaətdir. Allah rəsuluna itaət o zaman gerçəkləşir ki, insanlar peyğəmbər tərəfindən verilmiş göstərişlərə tabe olsunlar. Peyğəmbərə bu sayağı itaət ona vilayət məqamının verilib-verilməməsindən asılıdır. Allah-taala Qurani-kərimdə bu barədə buyurur: "Sizin vəliniz yalnız Allah və Onun rəsulu, həm də iman gətirən kəslərdir. O kəslər ki, namazı bərpa edər, rüku halında zəkat verərlər. Hər kəs Allahı, onun peyğəmbərini və iman gətirən şəxsləri özünə vəli bilsə (qalibdir). Allahın firqəsi (hizbi) həmin qalib gələnlərdir."[1]

Bir çox rəvayətlərdə qeyd olunmuşdur ki, hazırkı ayə Əli ibn Əbutalib haqqında nazil olmuşdur. Yəni ayədə "iman gətirənlər" dedikdə həzrət nəzərdə tutulmuşdur. Bu rəvayətlərdən biri də mərhum Əllamə Təbatəbainin "Təfsiri-Əyyaşi"dən və imam Həsən Müctəbadan nəql etdiyi rəvayətdir. İmam (ə) buyurur: Əmmar Yasər belə deyirdi: Yoxsul bir şəxs Əli ibn Əbutalib namazın rükusunda olduğu vaxt ona yaxınlaşıb kömək istədi. İmam elə həmin vəziyyətdə barmaqındakı üzüyü çıxarıb ona verdi. Həmin vaxt peyğəmbər məscidə daxil olub əhvalatdan xəbər tutdu. Ayə nazil oldu. Peyğəmbər həmin ayəni bizim üçün oxudu.[2] Növbəti ayədə Allah, onun rəsulu və məsum imamların vilayətinin

---

[1] "Maidə", 55, 56

[2] Əllamə Təbatəbai, "Təfsiri-Əlmizan", c.6, s.18

eyniyyətindən danışılır. Çünki bu ayədə Allahın, peyğəmbərin və məsum imamların vilayətini qəbul edən şəxs Allahın firqəsi kimi tanıtdırılır. Başqa sözlə, bu zümrədən olan insanlar ilahi vilayətə tabe olanlardandır. İstənilən bir halda uyğun iki ayədə vilayət deyərkən hökm, icra, əmr və qadağa vilayəti nəzərdə tutulur. Belə bir hakimiyyəti Allah öz peyğəmbərinə və peyğəmbərin məsum canişinlərinə lütf etmişdir. İnsanların bu vilayətə tabeçiliyi vacibdir.

Başqa bir məqamda Allah-taala buyurur: "Ey iman gətirənlər, Allaha, Allahın rəsuluna və özünüzdən olan əmr sahiblərinə itaət edin."[1] Bu ayə də öncəki ayələr kimi ilahi hakimiyyət məqamından və belə bir hakimiyyətə xalqın tabeçiliyinin zəruriliyindən danışır.

Bir çox rəvayətlərdə bildirilir ki, "ulil-əmr" dedikdə on iki məsum imam nəzərdə tutulur. Eləcə də Cabir ibn Abdullah Ənsaridən, böyük peyğəmbər səhabəsindən belə nəql olunur: "Ya əyyuhəlləzinə amənu..." ayəsi nazil olan vaxt mən soruşdum ki, ey Allahın rəsulu, biz Allahı və onun rəsulunu tanıyırıq. Bəs itaəti sizə itaətlə bir sıraya qoyulan əmr sahibləri kimdir? Həzrət buyurdu ki, ey Cabir, onlar mənim canişinlərim, məndən sonra müsəlmanlar üçün məsum imamlardır."[2]

Bəziləri iddia edə bilərlər ki, yuxarıdakı ayədə peyğəmbərə itaət deyərkən vəhyin təbliğində peyğəmbərə itaət mənası nəzərdə tutulmuşdur. Belə bir itaət isə vəhyə itaətdən daha geniş məna daşıyır. Uyğun müddəaya cavab olaraq deyə bilərik ki, nəzərdə tutulan halda bu itaət Allaha itaət mənasını çatdırmaq üçün kifayət edərdi və "peyğəmbərə itaət edin" əmrinə ehtiyac qalmazdı. Amma Allaha itaətlə yanaşı peyğəmbərə itaət göstərişinin verilməsi fərqli bir məna kəsb edir. Peyğəmbərin öhdəsinə ikinci bir məsuliyyət qoyulur və bu məsuliyyət vəhyi bəyan etmək məsuliyyəti deyil. "İtaət edin

---

1 "Nisa", 59

2 Əllamə Təbatəbai, "Təfsiri-Əlmizan", c.4, s.409

peyğəmbərə” təbiri “itaət edin Allaha” təbirinin əhatə dairəsindən kənardır. Bu əmr peyğəmbərə bir hakim və rəhbər olaraq itaəti zəruri edir. Belə bir rəhbər Allah tərəfindən seçilmişdir və ictimai-siyasi baxımdan məsuliyyət daşıyır. İslam cəmiyyətindəki parçalanmaların qarşısını almaq onun ilkin vəzifələrindəndir. Peyğəmbər elə bir rəhbərdir ki, Allahın ona verdiyi qüdrət və ixtiyar sayəsində bütün çıxılmaz vəziyyətlərdən yol tapır. Onun buyuruğu bütün buyuruqlardan üstündür. Ətrafdakılar ona itaət etməyə borcludurlar. İnsanlar bu ilahi rəhbərə itaət sayəsində sağlam ömür sürür, birlik və qardaşlıq nemətindən bəhrələnirlər. İlahi rəhbər cəmiyyətdəki dava-dalaşların və qardaş qırğınlarının qarşısını alır.

İslam cəmiyyətinin möhkəmlənməsi və davamı üçün ən saleh insan, ilk növbədə məsum şəxs xalq üzərində vilayət və hakimiyyəti öz üzərini götürməlidir. İnsanlar da öz növbəsində belə bir rəhbərə tabe olmalıdır. Hər bir insan ilahi rəhbərin əmrini nemət saymalıdır. Əks təqdirdə İslam cəmiyyəti yaşayası deyil. Allaha itaət və onun hökmünü qəbul etdikdən sonra Peyğəmbər və onun məsum canişinlərinə tabeçilik dini zərurətlərdəndir. İmam Sadiq (ə) buyurur: “İslam namaz, zəkat, oruc, həcc və vilayətdən ibarətdir. İnsanlar vilayətdən mühüm bir həqiqətə doğru çağırılmamışlar. Amma onlar dörd əmri qəbul edib, vilayət əmrini boşladılar.”[1]

Bütün İslam firqələri yekdil olaraq həzrət Peyğəmbərə itaəti vacib sayır, onun vilayət və hakimiyyətini qəbul edirlər. Şiələrlə sünnilər arasında fərq bundan ibarətdir ki, şiələr Peyğəmbərin vəfatından sonra vilayət məqamının Əmirəl-mömininə keçdiyinə inanırlar. Belə ki, müsəlmanlar Peyğəmbərdən sonra həzrət Əliyə itaət etməyə borcludurlar. Cabir ibn Abdullah Ənsaridən nəql olunmuş rəvayətdə Peyğəmbərin “ulil-əmr” ifadəsinin həzrət Əli və onun məsum övladlarına aid olduğunu təsdiqləyən buyuruğu nəql olunur.

[1] “Kafi”, c.2, s.18

Sünnə əhli bu həqiqəti inkar edir. Onların nəzərincə, Quran belə bir vilayəti təsdiqləmir. Əslində məsum imamları tanıyıb, onların vilayətinə tabe olmaq o qədər əhəmiyyətlidir ki, uyğun mərifətdən bəhrələnməyənlər dünyadan cahil getmiş sayılır. İmam Həsən Əsgəri (ə) buyurur: “Hər kəs öz dövrünün imamını tanımadan ölsə, cahil bir ölümlə dünyadan getmişdir.”[1]

Şübhəsiz ki, imamı tanımaq dedikdə onun adını, ata-anasının adını bilmək nəzərdə tutulmur. Nəzərdə tutulan imamın vilayətini, hakimiyyətini tanıyıb ona tabe olmaqdır. Belə bir mərifətdən bəhrələnməyən insan siyasi oyunlarda puça çıxır. Bəli, vilayət məqamını tanımayan, məsumların vilayəti sayəsində rəhbərliyi öhdəsinə götürənlərə tabe olmayan toplum fəlakətə üz tutmuşdur.

## *VİLAYƏTİ-FƏQİHİN YERİ VƏ QANUNİLİYİ*

Diqqət yetiriləsi nöqtələrdən biri fəqih vilayətinin yeri və tanınmasıdır. Fəqih vilayəti məsumların vilayətinin davamı olaraq onların icazəsi ilə gerçəkləşir. Əmirəl-mömininin hakimiyyəti dövründə İslam hakimiyyətinin hüdudları genişləndirilərkən məntəqələrdə layiqli və saleh insanlar nümayəndə təyin olunurdu. Malik Əştər, Məhəmməd ibn Əbubəkr imam tərəfindən təyin olunmuş valilər idilər. Onlar məsum deyildilərsə də, məsum imam tərəfindən təyin olunduqlarından onlara itaət vacib sayılırdı. Çünki məsum imam tərəfindən təyin olunmuş şəxs vasitəli şəkildə Allah tərəfindən təyin olunmuşdur və ona itaət Allaha itaətdir.

Hər bir müsəlman Allah əmrlərinə birbaşa tabe olduğu kimi Allah xəlifələrinin də əmrlərinə tabe olmalıdır. Çünki Allah bu insanları “ulil-əmr” (“əmr sahibi”) kimi tanıtdırır. Bizə bu insanlara itaət etmək tapşırılır. Onlara itaət Allaha itaətdir. Deməк, məsum imamların hakimiyyəti dövründə də

---

[1] “Kafi”, c2, s.18

onlar tərəfindən təyin olunmuş nümayəndələrə itaət vacib sayılmışdır. Məsumlardan nəql olunmuş bir çox rəvayətlərdə zəruri şərtlərə malik fəqihlər qeyb dövrünün hakimləri sayılır və onlara itaət zəruridir. Belə ki, vilayəti-fəqih məsumların vilayətinin davamıdır və Allah tərəfindən onların qanuniliyi təsdiqlənir. Əmirəl-mömininin (ə) dövründə müsəlmanlar Malik Əştər kimi valilərə itaət göstərirdilər. Qeyb dövründə də zəruri şərtlərə malik fəqihlərə tabeçilik vacibdir. Fərq budur ki, məsum imamların dövründə valilər şəxsən onlar tərəfindən təyin olunurdu, qeyb dövründə isə bu iş məsum imamın icazəsi ilə gerçəkləşir.

## *MÜHAKİMƏ MƏQAMI*

Peyğəmbərlik, risalət, vilayət, imamət və Quranın təfsiri məqamından əlavə peyğəmbərin mühakimə məqamı olmuşdur. Məsum imamlar da uyğun məsuliyyəti daşımışlar. İstənilən bir cəmiyyətdə hakimin olması zəruridir. Hakim cəmiyyətin ehtiyaclı olduğu hüquqi məsələləri həll etməli, mübahisə edən tərəflər arasında hökm verməlidir. Mübahisə tərəfləri də hakimin hökmünə tabe olmalıdır. Əlbəttə ki, hakimin hökmü vilayət hökmündən fərqlənir. Bəzən cəmiyyətdə ixtilaf yaranmadığı halda nizamın qorunması üçün vəliyyi-əmr hökm çıxarır. Məsələn, müdafiə əmri bu qəbildəndir. Bəzən də cəmiyyətin iqtisadi ehtiyaclarının ödənməsi üçün müəyyən vergilər təyin olunur, bu vergilərin ödənməsi vacib sayılır. Mühakimə məqamı isə yalnız vətəndaşlar arasındakı mübahisələri həll edir. Tərəflər özləri də aralarındakı mübahisənin həlli üçün hakim seçə bilərlər. Amma seçilmiş hakimin hökmünə əməl etmək lazımdır. Qeyd edək ki, bu üsul yalnız müəyyən şərtlər daxilində işləkdir. Çıxarılan hökmün icrasını zəruri edən hakimin Allah tərəfindən təyin olunmasıdır. Bəzi Quran ayələrinə əsasən Allah-taala müəyyən şəxsləri hakim məqamına təyin etmişdir. Məsələn “Sad” surəsinin 26-cı ayəsində buyurulur ki, ey Davud, biz səni yer üzünə xəlifə

seçdik; xalq arasında haqq-ədalətlə hökm ver. Həzrət Peyğəmbərə xitabən buyurulur: “ Biz bu kitabı haqq olaraq sənə nazil etdik; xalq arasında Allahın sənə öyrətdiyi əsasında hökm ver.”[1] Başqa bir ayədə peyğəmbərin hökmünə itaətin zəruriliyi ilə bağlı buyurulur: “And olsun Rəbbinə, aralarında ixtilafa səbəb olan məsələ ilə bağlı verdiyin hökmdən narahat olmayanlar, tam təslim olanlar iman gətirmişdir.”[2] Yuxarıdakı ayədə peyğəmbərin mühakimə məqamı, onun hökmünə tabeçiliyin zəruriliyi açıqlanır. Uyğun münasibət Quran boyunca təkidlə vurğulanır. Allah-taala uyğun andla müsəlmanlara aydınlaşdırır ki, bütün vücudları ilə peyğəmbərə təslim olmalı, onun hökmlərini səmimi-qəlbdən qəbul etməlidirlər. Peyğəmbər hökmünə münasibətdə nigarançılıq, giley-güzar, şikayət olmamalıdır. Hətta bu hökm tam zərərə olsa belə, ona itaət vacibdir. Əgər saleh və layiqli bir hakim Quran və rəvayətlər əsasında hökm versə, amma kimlərsə bu hökmə etiraz etsə, hazırkı ayəyə əsasən onların imanı varmı? Allah hökmünə qarşı müqavimət Allaha imanla bir araya sığırmı? Bu müqavimət və müxalifətçilik inadkarlıq, nifaq və küfrdən qaynaqlanmırmı? Əgər nəzərə alsaq ki, həzrət Peyğəmbərin təlim, təfsir, vəhy, bəyan, hökm məqamları olmuşdur, eyni zamanda o məsumdur, heç bir xətaya yol vermir, onun buyuruqlarına inanmağımız, hökmlərinə tabe olmağımız zəruri olar. Peyğəmbərin ictimai hökmlərinə, mühakimələrinə müxalif çıxmaq haqqımız yoxdur. Qurani-kərimdə buyurulur: “Heç bir mömin kişi və qadına yaraşmaz ki, Allah və onun peyğəmbəri hökm verdiyi zaman seçim aparsın. Allah və onun peyğəmbərinə itaətsizlik edən kəs, şübhəsiz, aşkar azğınlıq içindədir.”[3] Allah və onun peyğəmbəri hökm verdiyi vaxt kimsə rəy bildirməməlidir. Xalqın azadlığı dedikdə

---

[1] “Nisa”, 105
[2] “Nisa”, 65
[3] “Əhzab”, 36

Onların Allah və peyğəmbər hökmünə münasibət bildirməsi nəzərdə tutulmur. Hətta peyğəmbərin Allah hökmü ilə bağlı rəy bildirməsi və ya bu hökmü dəyişməsi caiz deyil.

Öncə qeyd etdiyimiz kimi, həzrət Peyğəmbərdən savayı məsum imamların da mühakimə məqamı olmuşdur. Peyğəmbərdən nəql olunmuş rəvayətdə onun Əmirəl-möminin üçün təyin etdiyi vilayət haqqı təsdiqlənir. Həzrət Əliyə (ə) verilmiş bu haqq digər məsum imamlara da çatır.

İslam Peyğəmbəri dəfələrlə Əmirəl-mömininə buyurur: "Ey Əli, Harun Musa üçün hansı məqamda idisə, sən də mənim üçün həmin məqamdasan. Bir fərqlə ki, məndən sonra peyğəmbər olmayacaq."[1] Əmirəl-möminin "Qasiə" xütbəsində peyğəmbərlə yaxınlığını vurğulayıb onun dilindən nəql edir: "Ey Əli, mən nə eşidirəmsə, sən də eşidirsən. Mən nə görürəmsə, sən də görürsən. Amma sən peyğəmbər yox, mənim vəzirimsən, doğru yoldasan." [2] Cəbrəil nazil olub Allahın vəhyini peyğəmbərə çatdıranda Əmirəl-möminin Əli ibn Əbutalib də orada idi. Bu görüşdə iştirak edən Əli (ə) peyğəmbərə ünvanlanmış vəhyi eşidirdi. Bəli, bəzən iki nəfər danışanda üçüncü bir şəxs onların danışığını eşidir. Amma deyilənlər həmin şəxsə ünvanlanmamışdır. Bir şəxs ona yazılmış məktubu oxutdurduğu vaxt həmin məclisdə başqaları da iştirak edib məktubun mətnindən xəbər tuta bilər. Məktub birinə ünvanlanır, amma oradakılar da məktubda yazılanlardan xəbər tutur.

## *VƏHY HAQQINDA XÜLASƏ ARAŞDIRMA*

Sual yaranır ki, son peyğəmbər dünyasını dəyişdikdən sonra mələklərlə rabitə birdəfəlik kəsildimi? Görəsən, Əli ibn Əbutalib, xanım Fatimə Cəbrəili görmüş, onu dinləmişmi? Rəvayətlərə əsasən bu sual müsbət cavablandırılır. Amma bu o

---

[1] "Kafi", c.8, s.106

[2] "Nəhcül-bəlağə", xütbə 192

demək deyil ki, həmin şəxslər peyğəmbər olmuşlar. Belə ki, mələklərin və ya Cəbrəilin gətirdiyi xəbər peyğəmbərə çatdırılan vəhy növündən olmaya da bilər. Ümumiyyətlə, vəhyi iki qismə bölmək olar: risalət vəhyi və qeyri-risalət vəhyi. Əgər vəhy peyğəmbərə ünvanlanmışsa, bu vəhy risalət vəhyidir. Peyğəmbərlərə qeyri-risalət vəhyi də gələ bilər. Bəzən bu qəbil vəhy ilham adlandırılır. Rəvayətlərdə uyğun məfhum "təhdis" təbiri ilə ifadə olunur. "Üsuli-kafi" kitabında "ənnəl-əimmətə muhəddəsunə mufəhhəmun" adlı bir bab var. Mərhum Kuleyni tərəfindən nəql olunmuş rəvayət təsdiqləyir ki, Əhli-beyt (ə) mələklərlə danışmışdır. Xanım Fatimənin (ə) ləqəblərindən biri də "Muhəddəsə"dir. "Muhəddəsə" dedikdə mələklə danışan xanım nəzərdə tutulur. "Muhəddəs" sözünün mənasını düzgün anlamayanlar elə düşünmüşlər ki, imamlar "muhəddəsdir". Yəni imamlar da başqaları kimi hədis nəql etmək məqamına malik olmuşlar.

Quran nazil olan vaxt "vəhy" termininin müxtəlif anlamları yox idi. Məsələn, ilham sözü vəhy sözü kimi geniş işlədilmirdi Vəhyin lüğət mənası iti və gizli xəbərdir. Belə bir təbir risalət vəhyi, ilham, hətta fitri yolla hidayət mənalarını əhatə edirdi. Məsələn, bal arısına vəhy dedikdə fitri bir hidayət, qəlb yolu ilə göstəriş mənası anlaşılır.[1] Ayədə buyurulur ki, sənin Rəbbin bal arısına vəhy etdi...

Bəzi ayələrdə insana vəhydən danışılır. Məsələn, həzrət Zəkəriyya vəhy ünvanı kimi tanıtdırılır. Uyğun məqamda vəhy dedikdə işarələrlə anlatmaq nəzərdə tutulmuşdur. Ayədə bildirilir ki, o (Zəkəriyya) mehrabdan qövmünün arasına gəlib onlara gündüz və gecə dua oxumalarını işarə etdi.[2]

Qurani-kərimdə iki ləyaqətli və saleh qadına, həzrət Məryəm və Musanın anasına vəhy nazil olduğu bildirilir. Şübhəsiz ki, nəzərdə tutulan risalət vəhyi deyil. Allahın yaxın

---

[1] "Nəhl", 68
[2] "Məryəm", 11

mələyi həzrət Məryəmin yanına xüsusi bir tapşırıqla gəlmişdi. Həzrət Musanın anasına vəhy isə qeybi bir ilham sayılır.

Həzrət Məryəmin əhvalatında nəql olunur ki, o, Beytül-Müqəddəsin bir guşəsində ibadət və dua üçün yer seçmişdi. Həmin xəlvət yerdə raz-niyaza məşğul idi. Qəfildən bir şəxs təcəssüm etdi. Uyğun mövzudan danışan ayədə bildirilir ki, biz öz ruhumuzu onun yanına göndərdik və ruhumuz ona bəşər surətində göründü...[1]

Təfsirçilər arasında həzrət Məryəmə görünən ruhla bağlı müxtəlif fikirlər var. Kimlərsə onun Cəbrəil, kimlərsə başqa bir mələk olduğunu bildirirlər. Hər halda xanım Məryəmin gözünə görünən qeybi bir varlıq olmuşdur. Bu varlıq insan surətində görünmüş, gətirdiyi xəbəri ona ilham etmişdir.

Musanın anasına vəhyin göndərilməsi ilə bağlı bildirilir ki, Firon kahinlərin yuxu yozumu əsasında Bəni-İsraildən olacaq bütün oğlan uşaqlarının öldürülməsi əmrini verdi. Onun göstərişi əsasında məmurlar yeni doğulan bütün uşaqları məhv edirdilər. Həmin vaxt həzrət Musa (ə) dünyaya göz açdı. Anası Musaya görə narahat idi. Allah-taala çıxış yolu göstərərək Musanın anasına vəhy etdi. Ona tapşırıq verildi ki, körpəni Nil çayına atsın və bu körpə ona qaytarılacaq.[2]

Ayədə Musanın anasına onun övladının peyğəmbərliyi müjdə verilir. Deməк, Musanın anası qeybi xəbər əsasında hərəkət etmişdir. Əks təqdirdə o öz övladının peyğəmbərliyindən xəbər tuta bilməzdi. Deyilənlərdən belə bir nəticə əldə olunur ki, Quran buyuruqlarına əsasən, ilahi vəhy təkcə peyğəmbərlərə aid deyil. Risalət vəhyindən əlavə vəhylər də var. Peyğəmbərlərə aid olan isə risalət vəhyidir. Amma məsum imamlara da vəhy olunmuşdur. Cəbrəil onlara görünmüş, onlarla danışmış, Allahın göstərişlərini çatdırmışdır. Onlara vəhy nazil olması peyğəmbərlik dəlili sayılmır. Cəbrəil

---

[1] "Məryəm", 17-20

[2] "Qəsəs", 7

təkcə peyğəmbərə yox, həzrət Məryəmə, məsum imamlara da görünmüşdür. Bəli, İslam peyğəmbəri dünyasını dəyişdikdən sonra risalət vəhyi tamamlanmışdır. Ayə və rəvayətlərdən məlum olan budur ki, peyğəmbər olmayan bəzi şəxslər də Cəbrəili görmüş, onunla danışmış, onu dinləmişlər. Nəql olunan rəvayətlərə əsasən, məsum imamların Cəbrəil və sair mələklərlə əlaqəsi olmuşdur. Onlar bəzən mələkləri görmüş, bəzən onların səsini eşitmişlər.

## *TƏZKİYƏ (PAKLAMA) VƏ TƏRBİYƏ MƏQAMI*

Söhbətimizin bu məqamınadək həzrət Peyğəmbərin üç rəsmi məqamını nəzərdən keçirdik. Peyğəmbər Əhli-beyti (ə) də bu məqamlardan faydalanmışdır. Əlbəttə ki, yalnız peyğəmbərə aid məqamlar nəzərdə tutulmur. Həm peyğəmbər, həm də Əhli-beytin malik olduğu ən mühüm məqamlardan biri paklama və tərbiyə məqamıdır. Allah-taala Qurani-kərimdə buyurur: "Odur oxumamışlar arasından onların özündən olan birini seçən. Belə ki, ayələri onlara oxusun, onları pak etsin, onlara kitab və hikmət öyrətsin." [1] Bəli, Qurani-kərimdə həqiqətlərin bəyanı, Quranın təfsiri kimi məqamlarla yanaşı mühüm paklama və tərbiyə məqamı da qeyd olunur.

Öncə qeyd etdik ki, kitab və hikmət təlimi dedikdə Quranın təfsiri, həqiqətlərin bəyanı, hökmlərin açıqlanması nəzərdə tutulur. Quranın yeganə həqiqi müəllimi Allah-taaladır. Bu kitabı qəlbi ilahi kitabın nüzul məhəlli olan şəxs açıqlaya bilər. Paklanma dedikdə isə mənəvi və əxlaqi tərbiyə nəzərdə tutulub. Paklanma (təzkiyə) bəzən fərdi, bəzən ictimai yönümdə olur. Belə ki, fərd tərbiyəçi ilə ünsiyyətdə olur, onun nəsihətlərindən bəhrələnir, onun təsiri ilə batinini paklayır. İctimai yönümlü təzkiyədə isə hər bir fərd öz tutumu həddində bəhrələnir.

---

[1] "Cumuə", 2

Quran peyğəmbərin təzkiyə məqamına malik olduğunu vurğuladığından bu prosesə daha çox əhəmiyyət vermək lazım gəlir. Amma biz qəflətdə olduğumuzdan təzkiyə və özünütərbiyəyə bir o qədər fikir vermir, elmi məsələləri araşdırırıq. Biz bütün İslam elmlərinə yiyələnsək belə, Peyğəmbər və onun Əhli-beyti (ə) səviyyəsində kompleks bilik əldə edə bilmərik. Elm dəyərli olsa da bu dəyər mütləq deyil. Daxilən paklanmayan insanın elmi faydasızdır. Məsələn, şeytan Adəmdən öncəki elmlərlə yanaşı bu günədək əldə olunan təcrübələri kəsb etmişdir. Məgər bu biliklər onun məqamını ucaldırmı? Eləcə də həzrət Peyğəmbərin müasirləri olmuş münafiq alimlər hansı məqama çatmışlar? Əksinə, malik olduqları elm onları daha dərin faciəyə sürükləmişdir. Bütün bu tənəzzüllərin səbəbi həmin fərdlərin təzkiyə və gözəl ilahi əxlaqdan məhrumluğu olmuşdur. Demək, yalnız təzkiyə va paklanma ilə müşayiət olunan elm dəyərlidir. Təzkiyəsiz elm nəinki faydasızdır, hətta zərərlidir. Demək, təzkiyə və tərbiyədən uzaqlaşmaqla şeytanın qələbəsinə zəmin hazırlayırıq. Belə görünür ki, tərbiyə və təzkiyə məqamı İslam peyğəmbərinin malik olduğu məqamlardandır. Peyğəmbərdən sonra bu məqam Əhli-beytə (ə) tapşırılmışdır. İnsanların tərbiyə və təzkiyəsi məsum imamların öhdəsinədir.

Əgər günümüzə qayıtsaq, qeyd etməliyik ki, təhsil nazirliyində tərbiyə işləri ilə məşğul olan xüsusi şöbənin təşkili faydalıdır. Biz özümüz belə bir şöbənin fəaliyyətindən bu günədək faydalanırıq. Əlbəttə ki, bu qəbil şöbələrin fəaliyyətini arzulamayanlar da tapılır. Təhsil müəssisələrində tərbiyəvi proqramların dayandırılması şeytanların və münafiqlərin, puç əxlaqın bu müəssisələrə yol tapması ilə nəticələnir. Biz məsulların nəzərinə çatdırmalıyıq ki, tərbiyə məsələsinə ciddi yanaşsınlar, bəşəriyyətin səadətində bu yönümün misilsiz rolundan qəflətdə qalmasınlar. Təhsil müəssisələrində tərbiyə ilə məşğul olan istənilən bir formalı qurumun fəaliyyəti zəruridir.

# İKİNCİ MƏCLİS

## TƏQLİDİN MAHİYYƏTİ, YERİ VƏ ZƏRURİLİYİ

## *TƏZKİYƏ (PAKLANMA) VƏ TƏRBİYƏNİN MAHİYYƏTİ*

Söhbətimizin mövzusu təzkiyə və tərbiyədir. Bu iki söz məna baxımınca bir-birinə yaxın olsa da, təzkiyə daha əhatəli mənaya malikdir. Tərbiyə dedikdə təkamül üçün zəmin yaradılması, istedad və qabiliyyətlərin son mərhələyə çatdırılması nəzərdə tutulur. Ağac və ya gül əkən bağban onun inkişafı üçün şərait yaradır, onu suvarır, ona ehtiyac duyulan istilik və işıq verməyə çalışır. Amma bəzən o, bitkinin inkişafına yön verir, maneələri aradan qaldırır. Məsələn, bitki və ya ağacın artıq budaqlarını, yarpaqlarını qırır, inkişafa mane olan amilləri aradan qaldırır. Bu qəbil fəaliyyətlər təzkiyə adlanır. Deməli, inkişafa mane olan, keyfiyyət və kəmiyyətə mənfi təsir göstərən amillərin aradan qaldırılması təzkiyədir.

Tərbiyə və təzkiyə prosesi bəzən bitki və heyvan kimi şüursuz mövcudlara tətbiq edilir. Amma şüursuz varlıqlar ixtiyar sahibi sayılmır və seçim apara bilmir. İnsanın tərbiyə və təzkiyəsində isə onun öz seçiminə və istəyinə də ehtiyac var. Əgər insan tərbiyə və təzkiyəyə meyl göstərməsə görülən tədbirlər faydasızdır. Deməli, insanın tərbiyə və təzkiyəsi zamanı təbii və fiziki vasitələrlə yanaşı insanın tutum və qabiliyyətləri nəzərə alınmalıdır. Yalnız bu amillər nəzərə alındıqda onun tərbiyə və təzkiyəsi üçün münasib zəmin yaradıla bilər. İnsan özü tərbiyə və təzkiyə seçimi aparırsa, bu proses onun təkamülü, doğru yola hidayəti ilə nəticələnir.

Əlbəttə ki, insan agah və şüurlu olduğundan tərbiyəçi təlim vasitələrindən də bəhrələnməlidir. Tərbiyə və təzkiyə ilə yanaşı insana zəruri məlumatlar verilməli, onun müxtəlif biliklərə yiyələnməsi üçün şərait yaradılmalıdır. Bəli, insanın tərbiyə və təzkiyəsində tərbiyəçi qarşı tərəfin təlimi ilə də məşğul

olmalıdır. Əgər müəllimin vəzifəsi bilik verməkdirsə, tərbiyəçinin vəzifəsi moizə-nəsihət, doğru yola çağırışdır. Tərbiyəvi işlər müəllimin vəzifəsi sayılmır. Təzkiyə ilə təlim arasındakı fərq də məhz bu nöqtədədir. Əlbəttə ki, müəllim tərbiyəçi rolunu da oynaya bilər. Belə olduqda o tərbiyəvi işləri də öhdəsinə götürməlidir.

Tərbiyə və təlim arasındakı digər fərq təlim prosesindəki təkrar və məşğələlərdir. İnsan öz biliklərini təcrübədə işə salmaq üçün təkrar və məşğələlərdən faydalanır. Bəzi biliklər sırf zehnə aiddir və onların yaxşı dərk olunması zəruridir. Bəzi biliklər isə hökmən təcrübədə tətbiq edilməlidir. Bu səbəbdən də uyğun bilikləri dərk etməklə yanaşı onların təkrarına ehtiyac var. Məsələn, sürücülük peşəsinə yiyələnən insan zəruri biliklər əldə etdikdən sonra sükan arxasında öz biliklərini təcrübədən keçirməlidir. Tərbiyəçinin əsas rolu ondan ibarətdir ki, tərbiyə olunan şəxs öz biliklərini təcrübədə yoxlasın. Yəni ümumi biliklərin cüzi əməli göstərişlər şəklində icrasına ehtiyac var. Tərbiyə olunan şəxsə xatırladılmalıdır ki, hansı mərhələdə hansı göstərişə əməl edilməlidir.

Deməli, insanın tərbiyə və təzkiyəsi üçün xüsusi tutumlara, qabiliyyətlərə və ləyaqətlərə ehtiyac var. İnsanın bu yönümdə ehtiyaclarından yalnız onu yaradan varlıq xəbərdardır. Yalnız Allah insanın düzgün tərbiyə və təzkiyə yolunu bilir. O bu məlumatları öz peyğəmbərlərinə öyrətmişdir. Onlar ilahi təlimlərə əsaslanaraq insanların təkamülü üçün zəmin hazırlayırlar. İnsan ixtiyar sahibi olduğundan ictimai şərait və tərbiyəçinin təlaşlarının ziddinə gedə bilər. Yalnız tərbiyə olunan şəxsin istəyi ilə tərbiyə prosesi bəhrə verər. Bəli, istedad və qabiliyyətlərin doğru yolda istifadəsi üçün tərbiyə olunan şəxsin istək və iradəsinə ehtiyac var.

## *İNSANIN TƏRBİYƏSİ ÜÇÜN ƏN ALİ NÜMUNƏ*

Tərbiyəçini müvəffəqiyyətə çatdıracaq tərbiyə üsulları haqqında çox danışılmışdır. Tərbiyəçilərin yekdil rəyi budur ki, tərbiyə prosesində müvəffəqiyyət qazanmaq üçün nümunələr təqdim edilməlidir. Bəli, yalnız düzgün nümunənin təqdimi tərbiyə prosesinin müvəffəqiyyətlə başa çatmasını təmin edir. Əlbəttə ki, bu prosesdə müvəffəqiyyət üçün tərbiyəçi özü də nümunəvi olmalı, əməli şəkildə qarşı tərəfi məqsədə doğru aparmalıdır. Tərbiyəçi tərbiyə olunan şəxsə təlqin etdiyi xüsusiyyətlərə özü də malik olmalıdır. Başqa halda düzgün nümunələr təqdim etməkdən savayı yol yoxdur. Əxlaq alimlərinin ustad seçimində diqqətli olmaq göstərişi də bu amilə əsaslanır. Ustad təkcə əxlaqi gösrərişləri öyrənmək üçün seçilmir. Ustad özü tərbiyə etdiyi şəxsə nümunə olmalı, qarşı tərəf onunla ünsiyyətdə əməli şəkildə nümunələri tanımalıdır.

Başqalarına nümunə olmaq istəyən insan rəftarlarında nöqsana yol verərsə, ətrafdakıları tərbiyə edə bilməz. Allah-taala öz bəndələrinə minnət qoyaraq nümunə üçün məsum şəxslər seçmişdir. Bu şəxslər istənilən bir nöqsandan uzaqdır, onların danışıq və əməlləri ən kamil həddədir. Onlar əsl ideallardır. Allah-taala Qurani-kərimdə peyğəmbərlərin, xüsusi ilə İslam peyğəmbərinin nümunə olduğunu təkidlə vurğulayır. Tərbiyələnmək istəyən insana ən böyük xidmət ona düzgün, məsum nümunə tanıtdırmaqdır. Beləcə, sonuncu və ən kamil peyğəmbər olan İslam peyğəmbəri Allah-taalanın insanlara lütf etdiyi böyük nemətdir. O həm vəhy daşıyıcısıdır, həm üstün məqamlara malikdir, həm insanların özündən olduğu üçün yaxşı nümunədir. İslam peyğəmbəri günah və xətadan uzaq olduğu üçün bizi səadət və kamilliyə çatdıracaq ən düzgün nümunə sayılır. Biz öz danışıq və rəftarlarımızı bu nümunə əsasında tənzimləməliyik. Bu yönümdə şiələrin başqa İslam firqələrinə münasibətdə imtiyazları var. Şiələrin İslam peyğəmbərindən əlavə onun Əhli-beytindən (ə) olan məsum imamlar kimi idealları var. Məhz bu şəxslərə təqlid edilməsi,

məsum imamlar və xanım Fatimənin (ə) ideal seçilməsi ən düzgün yoldur. Biz onların rəftarlarını nümunə götürə bilərik. Allah-taala məsum imamların vücudu neməti ilə, onlara ardıcıllıqda öz yardımı ilə nemətlərini tamamlamışdır. Bu ilahi nemətlərdən ən üstün istifadə yolu əziz Peyğəmbər və məsum imamların məqamından nümunə götürüb bu nümunələri öz həyatımızda işə salmağımızdır. Öncə onların rəftarları ilə yetərincə tanış olmaq lazımdır. Yetərli tanışlıqdan sonra həyatımızın müxtəlif yönümlərində həmin rəftarları tətbiq etməyə çalışmalıyıq. Bir növ öz danışıq və rəftarlarımızda onlara təqlid etməliyik. Əlbəttə ki, bədxahlarımız məsumların danışıq və rəftarlarına təqlid mövzusuna münasibətdə şübhə toxumu səpirlər. Öncə bu şübhələri cavablandırmaq lazım gəlir. Uyğun şübhələr cavablandırılmasa insanlar ilahi ideallardan məhrum qala bilər.

## *QURAN VƏ DOĞRU YOLDA OLANLARA ARDICILLIQ*

Əksər dillərdə işlədilən "nümunə" sözü dini mahiyyətə malik deyil. Quranda uyğun məna “usvə” və “iqtida” sözləri ilə ifadə olunmuşdur. Rəvayətlərdə də bu sözlərlə rastlaşırıq. Allah-taala Quranda bəzi peyğəmbərlərin adlarını və xüsusiyyətlərini sadaladıqdan sonra buyurur: “Bunlar Allahın hidayət etdiyi kəslərdir, onların hidayətinə iqtida et.”[1] Bu ayədə Allah peyğəmbərləri məhz Özü hidayət etdiyini vurğuladıqdan sonra bəndələrinə onlara iqtida etmək göstərişi verir. Bəli, peyğəmbərlər ilahi hidayət nemətindən bəhrələndikdən sonra nümunə olmaq ləyaqəti qazanmışlar. Onları nümunə seçmək bizim işimizdir. İqtida etmək nümunə seçmək mənasını bildirir. Cəmiyyət namazında imama iqtida etmək namazda onu nümunə götürmək mənasını bildirir. Nümunə götürmək mənasında “təəssi” sözündən istifadə olunur. Bu sözlə yanaşı

---

[1] “Ənam”, 90

"itba" sözü də geniş işlədilir. Bu söz iqtida və təəssi sözləri ilə bir sırada dayansa da daha geniş mənaya malikdir. Düşüncə ilə bağlı, nəzəri və etiqadi məsələlərdə "təbəiyət", yəni tabeçilik sözündən istifadə olunur. "İtba" sözünün müxtəlif formaları ilə Quranda rastlaşırıq. Həzrət İbrahim buyurur: "Ey ata, elmdə mənə verilən sənə verilməyib. Mənə tabe ol, səni doğru yola hidayət edim."[1]

Yuxarıdakı ayədə iki nöqtəyə diqqət yetirmək zəruridir: Əvvəla, həzrət İbrahim Azəri ata deyə çağırır. Hansı ki, Azər İbrahimin əmisidir. Belə bir müraciətin səbəbi qarşı tərəfə ehtiram göstərilməsidir. Uyğun hadisə baş verən vaxt həzrət İbrahim bir gənc idi, Azər yaşa dolmuşdu. Onlar arasında bütpərəstlik və bir Allahla bağlı mübahisə gedirdi. Uyğun mübahisədə həzrət İbrahim (ə) bütün ədəb qaydalarını gözləyərək ona ən nəzakətli şəkildə müraciət edir. Necə ki, yaşlı insan özündən kiçiyə məhəbbət göstərdikdə ona oğlum deyə müraciət edir.

Digər bir nöqtə budur ki, həzrət İbrahim əmisi Azərə onun etiqadının batil olduğunu sübut etdi. Azərin heç bir bəhanəsi qalmamışdı. Həzrət İbrahim həqiqətləri dərk etmiş, səadət yolunu tanımışdır. O başqalarını da doğru yola hidayət edə bilərdi. Azər isə həqiqətlərdən xəbərsiz idi, xeyir yolu tanımırdı. Onun vəzifəsi İbrahimə tabe olmaq idi. Həzrət İbrahimin dəvəti bilməyənlərin alimə təqlid dəvəti idi. Doğru yolu tanımayanlar bu yolu tanıyanların mərifət çırağı sayəsində azğın yoldan çəkinə bilərlər. Əslində düzgün nümunələrin doğru yola çağırışı insanın fitrət və düşüncəsinin səsidir.

## *TƏQLİDİN MAHİYYƏTİ, ONUN AĞIL VƏ FİTRƏTDƏ YERİ*

Ağıl və fitrət tələb edir ki, insan bilmədiyi və mütəxəssis olmadığı sahələrdə həmin biliklərə sahib olan mütəxəssisə

[1] "Məryəm", 43

təqlid etsin. Mütəxəssisin sözlərini qəbul etmək təbii bir ehtiyacdır. İstənilən bir millətdən, istənilən bir dindən olan düşüncəli insanlar cahilin alimə müraciətini qəbul edir. Beləcə, bilmədiyimiz sahələrə ehtiyac duyduqda mütəxəssislərə üz tutur, onların biliklərindən faydalanırıq. Xəstələnən insan həkimə, ev tikmək istəyən insan mühəndisə, məhkəmə iddiası qaldırmaq istəyən şəxs vəkilə müraciət edir. İstənilən bir sahədə cahilin, bilməyən şəxsin alimə müraciəti fitrət və ağılın tələbidir. Xəstəni məcbur etmək lazım deyil ki, o həkimə üz tutsun. Çünki o özü yaxşı bilir ki, xəstəlikdən yaxa qurtarmaq üçün həkimə müraciət olunmalıdır.

Yuxarıda deyilənləri nəzərə alsaq, aydın olar ki, dini vəzifələrini, şəri hökmləri bilməyən insanın uyğun sahədə mütəxəssislərə müraciət edib ehtiyac duyduğu məlumatı alması təbii bir addımdır. Din sahəsində mütəxəssis müctəhiddir. Hətta ayə və rəvayətləri bir kənara qoysaq, müctəhidə təqlidi qəbul etməliyik və bilməliyik ki, belə bir müraciət cahilin alimə müraciətinin bir növüdür. Hansı sahədə bilməyən insan bilənə müraciət etmirsə, səhvə yol verir və zərərə düşdükdə üzürlü sayılmır.

Düşüncə sahibləri ixtiyarında şəri məsələlərin açıqlandığı risalə olduğu halda bu risaləyə müraciət etməyib özbaşına addım atan və nəticədə xətaya yol verən fərdi məzəmmət edirlər. Din aliminə müraciət etmədiyindən dini vəzifələrində səhvə yol verən şəxsin Allah hüzurunda üzrü olmayacaq. Deməк, ağıl və fitrətin tələbi olan alimə müraciət məsələsinə diqqətsizlik insan üçün problemlər yaradır. Alim həm şifahi, həm də yazılı şəkildə göstəriş verə bilər. Əsas məsələ uyğun göstərişlərdən istifadədir.

Psixoloqlar və sosioloqlar insan həyatında təqlidin əhəmiyyəti mövzusunu çox araşdırmışlar. Onlardan biri də tanınmış qərb psixoloqu Qabriel Tarddır. Onun nəzərincə, insanı ictimailəşdirən, onu mədəniyyətlərə diqqətli edən əsas amil təqliddir. Əgər təqlid olmasaydı insanın danışıq dili, yazı

xətti olmazdı. Təqliddən imtina edən insan yazıb-oxumaq kimi misilsiz dəyərlərdən məhrum olar, öz əcdadlarının elmi və mədəni irsindən faydalana bilməzdi. İş başına gələn istənilən bir nəsil, özündən əvvəlki nəslin təcrübələrindən faydalanmalı, öz ictimai həyatını nizamlamaq, ehtiyaclarını aradan qaldırmaq üçün onlara təqlid etməlidir. Demək, keçmiş irsin mənimsənilməsində aparıcı amil təqliddir. Əgər öz həyatımızda ata-babalarımızın təcrübələrindən faydalanmasaydıq, onların məlumatlarından istifadə etməsəydik, hətta yemək və geyim kimi ehtiyaclarımızın təminində misilsiz problemlərlə üzləşərdik. Axı keçmiş təcrübələrdən faydalanmadan xörək bişirmək, libas tikmək, ev tikmək necə mümkün olar?! Bəşəriyyət təqliddən imtina etsəydi, hazırkı təkamüldən məhrum olardı. Bəli, keçmiş elmi, mədəni biliklərdən faydalanmanın ən əsas amili təqliddir.

Əlbəttə ki, bütün sahələrdə təqlidə üz tutmaq ifratçılıqdır. Biz düşünmürük ki, insanın formalaşmasında yeganə yol təqliddir. Hər halda yuxarıda sadalanan faktlar təqlidin qaçılmaz olduğunu göstərir. Əgər insan təqlidi yanlış bir addım sayırsa, təbii ki, yerində sayasıdır. Əgər övlad ata-anasından danışmağı öyrənməsə necə olar?! Müəllimdən yazmağı öyrənmək istəməyən insan necə savadlanar?! Bəli, həyatın əksər sahələrində, o cümlədən, ölüm-qalım kimi zəruri nəticələrə aparacaq işlərdə təqlid etmək zəruridir. Əgər xəstə öz müalicəsində həkimə təqlid etmirsə öz həyatına düşmən kəsilir.

## *QURANIN MƏSUMLARA TƏQLİD ÇAĞIRIŞI VƏ AZĞINLARA TƏQLİDƏ QADAĞASI*

Alimlərə və doğru yolu tapmışlara müraciətin zəruriliyi, eyni zamanda cahillərə, yolunu azmışlara itaətin yolverilməzliyi ilə bağlı Allah-taala Qurani-kərimdə buyurur: “ Haqqa doğru çağıran kəsə, yoxsa yoldan çıxmış birinə itaət

yaxşıdır?!” [1] Bu ayənin mesajı insan həyatının bütün sahələrində işləkdir. Bu göstəriş həm dini-əxlaqi, həm də ictimai-siyasi yönümlərə şamil olunur. İstənilən bir halda bizə münasib yol göstərilir. Allah-taala fitrət və düşüncəyə uyğun mövzulardan danışarkən sual üslubundan istifadə edir. Bu üsul Quranın hidayət üsullarındandır. Haqqa əsaslanan istənilən bir mövzu inkar edilərkən Allah inkarçıların ağıl və fitrətinə müraciət edir. Bəli, insanların düşüncə və fitrəti sorğuya çəkilir, bu yolla insanlara anladılır ki, onların tutduğu yol düşüncə və fitrətə ziddir. Nəzərə çatdırılır ki, səadət sorağında olan insan Allahın hidayət etdiyi insana üz tutmalıdır. Məhz belə bir şəxs insana haqq yolu tanıtdırıb, onu bu yola hidayət edə bilər. Əlbəttə ki, özü haqqı tanımayan bir şəxs başqa birini necə hidayət edə bilər?! Bu iki yol ayrıcında düşüncə və fitrət hansı yola səsləyir?! Şübhəsiz ki, insan doğru yolu tutmuş insanın çağırışına cavab verməli, haqqı tanıyan birinə tabe olmalıdır. Əksinə, yolunu azmış biri öz cəhalətini etiraf etməsə də, onun danışıq və rəftarından haqqı tanımadığı, hidayət olmadığı bəllənir.

Doğru yolda olmayanların aşkar bir nümunəsi istənilən bir mövzuya şübhə ilə yanaşan ziyalınümalardır. Onlar hər şeyə şübhə edir, bu şübhə ilə öyünürlər. Biz kimə üz tutmalıyıq? Allah tərəfindən doğru yola yönəldilmiş peyğəmbərlər və övliyalara, yoxsa hər nəyə şübhə ilə yanaşanlara?! Şübhə içində olandan yolmu istəyək?! Əlbəttə ki, şübhə içində vurnuxanlar öz məntiqlərinə don geyindirmək üçün yəqin mərtəbəsinə çatmağın mümkünsüz olduğunu bildirirlər. Onlar deyirlər ki, insan həqiqi yəqin məqamına çata bilməz. Onlar iddia edirlər ki, yəqin mərtəbəsində olduğunu iddia edənlər zənn-gümana uyurlar. Bəli, bu zümrədən olanlar insanı doğru yola yönəltməyə acizdir!

---

[1] “Yunus”, 35

## *FAYDALI TƏQLİDLƏ ZƏRƏRLİ TƏQLİDİN BİR-BİRİNDƏN SEÇİLMƏSİ*

Aydın oldu ki, elm və bilikdən məhrum olan insan ağıl və fitrətin hökmü ilə mütəxəssisə müraciət etməlidir. Xüsusilə dini məsələlərdə din alimlərinə müraciət etmək zəruridir. Belə bir müraciətin həyatı əhəmiyyəti var. Yalnız din alimlərinin göstərişləri sayəsində insan öz vəzifələri ilə tanış olub onlara əməl edə bilər. Məhz bu həqiqətlə bağlı Allah-taala buyurur: "Əgər bilmirsinizsə bilənlərdən (zikr əhlindən) soruşun."[1] Bir daha qeyd edirik ki, istənilən bir sahədə həmin sahənin mütəxəssisinə müraciət etmək, ona təqlid ağıl və fitrətin əmridir. İnsanı daim doğru yoldan azdırmaq fikrində olan şeytanlar ən aşkar məsələləri də şübhə altına alırlar. Aşkar bir həqiqət olan dində təqlid mövzusu da şübhəli bir məsələ kimi təqdim edilir. Hansı ki, bütün din alimləri öz risalələrində dini hökmlərdə təqlidi şəri vəzifə sayırlar. İnsan ya müctəhid olmalı, ya ehtiyat yolunu tutmalı, ya da təqlid etməlidir. Dini hökmlərdə zəruri şərtlərə malik (cameuş-şərait) fəqihə təqlid olunmalıdır. Amma bəziləri həyasızlıqla "təqlid meymun işidir" söyləyirlər. Məgər müctəhidə təqlid bilmədiklərini bilən şəxsdən öyrənmək deyilmi?! Məgər xəstə öz dərdinə çarə qılmaq üçün həkimə müraciət etmirmi?! Hətta həkim özü xəstələndikdə özünə aid olmayan sahədə başqa bir həkimə müraciət edir və o həmin həkimin göstərişlərinə tabe olur.

Unutmamalıyıq ki, təqlidin müxtəlif mənaları var. Təqlidin arzulanmayan növləri də mövcuddur. Şəkk-şübhə yaradan insanlar bəyənilməyən təqlidi əllərində bəhanə tutaraq zəruri təqlidlərə qarşı hücuma keçirlər. Hansı ki, eyni bir söz müxtəlif mənalar daşıya bilər və hər bir mənanın öz hökmü olar. Bəzən mənalar arasında fərq o qədər böyük olur ki, onları ayırmaq çətin olmur. Misal olaraq "top" sözünü göstərə bilərik. Kürə şəkilli oyuncaq da, hərbdə işlənən mərmi atan silah da top

---

[1] "Nəhl", 43

adlanır. Bu mənalar arasında fərq o qədər böyükdür ki, onu hamı dərk edə bilir.

Bəli, bəzən bir sözün ayrı-ayrı mənaları o qədər yaxın olur ki, insan nəzərdə tutulan mənanı müəyyənləşdirə bilmir. Yalnız nəzər sahibləri bu mənaları xüsusi diqqət göstərərək bir-birindən seçə bilirlər. Eyni zamanda, şəkk-şübhə yaratmaq istəyənlər mənaların yaxınlığından sui-istifadə edərək müsbət mənanın üzərinə  kölgə salırlar. Onlar bu yolla öz çirkin məqsədlərini izləyir, ətrafdakıları aldadırlar.

Bütün bunları nəzərə alsaq, həm ayə və rəvayətlərin araşdırılmasında, həm də əqli mübahisələrdə hər nədən öncə mühüm sözləri (bir növ terminləri) dəqiq mənalandırmaq lazım gəlir. Məsələn, hazırkı söhbətimizdə  öncə "ətba", "usvə", "təqlid" sözlərinin mənasını dəqiq müəyyənləşdirməyə ehtiyac var. Təqlidin mənalarından biri cahilin alimə müraciət etməsidir. İstər nəzəri, istər əməli baxımdan uyğun məna müsbət dəyərləndirilir. Amma təqlid sözünün bəyənilməyən, məzəmmət edilən mənaları da var. Azğın insanlara kor-koranə itaət təqlidin mənfi mənalarındandır. Şübhəsiz ki, bu sayağı təqlidlər nəfs istəklərinə əsaslanır. Meymunlara xas olan təqlid də məhz bu təqliddir. Geri qalmış cəmiyyətlər, fərdlər, şəxsiyyətsiz insanlar bu qəbil təqlid yolunu izləyirlər. Məsələn, gənclər müxtəlif sahələrdə tanınmış şəxsiyyətlərə, musiqiçilərə, idmançılara təqlid edərək, onlar kimi geyinir, onlar kimi saç düzümü seçirlər. Bir gün hansısa kino ulduzu saçını müəyyən düzümə salırsa, kor-koranə təqlid edənlər səhəri gün eyni saç düzümünə maraq göstərirlər. Əlbəttə ki, bu sayağı təqlid məzəmmət olunur və cahilin  cahilə təqlidi sayılır. İnsan öz seçimi üçün dəlillərə malik olmalıdır. Kimlərinsə şəxsi baxışlar əsasında seçdiyi geyim dəbi və ya saç düzümü başqaları üçün nümunə ola bilməz. İnsanlar bu yönümdə müstəqil olmalı, öz seçimlərini aparmalıdırlar. Zahiri görünüşdə başqalarına təqlid elmi və məntiqi dəlillərdən uzaqdır. Kiməsə varlı olduğu üçün, idman meydanında seçildiyi üçün, kino ulduzu tək sevildiyi

üçün təqlid etmək kökündən yanlışdır. Bəzən belə də olur ki, bir sahədə müvəffəqiyyət qazanmış insandan başqa sahə ilə bağlı məsləhət alırlar. Məsələn, ağırlıq qaldırma üzrə dünya çempionu olmuş bir şəxsdən iqtisadiyyat mövzusunda sorğu-sual aparırlar. Hansı ki, ondan yalnız idman haqqında soruşmaq olar. Bəzən də siyasət meydanında tanınmış insandan din haqqında açıqlama istənilir. Hətta aktyordan din haqqında soruşur və onun düşüncələrini norma kimi təqdim edirlər. Çox təəssüf ki, bu qəbil yanlış təqlid tez-tez gözə dəyməkdədir.

Hansı ki, dini məsələlərdə fəqihə təqlid edilməsi ağıl və fitrətin tələbidir, cəmiyyətin dini ehtiyaclarını ödəyir. Müğənnidən din haqqında soruşanlar müctəhiddən din haqqında soruşmağı qəbahət sayır, bu işi meymun işi sayırlar. Onların nəzərincə, ruhanilərin insanları dini məsələlərdə təqlidə dəvəti qəbahətli bir işdir. Hansı ki, bu yolda addım atanlar özləri meymun sayağı İslam düşmənlərinə təqlid edirlər. Onlar düşmən dəyirmanına su tökür, düşmənin proqramlarını həyata keçirirlər. Bu qəbil hərəkətlər məzəmmət olunur və nifrətəlayiqdir. Düşmənlərin son məqsədi insanları hətta peyğəmbər və məsum imamlara təqliddən çəkindirməkdir.

## *DÜZGÜN TƏQLİD VƏ ONUN ŞƏRTLƏRİ*

Dini vəzifələrimizə və şəri hökmlərə münasibətdə Peyğəmbər (s) və Əhli-beytin (ə) yolunu izləyən bizlər həqiqi İslam maarifindən faydalanmaq istəyindəyik. Təqlid məsumların rəy və baxışına yaxınlaşmaq üçün zəruri şərtdir. "Hər kəs öz rəyini meyar götürməlidir" kimi şeytani şübhələr bizim üçün qəbulolunmazdır. Öncə prinsipial olaraq təqlid mövzusunu araşdırmalı, təqlidin düşüncə və fitrət, Quran və sünnə baxımından təsdiqlənən bir həqiqət olduğuna inanıb təqlid dairəsini müəyyənləşdirməliyik. Təyin etməliyik ki, hansı hallarda təqlid olar, hansı hallarda olmaz. Təqlid mövzusunu araşdırarkən zaman və məkan məhdudiyyətlərini nəzərdən qaçırmamalıyıq. Bəzi dini hökmlər və göstərişlər

üçün zaman və məkan məhdudiyyətləri vardır. Məsələn, geyim məsələsində isti məntəqələrdə yaşayan insan soyuq məntəqələrdəki insanlara, soyuq məntəqədə yaşayan insanlar isti məntəqədə yaşayan insanlara təqlid edə bilməz. Bu onların sağlamlığı üçün təhlükəlidir.

İslam peyğəmbəri isti havalı hicazda yaşadığından həmin iqlimə uyğun geyinmişdir. Təbii ki, soyuq məntəqədə yaşayan insan «peyğəmbərə təqlid edirəm» deyib eyni libasları geyinə bilməz. Hətta təqlidin düzgün olduğu hallarda onun mütləq olub-olmadığı, zaman və məkan kimi müəyyən şərtlərdən asılılığı öyrənilməlidir. Bəzən danışıqda da müəyyən qeydlər edilir. Bu qeydlərdən aydın olur ki, öyrənilən söz nəzərdə tutulmayan bir hala aid ola bilər. Eyni zamanda söz şərti rəftara şamil olunmur. Çünki rəftar danışıqdan fərqlidir. Rəftarla bağılı qeydlər "ləbbi" və ya "məqami" səciyyələrə malikdir. Bəzən danışıq üçün də uyğun şərtlər özünü doğruldur.

## *İCTİHAD ZƏRURƏTİ VƏ DİNDƏ TƏQLİD*

Şübhəsiz ki, dini hökmləri tanımaq üçün Əhli-beytdən (ə) nəql olunmuş rəvayətləri tərcümə edib xalqın ixtiyarına vermək düzgün deyil. Bəziləri iddia edirlər ki, fəqihlərin risalə yazmasına ehtiyac yoxdur və xalq özü rəvayətlərdən nəticə çıxarmalıdır. Hansı ki, rəvayətləri anlamaq üçün müqəddimə biliklərə ehtiyac var. Rəvayətin qəbul olunması üçün şərtlər mövcuddur. Ən əsası rəvayətin mötəbərliyi təyin olunmalıdır. Bunun üçünsə fundamental biliklərə ehtiyac var. Yalnız fəqihlər rəvayətləri araşdırıb, onları müqayisə etmək və sonda düzgün qənaətə gəlmək imkanına malikdirlər. Bəzən nəql olunmuş rəvayətin əsas məqsədi qapalı olur. Bu qəbil rəvayətləri düzgün anlamaq üçün insan hədis elmi ilə tanış olmalı, düzgün nəticə əldə etmək üçün oxşar rəvayətlərdən istifadə etməlidir.

Məsumların rəftar və əməllərindən danışan müəyyən rəvayətlər üçün isə hər hansı şərt qoyulmur. Bu qəbil

rəftarlardan hamı, istənilən məkan və zamanda istifadə edə bilər. Uyğun rəvayətləri nümunə götürmək üçün ictihada ehtiyac yoxdur. Məsələn, həzrət Əli ibn Əbu Talibin ədalətə münasibəti həmişə örnəkdir. Bəzi rəftarlar isə mütləq deyil, onların qəbulu üçün müəyyən şərtlər ödənməlidir. Kimsə şübhə etmir ki, Əli ibn Əbu Talib ibadət əhli idi, Quran oxuyurdu. Onun düşmənləri də qəbul edirlər ki, Əmirəl-möminin vaxtının çoxunu ibadətdə keçirirdi. Həzrət hətta xurma bağılarında işlədiyi vaxt zikr edir, dua oxuyur, Quran qiraət edirdi. Amma araşdırmaya ehtiyaclı suallar da var. Məsələn, bir müstəhəb əməl o biri vacib əmələ mane olduqda Əmirəl-möminin müstəhəb əməli yerinə yetirirdimi? Məsələn, Əmr ibn Əbduvədlə savaşa getməli olduğu vaxt namazı döyüşdən üstün sayırdımı? Şübhəsiz ki, Əmirəl-möminin həm ibadət, həm də cihad əhli idi. İki iş bir-birinə mane olduqda həzrət daha mühümünü seçirdi. Demək, Əmirəl-mömininin əməl və rəftarlarından ibrət götürmək üçün müəyyən şərtlər nəzərə alınmalıdır. Məsələn, namazın cihada mane olması bir şərtdir. Bu qəbil qeyri-mütləq məsələlərdə elmin dərinliyinə varmaq, ictihad etmək lazımdır. Hər hansı rəvayətə kor-koranə təqlid etmək olmaz, müəyyən dəlillər əldə olunmalıdır. İnsan zəruri şərtləri araşdırmaq gücündə olduqda daha mühüm əməli seçə bilir. Bəli, Əhli-beytin (ə) buyuruqlarını anlamaq üçün çox vaxt ictihada ehtiyac olur. Əhli-beytin (ə) müəyyən əməllərinə təqliddə də ictihad zəruridir. Fəqih müəyyənləşdirir ki, hansı əmələ hansı şəraitdə təqlid olunmalıdır.

# ÜÇÜNCÜ MƏCLİS

## TƏQLİD AMİLLƏRİ VƏ BAŞQALARINA İTAƏT

### *TƏQLİDİN ZƏRURƏTLƏRİ VƏ TƏQLİDİN DAXİLİ BİR MEYL SAYILMASI*

Ötən söhbətlərdə mütəxəssisə təqlid və itaətin əqli və fitri bir tələb olduğu bildirildi. Bu mövzu aydınlaşdıqdan sonra üç sual ortaya çıxır:

Kimlərə təqlid edilməlidir? Hansı məsələlərdə təqlid olunmalıdır? Təqlid üçün hansı amillər var?

Bu sualları cavablandırmazdan öncə aydınlaşdırmaq lazım gəlir ki, təqlid düşüncəli bir işdir, yoxsa daxili bir meyldir? Əgər təqlidin düşüncə ilə həyata keçən bir proses olduğunu qəbul etsək, onun amillərini araşdırmalıyıq. Təqlidin daxili bir meyl olduğunu, instinktiv həyata keçdiyini qəbul etsək məsələyə münasibət dəyişər.

Məşhur qərb pisixoloqlarından olan Vilyam Mark Duqal iddia edir ki, təqlid düşüncədən asılı olmayan daxili bir meyldir. Onun nəzərincə, insan uşaqlıq dövründən başlayaraq ətrafdakılara təqlid edir. Məsələn, körpə çalışır ki, bütün işlərində ata-anasına oxşasın, onların hərəkətlərini təkrarlasın. Pisixoloq düşünür ki, insan uşaqlıq dövrünü adladıqdan sonra da heyvani təqlid prosesi davam edir. Qeyd etməliyik ki, əksər pisixoloqlar və alimlər onun bu ifratçı nəzəriyyəsinə müxalifdirlər. Onlar qəbul etmirlər ki, təqlid heyvani bir meyldir.

Yuxarıdakı nəzəriyyəyə cavab olaraq bildirməliyik ki, uşaqlıq dövründə insanın təfəkkürü formalaşmadığından onun bir çox hərəkətləri instinktiv olur. Amma təfəkkür inkişaf etdikcə amillər də dəyişir. İlk əvvəllər heç nəyin səbəbi ilə maraqlanmadan ətrafda gördüklərini təkrarlayan insan (körpə) zaman ötdükcə məsələlərin mahiyyətinə varır. Bəli, körpə öz anasının sinəsinə düşüncəsiz şəkildə meyl edir. Amma

sonradan elə bir mərhələyə çatır ki, qidalanmanın zərurətini anlayır. O artıq nə yeyəcəyini, nə vaxt yeyəcəyini müəyyənləşdirir. Əgər körpə düşüncəsiz şəkildə ağlayırsa, bu o demək deyil ki, həyatın növbəti mərhələlərində də onun göz yaşları ixtiyarsız şəkildə axasıdır. Əgər özümüzə diqqət yetirsək, əmin olarıq ki, hərəkətlərimizin arxasında məqsəd dayanır. Biz başqalarına itaət edərkən də bunu planlaşdırırıq. Demək, təqlidin dəlilləri olmalıdır.

Bu gün qərbdə ictimai rəyə, ictimai ənənələrə qarşı etiraz halı yaşanmaqdadır. Müxtəlif qruplar heç kimin bəyənmədiyi şəkildə rəftar etməyə səy göstərirlər. Onlar bu yolla azadlıqlarını nümayiş etdirdiklərini düşünürlər. Bu cərəyanın şiddətlənməsi nəticəsində cəmiyyətdə çox eybəcər tiplər yaranır. Bir qrup insan guya kimsədən asılı olmadığını sübuta yetirmək üçün libasını, saç düzümünü, çöhrəsini, hərəkətlərini əcaib şəklə salır. Onlar bütün bu işləri cəmiyyətə etiraz olaraq yerinə yetirirlər. Demək, hətta bu düşüncəsiz insanlar planlı şəkildə hərəkət edirlər.

Təqlidin heyvani bir istək olmadığını təsdiqləyən dəlillərdən biri də budur ki, cəmiyyətə daxil olan gənc qarşılaşdığı rəftarlar arasında seçim aparır. Onun bütün gördüklərinə təqlid etməsi təbii deyil. Onun hər seçimdə hansısa bir dəlili var. Ən azı bir qrup insanın düşüncəli şəkildə təqlid etdiyini nəzərə alsaq, belə bir sual yaranar ki, təqlidin hansı amilləri var? Qeyd etməliyik ki, təqlid iki yönümdə özünü göstərir: düşüncədə və əməldə. Bəzən insan başqalarına təqlid edərək heç bir əsası olmayan bir şeyə inanır. Bəzən də əsassız şəkildə başqalarının əməllərini təkrarlayır.

## *DÜZGÜN TƏQLİD HƏQİQƏTƏ APARAN YOLDUR*

İnsanın düşüncəsi, dərketmə qüvvəsi olduğundan hər hansı etiqada təqliddə həqiqəti kəşf etməlidir. Əgər insanın müəyyən nəzəri məsələni dərk etməyə gücü yoxsa, o uyğun sahədə mütəxəssisə təqlid edə bilər. Nəzəri baxımdan başqalarına təqliddə məqsəd doğru yol və sağlam həyat tərzinin təmini olmalıdır. Həqiqətə çatmaq əzmində olan insan baxışlarında heç bir yanlışlıq olmayan kəsə təqlid etməlidir. Başqa sözlə, ideal bir şəxs nümunə götürülməlidir. Əlbəttə ki, cüzi nöqsanları da nəzərə almamaq olar. Əgər bir həkim arabir səhvə yol verirsə, ondan birdəfəlik üz çevirmək olmaz.

Amma bəziləri həqiqətə çatmaq üçün yox, tamamilə puç məqsədlərlə başqalarının baxışlarına tabe olurlar. Belələri ilk addımda müvəffəqiyyət qazansalar belə, məqsədləri düzgün olmadığından sonda uğursuzluqla rastlaşırlar. Layiq olmayan kəslərə təqlid insanı doğru yoldan azdırır, nəticədə bədbəxtlik baş verir. Bəziləri də həqiqəti kəşf etmək məqsədində olsalar belə, ideal seçimində yanılırlar. Məsələn, başı ağrıyan bir şəxs bəzən həkim əvəzinə özü kimi başqa bir xəstənin göstərişlərinə əməl edir. Nəticədə nəinki xəstəlik aradan qalxmır, hətta bir az da şiddətlənir. Hansı ki addım atmazdan öncə yaxşı araşdırma aparılmalıdır. Tibbi baxımdan məsləhət verən şəxs ixtisas sahibi olmalı və onun mütəxəssisliyi başqa mütəxəssislər tərəfindən təsdiqlənməlidir.

Düşüncəli insanlar hətta adi həyati məsələlərdə ideal seçiminə ciddi diqqət yetirirlər. Onlar mütəxəssisliyi, ləyaqəti nəzərə alırlar. Məsələn, bir həkimə müraciət etmək istədikdə öncə araşdırma aparır, həmin şəxsin mütəxəssislik dərəcəsini müəyyənləşdirməyə çalışırlar. Yalnız əmin olduqdan sonra ona müraciət edirlər. Eləcə də düşüncəli insanlar dini məsələlərdə təqlid etmək istədikdə istənilən bir ünvana üz tutmur, fiqhi bilikləri başqalarından üstün olanı seçirlər. Onlar məqsədə çatmaq üçün yetərincə araşdırma aparır, daha elmli fəqihi

müəyyənləşdirdikdən sonra arxayınlıqla təqlid edirlər. Əlbəttə ki, müctəhidlik iddiasında olan hər adama təqlid etmək yanlış addımdır.

## *KOR-KORANƏ TƏQLİDİN NÖVLƏRİ*

### 1.Əcdadların yanlış ənənələrinə təqlid

Cəmiyyətin kor-koranə, heç bir dəlilsiz təqlidi təhlükəlidir, fərd və cəmiyyətin xoşbəxtliyi üçün maneədir. Bu növ təqlidə misal olaraq keçmiş nəsillərin yanlış adət-ənənələrinə təqlidi göstərmək olar. Uyğun münasibət bir çox qövmlərin məhvinə səbəb olmuşdur. Əcdadlara təqlid səbəbindən bir çox millətlər hətta peyğəmbərlərə qarşı çıxmış, cahil ənənələrə bağlılıqdan zərər çəkmişlər. Qurani-kərimdə buyurulur ki, biz insanların hidayəti üçün hansı peyğəmbəri göndərdiksə onu təkzib etdilər, məsxərəyə qoydular, sehrbaz, divanə, şair adlandırdılar.[1] Onlar iddia edirdilər ki, şair və divanə bir şəxsə görə bütlərdən əl çəkməməlidirlər. Peyğəmbər onların fitrətini oyatmaq üçün bütlərdən hansı xeyir gördüklərini soruşduqda inadkarlıq göstərirdilər. Düşüncəli insan anlayır ki, insanın öz əli ilə yonduğu bütdən ona fayda yoxdur. Şüursuz bir cismə pərəstiş etməkmi olar? Onlar öz yanlış münasibətlərinə haqq qazandıraraq əcdadlarının yolunu getdiklərini söyləyirdilər.[2]

Bəli, həmin yolunu azmış qövmlər ata-babalarına təqlidi pozulmaz sünnə sayır, heç bir məntiqi dəlilləri olmadıqları halda müqavimət göstərirdilər. Onlar Allahın nazil etdiyi kitaba itaətə çağırıldıqları vaxt atalarının yoluna üstünlük verirdilər. Quran bildirir ki, onlar atalarının dərk etməyib getdiyi bir yola üz tuturlar.[3]

Tarixdə heyrət doğuran ayinlər çox olmuşdur. Bu gün də dünyanın müxtəlif nöqtələrində bu qəbil ayinlərlə rastlaşmaq

---

[1] "Saffat", 36
[2] "Zuxruf", 23
[3] "Bəqərə", 170

mümkündür. Bu gün də hindistanda yüz milyonlarla bütpərəst var. Onlar normal məntiqə sığmayan ayinlər icra edirlər. Sonsuz qadınlar kişi bütdən süzülən sudan içirlər ki, övlad sahibi olsunlar! Əcdadlarının yolunu müqəddəs sayanlar bu gün də azğın ənənələri yaşatmağa cəhd göstərirlər. Bizim də məmləkətimizdə çərşənbə axşamları od üzərindən atılmaq kimi yanlış ayinlər yaşanmaqdadır. İnsanlar bu işin faydasız olduğunu bildikləri halda onu icra edirlər.

İslam yolunda minlərlə insan canından keçmiş, tövhid ayinlərini dirçəltmək üçün fədakarlıq göstərmişlər. İslam düşmənlərinin işgəncələrinə məruz qalmış alimlərin say-hesabı yoxdur. Bu gün də din alimləri və mücahidlərin bütpərəstlik ayinləri ilə mübarizəsinə ehtiyac var. Şübhəsiz, uyğun ayinləri yaşadan yalnız düşüncəsizlik və milli təəssüblərdir. Quran yuxarıda haqqında danışılan axmaq adətləri məhkum edir. Amma özünü hamıdan ağıllı sayanlar, dini hökmlərin icrasında fəqihə və təqlidə qarşı çıxanlar axmaq ayinlərə arxa durur, düşüncəli təqlidi meymunluq saydıqları halda düşüncəsiz təqliddən ilham alırlar. Əslində cahil adət-ənənələrə kor-koranə itaət cəmiyyət üçün bir sıra təhlükələr yaradır. Məsələn, baharın gəlişi dövründə çərşənbə axşamı yığıncaqlarında xoşagəlməz hadisələr baş verir, naməhrəmlər qeyri-şəri rabitələrə qatılır. Düzgün təqlid doğru yolu tanımaq, ilahi əqidələrə yiyələnmək üçündür. Bu məqsədə çatmaq üçün insan dəyər və etiqadları tanıyan, bu əqidələri yaymaq səlahiyyətinə malik insanlara təqlid edir. Əlbəttə ki, ata-babaların yanlış adətlərinə təqlid bundan fərqləndirilməlidir. Bu qəbil təqlid Quranın bir sıra ayələrində sərt şəkildə məzəmmət olunur.

Başqalarının əməl və rəftarlarından örnək götürmək istəyən insan araşdırmalıdır ki, həmin rəftarlar ağıl və məntiqə uyğundurmu? Digər bir tərəfdən örnək seçilməsi nəzərdə tutulan insanın belə bir səlahiyyətə malik olub-olmadığı müəyyənləşdirilməlidir. Bəli, insanın təqlid etməkdə məqsədi həqiqətə çatmaqdırsa, belə bir təqlid nəinki düzgündür, hətta

qaçılmazdır. Belə bir təqlidsiz ictimai həyatın davamı mümkün deyil. Amma təqlid etməkdə insanın məqsədi milli adətləri və qohumluq ənənələrini qorumaqdırsa, belə bir təqlid insanı məhv edə bilər. Əlbəttə ki, adət-ənənələrə təqlidin zərərindən danışılarkən zərərsiz təfərrüatlar nəzərdə tutulmur. Pərəstiş və ibadət kimi mövzularda, ailə təşkilində, insanın dünya və axirət səadəti ilə bağlı məsələlərdə ənənələrə üz tutmaq insanı acı aqibətə düçar edir. İnsan tale yüklü məsələlərdə heç bir araşdırma aparmadan ata-babaların yoluna tabe ola bilməz. Bu qəbil münasibəti ağıl və şəriət məhkum edir. Ağıl və məntiqdən uzaq ənənələrə kor-koranə təqlidçiliyin sonu yalnız insanın özü üçün təhlükəlidir.

## 2. Şan-şöhrət əldə etmək üçün təqlid

Bəziləri şan-şöhrətə çatmaq, ictimai məqam əldə etmək üçün təqlid edir. Bəzilərinin sabit şəxsiyyəti yoxdur, cəmiyyətdə etibar qazanmamışlar. Onlar hər vəchlə xalqın diqqətini cəlb etməyə çalışırlar. Amma bu işdə düzgün yolu tanımırlar. Onlar hər vəchlə özlərini məşhurlara oxşatmağa cəhd göstərir, onlar kimi geyinir, onlar kimi davranırlar. Bir çox gənclər şöhrət ardınca gəzərkən ağıl və düşüncəyə müraciət etmir, yalnız özünü şöhrətli insanlara oxşatmağa çalışır. Onların iş-gücü zahirən bəzənmək, məşhurlara oxşamaqdır. Onlar hətta yerişlərini də məşhurların yerişinə bənzətməyə çalışırlar. Şübhəsiz ki, sağlam düşüncədən qaynaqlanmayan bu qəbil təqlidlər məntiqi əsasa malik deyil. Belələri ya hövsələsizlik göstərib lazımınca düşünmür, ya da təfəkkürləri lazımi həddə inkişaf etməmişdir. Onlar yalnız tanınmaq üçün tanınmışların yolunu izləyirlər.

Bir şəxs cəmiyyətdə məşhurdur deyə hər işdə ona təqlid etmək düzgün deyil. Heç bir əsassız, sadəcə məşhurluğa xatir təqlid düşüncəsizlikdən qaynaqlanır və bəyənilmir. Əlbəttə ki, əgər bu qəbil təqliddə dinə ziddiyyət yoxdursa və harama yol verilmirsə, keçinmək olar. Amma şəriət baxımından haram, düşüncənin məhkum etdiyi məsələlərdə kimlərəsə kor-koranə

təqlid etmək fərdi və ictimai həyat üçün təhlükəlidir, cəmiyyətdə fitnə-fəsadı genişləndirir, ən azı, şəxsiyyətin müstəqilliyini puça çıxarır. Bu gün gənclərin bəzi qıcıqlandırıcı libaslar geyməsi milli və dini varlığımıza zərbə vurur. Bu meyllər mədəni və ictimai müstəqilliyimizi əlimizdən alır. Qeyd etdiyimiz kimi, uyğun istiqamətdə təqlid öz milli mənliyini dəyərləndirməyənlərin işidir. Qeyd etdik ki, Hindistanda hələ də çoxları bütə sitayiş edir. Amma onlar neçə yüz il qərbin müstəmləkəsi olsalar da, öz milli mənliklərini qorumuş, adətlərini əldən verməmişlər. Hələ də hindlilər və pakistanlılar milli libasda gəzir, beynəlxalq konfranslara həmin libaslarda gəlirlər. Onlar hər vəchlə öz mədəni və tarixi mənliklərini qoruyurlar. Bəziləri isə bir anda öz rəngini dəyişir, heç nəyə istinad etmədən milli adətlərinə arxa çevirir, biganələrin ardınca düşür. İstənilən bir cəmiyyətin düşüncə azadlığı elə bir həddə olmalıdır ki, zərərsiz milli ənənələrindən əl çəkməsinlər. Bəli, milli mənliyini dəyərləndirənlər zərərli və alçaldıcı işlərdə özlərini başqalarına bənzətmirlər.

3. Firqə və qrup mənafelərinə xidmət edən təqlid

Bəzən insanlar bir baxışın yanlış olduğunu bildikləri halda fərdi və ya firqəvi mənafelərə xatir həmin baxışlara təqlid edirlər. Bəziləri ictimai və ya beynəlmiləl bir şəraitdə biganələrin diktə etdiyi yolu tutur, öz ağıl və düşüncələrini ayaq altına alırlar. Şübhəsiz ki, bu sayağı təqlid əcdadların adət-ənənələrinə təqliddən də həqarətlidir. Bəzi qərbpərəst siyasətçilər qərbdəki imperialist dairələrin planına uyğun olaraq hərəkət edir, ölkənin inkişafını qərbə kor-koranə təqliddə görürlər. Bu qəbil riyakar insanlar müsəlmanlıq iddiasından da çəkinmirlər. Onların öz əqidələrini açıq bəyan etməyə də cəsarətləri çatmır.

Müsəlman cəmiyyətlərində bu gün də anti-islam əhval-ruhiyyəsində çıxış edənlər var. Bəlkə də, son illər bu qəbil hərəkətlər daha da güclənmişdir. Belələrinin üslubunu cəmiyyət də bəyənmir. Şübhə etmirik ki, müqəddəs dinin ziddinə addım

atan bu qəbil insanlar biganələrin muzdurlarıdır. Əlbəttə ki, onların arasında aldanmışlar da ola bilər. Amma dünənədək İslamdan dəm vuranların birdən birə yüz səksən dərəcə çevrilib müqəddəs dinə müxalif olması təbii görünmür. Belələrini aldanmış saymaq olmaz və onlar özlərini biganələrə təslim edənlərdir. Bəli, bir çox təqlidi rəftarların əqli və şəri əsası yoxdur. Psixoloji baxımdan bəziləri fərdi və ya firqəvi mənafelər naminə əsassız təqlidə üz tuturlar. Bu münasibətin tarixi kökləri var, Qurani-kərimdə də uyğun yersiz təqlidlərə işarə olunur. Məsələn, bütpərəst müşriklərlə bağılı belə bir ayə var: "(İbrahim) dedi: "Siz yeganə Allah əvəzinə dünya həyatında aranızda olan bütləri seçirsiniz."[1]

Quran ayələrində dərin psixoloji və sosioloji kökləri olan nöqtələrə işarə olunur. Təəssüf ki, bu nöqtələrə diqqətsizlik göstərir, onları tez bir zamanda yaddan çıxarırıq. Daha az əhəmiyyət kəsb edən məsələlərə isə lazım olduğundan artıq diqqət göstəririk. Yada saldığımız ayədə də psixoloji və sosioloji bir nöqtəyə işarə olunmuşdur. Bir çox azğınlıqların və yanlış ənənələrə təqlidin səbəbi məhz bu amildir. Allah-taala bütpərəstlərə buyurur ki, siz bütlərə ağıl əsasında itaət etmirsiniz. Bəli, bu qəbil təqlidi nə ağıl, nə də ilahi ayələr təsdiqləyir.[2] Ayədə bildirilir ki, insanlar dostluq əlaqələrini qorumağa xatir ağıl və Allahın rədd etdiyi şirk və bütpərəstliyə üz tuturlar.

## *QƏRB MƏDƏNİYYƏTİNƏ KOR-KORANƏ TƏQLİD*

Bu gün ağıl və səmavi kitabın təsdiqləmədiyi bəzi qərb dəyərlərinə rüsxət verilməsinin səbəbi onlarla dostluq əlaqələrinin qorunması, onların rəğbətini qazanmaq istəyidir. Çoxları Avropa birliyinə qatılmağa xatir bu addımı atır.

[1] "Ənkəbut", 20
[2] "Ənkəbut", 20

Məsələn, umuruq ki, Almaniyanın və ya İngiltərənin xarici işlər naziri bizi tərif etsin, beynəlxalq bank bizə pul ayırsın. Belə rəftar qərb ölkələri qarşısında əskilməkdən başqa bir şey deyil. Qərb dövlətlərinin istəyinə təslim olmaqla nələrsə əldə etmək istəyi Allah tərəfindən məhkum olunur: "Allahın əvəzinə məbudlar seçdilər ki, onları izzətə çatdırsın."[1] Bəziləri bütlərə ona görə əyilirdilər ki, başqa bütpərəstlərin rəğbətini qazansınlar. Bəzi müsəlman dövlət xadimləri və tanınmış şəxsiyyətlər bütpərəst ölkələrə getdikləri vaxt dostluq rabitələri yaratmağa xatir bütxanalara gedib bütlərə təzim edirlər. Qərb mədəniyyəti plüralizm və tolerantlığı cahanşümul mədəniyyət kimi tanıtdırır. Bəzi müsəlmanlar da bu cərəyanın təsiri altına düşür. Onlar düşünürlər ki, hər kəsin dini onun özü üçün möhtərəmdir və bütün dinlərə eyni gözlə baxmaq lazımdır. Guya bir dini haqlı sayıb, o birilərini rədd etmək mədəniyyətsizlikdir! Beləbləri düşünürlər ki, biz onların bütlərinə ehtiramla yanaşsaq, onlar da bizim etiqadlarımıza hörmət göstərər, məscid və ziyarətgahlarımıza rəğbətlə baxarlar. Əslində İslam dünyagörüşü bu qəbil düşüncə tərzi ilə münasib deyil. Başqaları bizim etiqadlarımıza hörmət qoysalar da, qoymasalar da, İslam bizə bu bəhanə ilə puç məbudlara sitayiş etmək icazəsi vermir. Axı necə ola bilər ki, bir müsəlman saxta məbudlara boyun əyə?! Müsəlmanın bir parça daş və ya taxta bütə əyilməsi onun İslamın izzətini alçaltması deyilmi?!

## *MÜNAFİQLƏRİN BİGANƏLƏRLƏ HƏMRƏYLİYİ*

Qurani-kərimin mütaliəsi bizə kömək edir ki, nifaq və küfr düşüncə tərzinin formalaşma amillərini müəyyənləşdirək. Məsələn, dünənədək İslam cəbhəsində olanların bu gün yüz səksən dərəcə dəyişib dini dəyərlərə zidd çıxması amili Quran

---

[1] "Məryəm", 81

ayələri əsasında müəyyənləşdirilə bilər. “Nisa” surəsinin 138-ci ayəsində buyurulur: “Münafiqləri ağrılı əzabla müjdələ.” Münafiqlər başqalarını aldatmaq istədikləri vaxt özlərini xeyirxah kimi göstərirdilər. Allah da onlara əməllərinə uyğun cavab verərək ağrılı əzab vəd edir. Əslində müjdə dedikdə nemət nəzərdə tutulur. Bu ayədə isə istehza ünvanında əzab müjdəsi verilir. Bəzi ayələrdə bildirilir ki, Allah-taala cəhənnəm əhli ilə istehza dilində danışar. Dünya həyatında özünü qüdrətli sayıb başqaları ilə təkəbbürlü rəftar edənlərə buyurulur: “Dad (cəhənnəm əzabını), sən həmin böyük qüvvət sahibisən!”[1] “Nisa” surəsinin 139-cu ayəsində münafiqlər belə tanıtdırılır: “Möminləri qoyub kafirləri dost tutanlar başı ucalığı onların yanındamı axtarırlar? (Bu xam xəyaldır) Çünki izzət bütünlüklə Allaha məxsusdur.” Allahın yada saldığı münafiqlər İslam cəmiyyətində yaşayır, başqaları kimi namaz qılır, hətta zəkat ödəyirdilər. Onlar özlərini xeyirxah kimi göstərirdilər. Amma cihad məqamı gəldikdə bəhanə gətirir, savaşdan çəkinirdilər. Elə məqamlar da olurdu ki, riyakarlıqla cihad meydanına çıxırdılar. Amma savaş məqamında bir kənarda dayanırdılar. Əgər müsəlmanlar qalib gəlsəydilər, özlərini bu qələbəyə şərik sayır, müsəlmanlar məğlub olsaydılar, onları savaşa qatıldıqları üçün məzəmmət edirdilər. Bir sözlə, onlar möminlərə və müsəlmanlara düşmən münasibət göstərir, əllərinə fürsət düşən kimi onları incidirdilər. Hər addımda hiyləyə əl atırdılar. Amma kafirlərə münasibətdə mehribanlıq göstərir, onlarla xəlvətə çəkilən kimi müsəlmanların ziddinə qurğu qururdular. Onlar istəyirdilər ki, kafirlərlə rabitələri sayəsində izzət və qüdrətə çatalar. Bizim də dövrümüzdə özünü demokrat və islahatçı adlandıran bir zümrə biganələrin rəğbətini qazanmağa can atır, nəticədə əcnəbi radioşəbəkələr onları tərifləyir, Amerika senatorları onların himayəsinə qalxır. Bu zümrə güc və nüfuzunu artırmaq üçün biganələrlə hər hansı

[1] “Duxan”, 49

rabitədən çəkinmir. Görən bu qafillər bilirmi ki, izzət və qüdrət yalnız Allaha məxsusdur? Əgər bilirlərsə, nə üçün izzət ardınca düşmən qapısını döyürlər? Bu biçarələr İslam düşmənləri ilə rabitələrə qatılır, bu yolla məqamlarının yüksələcəyini düşünürlər!

Allah-taala növbəti ayədə buyurur: "Əlbəttə ki, kitabda sizə nazil edilib ki, Allahın ayələri inkar olunub məsxərəyə qoyulan vaxt söhbəti dəyişənədək onlarla əyləşməyin. Yoxsa siz də onlar kimi olarsınız. Allah bütün münafiqləri və kafirləri cəhənnəmdə bir yerə toplayar."

Ötən ayədə Allah münafiqləri kafirlər və Allah düşmənləri ilə rabitə yaratdıqları, bu yolla izzətə çatmaq istədikləri üçün qınadı. Bu ayədə ilahi ayələrin məsxərəyə qoyulduğu məclisdən uzaqlaşmaq əmr edilir. Göstəriş verilir ki, onlarla bir yerdə əyləşməyin, onlarla həmsöhbət olmayın. Bəli, müsəlmanların haqqı yoxdur ki, İslam həqiqətlərinin rədd edildiyi məclisdə əyləşələr. Məsum imamın müqəddəs məqamını bütün varlığı ilə sual altına almağa çalışanlar var. Bu qəbil məclislərdə əyləşməyə haqqımız yoxdur. Axı İslam maarifinin, müqəddəsliklərin təhqir olunduğu bir yığıncaqda necə əyləşmək olar?! Əgər həmin məclislərdə əyləşib deyilənlərə biganəlik göstərsək, tədricən danışılan sözlər öz təsirini göstərər, insanın din və imanı zəifləyər. Dinə qarşı təhqirlərə cavab verməyib susmaq bir növ onlarla razılaşmaqdır və bu münasibətin axırı kafirlər və din düşmənləri ilə yoldaşlıqdır. İnsan bu qəbil məclislərdə əyləşib susduğu üçün Allahın qəzəbinə gələ bilər.

Uyğun ayələrdən belə bir nəticə çıxarılır ki, insanda nifaq, dinsizlik, müqəddəsliklərə etinasızlıq kimi xüsusiyyətlər birdən-birə yaranmır. Bu yönümdə başlanğıc nöqtə dinə qarşı təhqirləri dinləməkdir. Bu qəbil dinləmələr ardıqca təhlükə güclənir, insan dini təəssüb fəallığını itirir, iş bir yerə çatır ki, din yolunda canından keçmək istəyən şəxs İslama düşmənçilik amilinə çevrilir. İlk addımda dinə münasibətdə məsxərələri

dinləyən insan növbəti addımda özü dini hökmlərə qarşı çıxır, bu hökmlərin yenidən nəzərdən keçirilməsini tələb edir. Beləcə, İslamda protestantlıq sayıla biləsi yeni bir cərəyan özünü göstərir.

## *DİNİ DƏYƏRLƏRİ GÖZDƏN SALAN PROQRAMLAR*

İnsanların dini dəyərlərə bağlılığını, dini təəssübünü aradan qaldırmaq üçün xüsusi layihələr işlənilir, qəzetlərdə, kitablarda, söhbətlərdə, mavi ekranda uyğun istiqamətdə fəaliyyətlər göstərilir. Düşmənlər bu yolla dini dəyərlərə tərəddüdlü münasibəti vərdiş halına salmaq istəyirlər. Bəli, düşmənin proqramları yalnız dini təəssüb olmayan yerdə nəticə verir. Əgər dini təəssüb varsa, kimsəni dini müqəddəsliklərə qarşı şəkk-şübhəyə salmaq mümkünsüzdür. Nigeriya, Afrikada keçirilən gözəllik müsabiqələrini, Peyğəmbəri təhqir edən məqalələrin mükafatlandırılmasını misal göstərə bilərik. Amma dini təəssübü olanlar bu tədbirlərə qarşı səsini qaldırır, nümayişlər keçirirlər. Yüzlərlə insan bu mübarizədə canını fəda edir.

Məlun Salman Rüştünün İslam peyğəmbərini təhqir edən "Şeytani ayələr" kitabına qarşı dünyanın ayrı-ayrı guşələrində keçirilən nümayişləri unutmamışıq. Bu nümayişdə bir çox insanlar şəhadətə çatdı. Nəticədə həmin şəxs dünyaya mürtəd və kafir kimi tanıtdırıldı. Salman Rüştüyə ölüm hökmü verildi. Bunun ardınca dini təşkilatlar Salman Rüştünün qətli üçün mükafat təyin etdilər. Amma uyğun hökmün icra olunmaması üçün ciddi fəaliyyətlər də bir gerçəklik idi. Hələ də uyğun hökm icra olunmamış qalır. Maraqlıdır ki, adını müsəlman qoyub, özünü islahatçı sayan bəzi müəmmalı şəxslər rüştüləri müdafiə edir. Hətta İslam ölkəsində də dini müqəddəslikləri, məsum imamları təhqir edənlər tapılır. Belə bir şəxsə məhkəmə tərəfindən edam hökmü verildikdə onun himayəsinə qalxanlar olur. Hətta ruhanilər arasında belələri tapılır. Allah

düşmənlərinin müdafiəsinə qalxanlar xəcalət çəkmirmi?! Belələrinin Salman Rüştüdən fərqi nədir? Bəli, bu qəbil ziddiyyətlər aradan qalxsa, imamın Salman Rüştü ilə bağlı hökmü də həyata keçər. Əgər müsəlman ölkələrində bu cəzaya layiq görülənlərin edam hökmü ləğv edilsə, irad tutmazlarmı ki, öz ölkənizdə dini təhqir edənlər bağışlanır, ölkənizdən xaricdə dini təhqir edənlərə hökmü öz gücündə saxlayırsınız?! Ən azı onun üçün mühakimə tələb edərlər. Bu iş bir dam altda iki hava təəssüratı yaradır. Əgər belələrinin edam hökmü ləğv edilsə, Salman Rüştüyə verilmiş edam hökmü gücündə qalacaqmı? Mərhum imamın dövründə dini müqəddəslikləri kim təhqir edə bilərdi?! İmamın dövründə bir qadın "xanım Fatimə (ə) bizə örnək deyil" dediyi vaxt imam həmin müsahibəni yayan məsulları və müxbirləri işdən kənarlaşdırdı. İmam buyurmadımı ki, həmin qadın dediyi sözləri dərk edirsə, mürtəddir? Amma bu gün dinsizin biri "din hökumətlər üçün tiryəkdir" söyləyir. Necə olur ki, İslam məmləkətinin rəsmi və qeyri rəsmi şəxsləri belə bir kafirə, mürtədə göz yumur?!

Bəli, Allah bizə küframiz sözləri dinləməyi, bu qəbil məclislərdə əyləşməyi qadağan etmişdir. Çünki nifaq və küfr dinləyən insan tədricən təsir altına düşür. Bu gün çox rahatlıqla dini dəyərləri şübhə altına alanlar bir vaxt həmin sözləri dinləyənlərdir. Onlar buna vərdiş verdikdən sonra təsir altına düşmüş, nəhayətdə din və dini dəyərlərə qarşı alətə çevrilmişlər. Bəzən iddia edirlər ki, insan istədiyi vaxt dinini dəyişə bilər! Onlara elə gəlir ki, din libas kimidir, insan istədiyi vaxt birini çıxarıb o birini geyər! Bəzən də deyirlər ki, demokratiya elə bir həddə çatmalıdır ki, insanlar istədikləri vaxt hakimiyyəti dəyişə bilsinlər. Bu hökumət yüz minlərlə şəhidin qanı bahasına başa gəlmiş İslam hökuməti olsa belə!

# DÖRDÜNCÜ MƏCLİS

## MƏSUMLARA İTAƏT MÜMKÜN VƏ ZƏRURİDİR

### *ÖTƏN SÖHBƏTƏ BİR BAXIŞ*

Qeyd etdik ki, ilahi peyğəmbərlərin mühüm vəzifələrindən biri insanların tərbiyəsidir. Quran leksikonunda tərbiyə mənası "təzkiyə" sözü ilə ifadə olunur. İnsanların təzkiyəsi son peyğəmbərdən sonra məsum imamların öhdəsinə düşmüşdür. Bu keçidin səbəbi tərbiyədə nümunələrin, ideaIların mühüm rol oynamasıdır. Ayə və rəvayətlərdə bildirilir ki, Allah övliyaları və din başçılarının rəftarlarına təqlid etmək lazımdır. İnsan məsumların davranışını nümunə götürməli, öz fəaliyyətlərini bu istiqamətdə nizamlamalıdır. Şübhəsiz ki, din övliyalarına təqlid mövzusunu araşdırarkən öncə müqəddimə verilməlidir. Bu səbəbdən də ötən söhbətimizdə həyatın istənilən bir sahəsində təqlidin qaçılmaz olduğunu dilə gətirdik. Qeyd etdik ki, təqlid fitri və əqli bir işdir, qaçılmaz bir zərurətdir. Əgər bir şəxs heç vaxt heç nə barədə kimsədən soruşmaq istəməsə, həyatını nizama sala bilməz. Amma bu o demək deyil ki, insan istənilən bir işdə istənilən kəsə təqlid edə bilər. Təqlid o zaman məntiqi və düzgündür ki, onun şərtləri ödənsin. Elə məqamlar var ki, başqalarına təqlid məzəmmət olunur və təhlükəlidir.

Onu da qeyd etdik ki, təqliddə üç nöqtə nəzərdə saxlanılmalıdır: Hansı hallarda təqlid edilməlidir? Kimə təqlid edilməlidir? Hansı məqsədlə təqlid edilməlidir? Xülasə şəkildə cavab budur ki, insan öz ehtiyaclarına istənilən bir səbəbdən cavab verməyə gücsüz olduqda təqlid edə bilər. Eləcə də insan onun ehtiyac duyduğu sahəni bilənlərə üz tutmalıdır. Onu da qeyd etdik ki, təqliddə məqsəd həqiqətə çatmaqdır. İnsan həqiqəti bilmədikdə onu bilənlərə müraciət edir, onu həqiqətə yönəldə biləcək insanlara tabe olur. Belə bir təqlid düzgün və düşüncəlidir. Bəzən insanlar təqlid edərkən onların məqsədi həqiqətə çatmaq olmur. Onlar kor-koranə başqalarının ardınca

gəzir, onların hərəkətlərini təkrarlayırlar. Bu təqlidlərin kökündə bəzən tayfa bağılılıqları, bəzən məqam əldə etmək istəyi olur. İnsan yalnız ata-babalarının yolunu izləmək məqsədi ilə kor-koranə əcdadlarının hərəkətini təkrarlayır. Belə bir təqlid çox təhlükəlidir və Quran uyğun təhlükə barədə xəbərdarlıq edir. Məqam, şöhrət qazanmaq üçün təqlid edənlər də var. Onlar danışıqlarında, geyimlərində, saç düzümlərində özlərini tanınmış insanlara oxşadırlar ki, məqam əldə etsinlər.

Bəli, yalnız həqiqətə çatmaq məqsədi ilə təqlid düşüncəli təqliddir. Bu yönümdə yalnız məlumatlı, həqiqəti daha yaxşı tanıyan insanlara təqlid edilə bilər. Təqlid üçün ideal seçərkən heç bir nöqsana yol verməmiş insanlara üz tutmağın zəruriliyini kimsə inkar edə bilməz. Əgər ideal insanlara təqlid üçün şərait yoxsa, heç olmaya təqlid ediləcək sahədə nümunə mütəxəssis olmalıdır. Belə bir yol düşüncəli, məntiqi, bəyənilmiş bir yoldur. Biz müsəlmanlar da məsələyə həmin prizmadan yanaşaraq fiqhi məsələlərdə bu sahənin mütəxəssisi olan fəqihlərə təqlid edirik.

## *QEYB DÖVRÜNDƏ MƏSUMA NECƏ TƏQLİD ETMƏK OLAR?*

Allah-taalanın müsəlmanlara, xüsusilə şiələrə əta etdiyi ən böyük nemət həzrət Peyğəmbər və məsum imamların bərəkətli vücududur. Allahın ən üstün bəndələri olan, sonsuz kamal və elmdən bəhrələnən, bütün insani və ilahi fəzilətlərə sahib, istənilən bir baxımdan məsum insanlara təqlid insanın xoşbəxtliyə çatması üçün ən yetərli yoldur. Yalnız məsumlar biz müsəlmanlar üçün ideal ola bilər. Biz onlara heç bir nigarançılıqsız təqlid edə bilərik. Çox zəruridir ki, bu böyük nemətin qədrini bilib Allaha şükür edək. Axı Allah-taala bu müqəddəs insanları bizə tanıtdırmasaydı və bizim üçün təqlid qapılarını açmasaydı bu böyük nemətdən məhrum qalar, cəhalətdə məhv olub gedərdik. Baxın dünyanın ayrı-ayrı guşələrinə! Nə çox firqələr yetərsiz ideallar səbəbindən

bədbəxtliyə düçar olmuşlar. Bəli, məsumlara təqlid nəinki düzgündür, hətta zərurdir. Əgər onlara təqlid etməsək yolumuzu azarıq.

Bu məqamda iki sual, iki şübhəni cavablandırmaq lazım gəlir: Əvvəla, peyğəmbər və məsum imamların dövründə onlara birbaşa təqlid edənlər olmuşdurmu? İkincisi, peyğəmbər və imamların olmadığı bir dövrdə, həzrət Mehdi (ə) qeybə çəkildiyi bir vaxtda biz onlara necə təqlid edə bilərik?

Bəli, məsum imamların insanlar arasında olduğu iki yüz əlli il müddətində insanlar onlara təqlid edə bilərdilər. Amma çoxları nəinki təqlid etmədilər, hətta məsumlara cəfa qıldılar. Əlbəttə ki, əgər həzrət Mehdi aramızda olsaydı bütün əməl və rəftarlarımızda onun yolunu izləyər, bugünkü ağrılı problemlərdən əziyyət çəkməzdik. Amma əfsus ki, imam qeybə çəkilmişdir və biz ona birbaşa təqlid edə bilmirik. Əhli-beytə (ə) zülm edənlərə lənət yağdırmaqdan və bu ayrılığa dözməkdən başqa çarəmiz yoxdur. Amma məsumlara birbaşa iqtida edə bilməsək də, dolayısı ilə onların yolunu izləyə bilərik. Bizim dövrümüzdə məsum imam olmasa da onların həyat tarixçəsi, buyuruqları yetərincə qeydə alınmışdır. Onların həyatını öyrənmək, buyuruqlarını araşdırmaqla yolumuzu işıqlandırıb onlarla addım-addım hərəkət edə bilərik. Bu iş mümkünsüz deyil. Görün bugünkü dünyamızda hər hansı tanınmış şəxsə uzaqdan-uzağa, məsələn, televiziyada tanışlıqla iqtida edənlər nə qədərdir!

## *MƏSUMLARA İQTİDA MÜMKÜNSÜZ DEYİL*

Bugünkü dünyada məsumlara iqtidanın mümkünlüyünü şübhə altına alanlar da var. Onların nəzərincə zaman və məkan təqlid məsələsində zəruri şərtlərdəndir. Bəziləri iddia edirlər ki, min dörd yüz il bundan öncə dünyasını dəyişmiş məsumlara təqlid mümkünsüzdür. Onlar həmin vaxtlar müharibələrin qılıncla aparıldığını, bu günsə modern silahlardan istifadə olunduğunu dəlil göstərirlər. Guya həmin dövrün bugünkü

tikililərdən fərqlənən alçaq damlı, palçaq divarlı evləri həmin dövrün insanlarına təqlid üçün maneədir. Həzrət Peyğəmbər Mədinədə məscid ətrafında zövcələri üçün hücrələr tikmişdi. Buradakı evlərdən biri də Əmirəl-mömininə məxsus idi. Həmin hücrələr uzun müddət bərbad vəziyyətdə qaldı. Nəhayət, Ömər ibn Əbdül-Əzizin dövründə Peyğəmbər məscidini genişləndirmək qərarına gəldilər. Abadlaşdırma zamanı sökülən hücrələr kiçik və sadə idi. Bu hücrələrin qarşısında heyvanlara ot vermək üçün yerə dəri sərilmişdi. Hətta bəzi evlərdə quyudan su çəkmək üçün dəvə saxlanırdı. Peyğəmbər və məsumlara təqlidin mümkünsüzlüyünü iddia edənlər bütün bu nöqtələri ciddi maneə sayırlar. Onların nəzərincə peyğəmbər və onun Əhli-beytinin (ə) yaşadığı dövrün xüsusi şəraiti, ab-havası olmuşdur. Guya zaman dəyişdikcə hər şey dəyişmiş və onlara iqtida etmək mümkünsüz olmuşdur. Min dörd yüz il bundan öncə yaşamış xanım Zəhranın yolunu izləmək xülya sayılır.

Hansı ki, Qurani-kərim müsəlmanları İslam peyğəmbərinə iqtidaya çağırır və buyurur: “ Allahın rəsulunda sizin üçün bəyənilmiş nümunə var. O kəslər üçün ki, Allaha, qiyamət gününə inanır, Allahı çox zikr edirlər.”[1] Uyğun həqiqəti Quran ayələri ilə yanaşı mütəvatir (yetərli sayda olan) rəvayətlər də təsdiqləyir. Çoxsaylı rəvayətlərdə müsəlmanlar məsum imamlara iqtidaya çağırılır. İstənilən bir halda uyğun şübhəni cavablandırmaq, təqlidin düşüncə və fitrətə uyğunluğunu sübuta yetirmək lazım gəlir.

## *TƏQLİD SAHƏLƏRİ*

### a) Etiqadlar sahəsi

Təqlid sahələrindən biri etiqadlarda, baxışlarda, düşüncə tərzində təqliddir. Bəzi etiqadi məsələlər əqli dəlillərlə sübuta yetməlidir. İnsan düşüncəsində belə bir güc var. Tövhid, nübüvvət, məad kimi etiqadlarda insan öz düşüncəsi vasitəsilə

---

[1] “Əhzab”, 21

dəlillər əldə edə bilər. Uyğun etiqad əsaslarını əqli dəlillərlə sübuta yetiririk. Bu sahədə təqlid yoxdur. Amma bəzi etiqadi məsələləri əqli dəlillərlə sübuta yetirmək mümkünsüzdür. İlk qəbir gecəsi, qiyamət səhnəsi bu qəbil məsələlərdəndir. Bu qəbil etiqadlarda təqlid etməyə məcburuq. Əlbəttə ki, uyğun etiqadi məsələlərdə təqlid dedikdə fiqhi məsələlərdə zəruri şərtlərə malik fəqihə təqlid kimi bir təqlid nəzərdə tutulmur. Ölüm və qiyamət kimi məsələlərdə təqlid məsumların biliklərinə yiyələnməkdir. İctimai və psixoloji mövzulardakı təqlid də bu qəbildəndir. Bu mənada təqlid şəri hökmlərdə təqliddən daha əhatəli məna daşıyır. Təqlidin uyğun əhatəli tərifinə əsasən həkimə, mühəndisə, istənilən bir mütəxəssisə müraciət də bir növ təqliddir.

Əqli dəlillərlə sübuta yetirilməsi mümkün olmayan etiqadlar Quran ayələri, Peyğəmbər və onun Əhli-beytinin (ə) buyuruqları əsasında qəbul edilir, uyğun sahədə həmin buyuruqlara itaət göstərilir. Bəli, bu qəbil etiqadlar da bizim sabit etiqadlarımızdandır. Çünki onları mötəbər mənbələrdən əxz etmişik. İnanmalı olduğumuz və ağılla sübuta yetirilməyən etiqadlarda heç bir səhvə yol verməmiş məsum insanlara tabe olmalıyıq. Belə etsək, onların buyuruqları bizim üçün dəlil olar. Allah-taala bəndələrinə minnət qoymuş, müraciət üçün mötəbər bir mənbə və peyğəmbər Əhli-beytini (ə) qərar vermişdir. Onların buyuruqları bizim üçün mötəbərdir. Onların təqdim etdiyi etiqadlara hökmən yiyələnməliyik. Əlbəttə ki, etiqadi məsələlərdə mötəbər buyuruqlar əsas götürülür. Rəvayətin nəql olunması bəs etmir, həmin rəvayət mütəvatir, mötəbər olmalıdır. Sənədi, mənbəsi mötəbər olmayan rəvayətlər əsas sayılmır. Bir sözün məsumun dilindən çıxdığı sübuta yetərsə, artıq həmin buyuruq dəlildir. Əgər rəvayətdə hər hansı etiqad təqdim olunursa və rəvayətin mötəbərliyinə şübhə yoxdursa, həmin əsasa inanmağımız vacibdir. Quran və Əhli-beyt (ə) tərəfindən təqdim olunan, eləcə də bizim qəbul etdiyimiz etiqadlar sabit və daimidir. Onlar üçün zaman və məkan

məhdudiyyəti yoxdur, bu etiqadlar maddi həyat boyu dəyişilməzdir. Əqli dəlillərlə sübuta yetən tövhid məsələsi sabit və əbədi bir məsələdir. Allah yeganədir və onun yeganəliyi zaman və məkandan asılı deyil. Əqli və nəqli dəlillərə malik etiqadları heç bir ictimai təbəddülatlar dəyişə bilməz. Məsələn, bildirilir ki, ilk qəbir gecəsində Nəkir və Münkər dünyasını dəyişən şəxsi sorğu-suala çəkər. Bu məlumatı İslam peyğəmbəri kimi sadiq bir şəxs bəyan etmişdir. Peyğəmbərin buyuruğuna "həmin hadisələrdən min dörd yüz il ötüb" deyə şübhə ilə yanaşmaq olmaz. Bu qəbil xəbərlər sadiqdir və zaman dəyişdikcə dəyişməz. Etiqadlar sahəsində vaxtın ötməsi təsirsizdir və onlar hər zaman aktualdır.

### b) Dəyərlər sahəsi

Təqlid ediləsi sahələrdən biri də dəyərlər sahəsidir. İnsan əmr və qadağalara, yaxşılıq və pisliklərə münasibətdə təqlid edə bilər. Əlbəttə ki, belə bir təqliddə etiqadlar ümumi şəkildə nəzərdə tutulur. Əslində elmi baxımdan dəyərlər etiqadlardan ayrı bir sahədir. Dəyərlər əsasən əxlaq mövzusudur. Amma elə dəyərlər var ki, insanın düşüncəsi tərəfindən qavranılır. Şübhəsiz ki, azğın yox, həqiqi ağıldan söhbət gedir. Ağıl bu həqiqətləri dərk etməkdə müstəqildir. Əxlaqi dəyərlərin qəbulunda vəhy və şəriətə ehtiyac yoxdur. Bu iş ağılın işidir. Uyğun dəyərləri ağıl müstəqil şəkildə dərk edir. Bu sahədə nümunələrə, təqlidə, itaətə möhtac deyilik. Ağılın təsdiqlədiyi istənilən bir iş vəzifə olur. Əgər ağıl bir işi pis dəyərləndirirsə onu qəbul edirik. Hətta fiqhdə müstəqil əqli nəticə dəlil sayılır. Əgər bir məsələ haqqında nəqli dəlil yoxsa, həmin məsələyə münasibətdə ağılın sübutları yetərlidir. Hətta fiqhi dəlillər axtarmazdan öncə ağıla müraciət etdikdə ağıl bir həqiqəti tam təsdiqləyirsə, onun təsdiqi bəs edər. Əlbəttə ki, ağılın müstəqil şəkildə dərk edə bilmədiyi məsələlərdə mötəbər mənbələrə ehtiyaclıyıq. Belə olduqda nümunə seçməli, itaət göstərməli, vəhyə tabe olmalıyıq. Yəni peyğəmbər Əhli-beyti (ə) bir məsələni təsdiqləyirsə, biz də onlara tabe olaraq onların dəyər

olduğuna inanırıq. Vəhy, vəhy daşıyıcılarının təqdim etdiyi dəyərlər, məsumlardan əxz etdiyimiz biliklər mütləq, sabit, şübhədən uzaqdır.

Əlbəttə, bilməliyik ki, sabit və mütləq dəyərlərin varlığına etiqad, onların isbatı bu işin asanlığını göstərmir. Qədim sofistlər və şəkkahlar sabit inancların varlığını ümumiyyətlə rədd edir, hətta iddialarının sübutu üçün elmi qaydalar da göstərirlər. Amma belə bir baxış qədim və müasir cəhalət cərəyanlarına aiddir və heç vəchlə qəbul oluna bilməz. Əksər alimlərin və düşüncə sahiblərinin fikri budur ki, bizim elm və etiqad sahəsində dəyişməz mövzularımız var. Məsələn, bir çox riyazi, məntiqi və metafiziki məsələlər sabitdir. Bizimsə əqidəmiz budur ki, peyğəmbərlər və məsum imamlardan sabit biliklər öyrənmək olar. Amma dəyərlərə münasibətdə alimlər arasında fikir ayrılığı var. Çoxları hətta etiqad yönümündə sabit dəyərlərin mövcudluğunu inkar edən sofistlər kimi düşünmür. Bir çox alimlər əmindirlər ki, etiqadlar dəyişməzdir, yalnız dəyərlərin nisbiliyindən danışmaq olar. Onların nəzərincə, yaxşı və pis sabit deyil. Bu zümrədən olanlar Allahın birliyinə etiqadı sabit sayırlar. Eləcə də qəbul edirlər ki, ölümdən sonra həyat mövcuddur. Amma bir dəyərin həmişə yaxşı olmasını inkar edirlər. Onların nəzərincə, bu gün pis sayılan bir dəyər sabah yaxşı dəyərləndirilə bilər. Onlar düşünürlər ki, bir dəyərin müsbət və ya mənfi olması hətta cinsdən, coğrafi mövqedən, iqlim və zamandan asılıdır. Onların nəzərincə, 1400 il bundan öncə yaşamış insanların düşüncəsi əsasında nələrisə yaxşı, nələrisə pis saymaq olmaz.

Əlbəttə ki, dəyərlərə münasibətdə nisbilik nəzəriyyəsinin nə dərəcədə doğru olduğunu araşdırmaq lazımdır. Müəyyənləşdirməliyik ki, ümumiyyətlə sabit dəyərlər mövcuddurmu? Bu dəyərlərin mövcudluğunu sübut etdikdən sonra sabit dəyərlərin dəyişkən dəyərlərdən necə fərqləndirildiyini müəyyənləşdirməliyik. Bütün bu mövzular olduqca mürəkkəbdir və əxlaq fəlsəfəsinin işidir. Hazırda bu

barədə danışmaq istəmirik. Ümumi şəkildə deyə bilərik ki, Quran ayələri, peyğəmbər və məsumların buyuruqlarına əsasən, İslamda sabit dəyərlər mövcuddur. Ümumiyyətlə, dinimizdə əxlaqi dəyərlər dəyişməz qəbul olunur. Zaman və məkan kriteriyaları əxlaqi dəyərlərə təsir göstərmir. Bəli, zülm həmişə və hər yerdə pisdir. Ədalət həmişə və hər yerdə yaxşıdır. Gördüyünüz kimi, bu dəyərlər də bəzi etiqadlar kimi sabit və dəyişməzdir, zaman və məkan məhdudiyyətinə tabe deyil. Allaha etiqad, peyğəmbər və məada inam sabit olduğu kimi, bir sıra əxlaqi dəyərlər də sabitdir. Əxlaqın bünövrələri də dəyişməz və mütləqdir. Zaman ötdükcə əxlaqi dəyərlərin əsasları dəyişmir. Sabit dəyərlərin dərk olunmasında təqlidə ehtiyac duysaq 1400 il bundan öncə yaşamış vəhy daşıyıcılarına təqlid edə bilərik. Onların yolunu izləməklə sabit dəyərlərə inanmaq mümkündür.

Amma bəzi rəftarlar və dəyərlər şərait dəyişdikdə xüsusi bir çərçivədə dəyişə bilər. Məsələn, doğru danışmaq gözəldir, amma müəyyən şəraitdə doğru danışmaq pis sayılır. Əgər doğru söz bir insanın qətlinə səbəb olarsa, başqa yol seçmək lazım gəlir. Yalan pisdir. Amma əgər yalan bir insanın həyatını xilas edə bilərsə, yaxşı sayılır. Müəyyən məqamlarda hətta yalan danışmaq vacibdir. Bəli, müəyyən əxlaqi dəyərlər dəyişə bilər. Amma bu dəyişiklik zaman şərtinə bağlı deyil. Zaman əxlaqi dəyərlərə təsir göstərmir. Meyarlar dəyişikliyə səbəb ola bilər. Əgər dəyişə bilən dəyərlərin meyarlarını nəzərdən keçirsək onların da sabit olduğunu görərik. Bir sözlə, etiqad və dəyərlərin ağıl işləməyən sahəsində vəhyə üz tutub, vəhy daşıyıcılarına təqlid etmək olar:

### v)Üsullar sahəsi

Təqlidin başqa bir sahəsi taktika, əməli üslublarda təqliddir. Biz malik olduğumuz dəyərlər əsasında həyat məqsədi müəyyənləşdiririk. Bizim məqsədimiz Allaha yaxın məqama çatmaqdır. Bu məqamı kamil insan məqamı da adlandırmaq olar. Həmin məqsədə doğru hərəkətdə ara

məqsədlər də var. Şübhəsiz ki, hər bir dərəcəyə çatmaq üçün üsullar mövcuddur. Əqli dəlillər, mötəbər təcrübələr əsasında müəyyən üsullar müəyyənləşdirilə bilər. Əqli dəlillər və mötəbər təcrübələr əsasında müəyyənləşdirilən bu üsullar uca məqsədlərə çatmaqda bizə yardım göstərir. Üsullar bilindikdən sonra başqalarına itaətə ehtiyac qalmır. Biz ilahi məqsədlərə doğru hərəkətdə mövcud olan üsullardan xəbərsizik. Olsun ki, təcrübəmiz azdır, ya da dəlillər tapmaq gücümüz zəifdir. Belə olduqda uyğun üsulları başqalarından öyrənməli oluruq.

Cəmiyyət üçün sabit dəyərlərdən biri asayiş, əmin-amanlıqdır. Fərdi və ictimai baxımdan əmin-amanlıq zəruri bir ehtiyacdır. İstənilən bir zamanda, istənilən bir şəraitdə cəmiyyətin əmin-amanlığı təmin olunmalıdır. Əmin-amanlıq olmasa daş-daş üstə qalmaz, heç bir iş yoluna düşməz, insanların aramlığı əlindən çıxar. Deməliyik ki, əmin-amanlığın qorunması üçün üsullar şəraitdən asılı olaraq dəyişir. Məsələn, məsum imamların dövründə cüzi bir qüvvə ilə cəmiyyətin əmin-amanlığı təmin olunurdu. Amma bu gün əmin-amanlığın qorunması üçün geniş, güclü, çoxsaylı, yetərli proqramlara malik təşkilatlara ehtiyac var. Bu qəbil təşkilatların idarə olunması üçün böyük büdcələr ayırmaq lazım gəlir. Bütün bu ehtiyaclar  yer üzündə ictimai şəraitin mürəkkəbləşməsi ilə əlaqədardır. Ona görə də asayişin təmin olunması sahəsində xüsusi tədbirlər görülür, qanunlar tənzimlənir, texniki vasitələrdən istifadə olunur. Zaman ötdükcə, şərait dəyişdikcə digər hökumət idarələrində də dəyişikliklər baş verir.

İslamın ilk dönəmlərində bir əyalətin idarə olunması üçün bir vali göndərilirdi. Bəzən ona beytül-mala nəzarət üçün etibarlı bir şəxs, xalqın haqq yola çağırışı üçün  bir alim və təfsirçi qoşulurdu. Bu bir neçə nəfər bir əyalət və şəhəri idarə edirdilər. Amma hazırkı dövrdə həmin üç şəxs kiçik bir kəndi də dolandıra bilməz. Şəhərin müxtəlif idarə və təşkilatlara, mütəxəssislərə ehtiyacı var. Onların ehtiyacları isə ciddi bir büdcə tələb edir. Kim iddia edə bilər ki, Əmirəl-mömininin

dövründə çoxsaylı asayiş keşikçiləri olmadığından bu gün də həmin qüvvəyə ehtiyac yoxdur?! Əgər İslam hökuməti qurmaq, peyğəmbər və məsum imamların yolunu getmək istəsək nə etməliyik? Şübhəsiz ki, dövr dəyişmişdir və 1400 il əvvəlki idarəçilik strukturları ilə kifayətlənmək olmaz. Təqlid dedikdə bugünkü cəmiyyətin ehtiyaclarına göz yumulması nəzərdə tutulmur.

Ən böyük şübhə və suallar da təqlidin məhz bu sahəsinə aiddir. Məlum məqsədlərə çatmaq üçün hansı üsullardan istifadə edilməlidir? Etiqadlar və dəyərlər sahəsində şübhələri cavablandırmaq asan idi. Çünki etiqadlar sabitdir, zaman onlara təsir göstərmir. Dəyərlər sahəsində də vəziyyət bu cürdür. Bəzi dəyərlər dəyişsə də onların meyarları sabitdir. Demək olar ki, zaman nə etiqadları, nə də əxlaqi dəyərləri dəyişir. Bəzi firqələr arasında etiqadlar və dəyərlərlə bağlı ixtilaflar var. Amma biz eyni bir məzhəb və əqidədə olanları nəzərdə tuturuq. Eyni bir firqədən olanlar arasında etiqad və əxlaqi dəyərlər mövzusunda problem yoxdur. Amma məqsədə necə çatmaqla bağlı istənilən qədər mübahisə aparılır. Bu sahədə təqlidin çərçivələrini müəyyənləşdirmək çox çətindir.

Müəyyən fiqhi üsulları fəqihə müraciət və ya ona təqlidlə müəyyənləşdirmək olur. Məsələn, vergi alınıb-alınmaması fiqhdə araşdırılan mövzulardandır. Fiqh müəyyənləşdirməlidir ki, İslam dövləti xüms və zəkatdan əlavə vergi ala bilərmi? Yoxsa elə vergi xüms və zəkatdan ibarətdir? Fəqihlər bu mövzunu aydınlaşdırmaq üçün həzrət Peyğəmbər və məsum imamlara müraciət etmiş və qərara gəlmişlər ki, İslam dövləti cəmiyyətin ehtiyaclarını təmin etmək üçün xüms və zəkatdan əlavə vergi ala bilər. Bəzi üsullar və gedişlər isə fiqhə aid deyil və fiqhi biliklər həmin sahədə fayda vermir. Uyğun sualları cavablandırmaq üçün ictimai-siyasi biliklər əldə etmək, sosiologiyanı öyrənmək lazım gəlir. Məsələn, məmləkət və dövləti idarə etməyin ən mühüm taktikalarından biri dövlətlətr arası siyasətin müəyyənləşməsi, digər ölkələrlə rabitələrin hansı

şəkildə qurulmasıdır. Heç bir cəmiyyət uyğun istiqamətdə siyasətini müəyyənləşdirmədən yaşaya bilməz. Hansısa dövlətin öz sərhədlərinə hasar çəkib dünya ilə əlaqəni üzməsi mümkünsüzdür. Beynəlxalq rabitələrin hansı şəkildə qurulması isə olduqca mürəkkəb məsələdir. Bu sahədə Peyğəmbər və məsumların qonşu ölkələrlə rəftarlarını öyrənmək bəs etmir. Çünki dövr çox dəyişmişdir, yeni siyasi ab-hava yaranmışdır. Hazırda dünyanın ən böyük siyasi problemlərindən biri Fələstin problemi, sionist rejimin Amerikanın himayələri sayəsində törətdiyi cinayətlər mövzusudur. Dünyanın əksər gücləri uyğun problemə münasibətdə ən azı biganə mövqe tutmuşdur. Öz azadlığını və dini dəyərlərini qorumaq üçün Fələstin xalqı misilsiz işgəncələrə məruz qalır. Onlar müqəddəs amalları uğrunda böyük fədakarlıq göstərirlər. Azğın sionistlər fələstinlilərin evlərini viran qoyur, əkin sahələrini məhv edir, həyatlarına qəsd edirlər. Məlun sionistlər hətta qocalara, körpələrə, qadınlara rəhm etmirlər. fələstinlilərin fəryadı səmaya ucalmışdır. O böyük problemə münasibətdə bizim vəzifəmiz nədir? Şərait bizə icazə verirmi ki, biz Fələstinlilərə arxa duraq, onlara yardım əli uzadaq? Fələstinlilərə kömək üslubunu təyin etmək çox çətindir. Bu sahədə araşdırmalara ehtiyac var. Biz hansısa rəvayət əsasında bu istiqamətdə vəzifəmizi müəyyənləşdirə bilmərik.

Qeyd etdiyimiz kimi, məqsədlərə çatmaq, dəyərləri dirçəltmək, hökuməti idarə etmək üçün üsulları müəyyənləşdirərkən iki növ ixtisasa ehtiyac var. İnsanlar hər iki yönümdə həmin mütəxəssislərə təqlid etməlidir. Birinci ixtisas fiqhi məsələlərlə bağlıdır. Təəssüf ki, bu yönümdə hökumətlə bağlı fəaliyyətlər çox az araşdırılmışdır. Fiqhdə idarəçilik baxımından ciddi araşdırmalar aparılmasına ehtiyac var. İkinci ixtisas siyasi və ictimai suallara cavab verir. Sadəlövhlükdən elə düşünmüşük ki, ümumi fiqhi hökmləri müəyyənləşdirməklə ictimai-siyasi yönümdə də məsələləri həll edə bilərik. Hansı ki, fiqhi hökmlərlə bağlı mövzularda xüsusi ixtisasa ehtiyac var.

Məsələn, siyasi mövzuların araşdırılmasında ayrıca ixtisas formalaşmalıdır. Bu sahədə xüsusi mütəxəssisə təqlid olunmalıdır. Dövlətçilik məsələsində hər fiqhi göstəriş mötəbər deyil. Biz siyasi təcrübəsi olmayan fəqihlərə təqlid edə bilmərik: Yalnız siyasətçi fəqihlərin baxışları uyğun sahədə mötəbərdir. Məsələn, Fələstin məsələsinə münasibətdə vəzifəmizi müəyyənləşdirərkən risalələrlə kifayətlənə bilərikmi? Risalələrdə yazılıbmı ki, bizim fələstinlilərə münasibətdə vəzifəmiz nədir? Hətta bu mövzunu araşdıran fəqih yalnız ümumi hökmlər verir. Əməli addımlar atmaq üçün isə fiqhə aid olmayan nöqtələr aydınlaşdırılmalıdır.

Fiqhi məsələlərdə daha elmli (ələm) fəqihə müraciət edirik. Siyasi baxımdan vəzifəmizi müəyyənləşdirmək üçün öncə siyasətçi fəqihə müraciət etməliyik. Əgər, Allah eləməmiş, fəqihlərimiz siyasətdən baş çıxarmasalar, bu yönümdə ədalətli siyasətçilərə müraciət etməli olacağıq. Siyasətçinin fiqhi baxımdan ələm olması şərt deyil. Amma o ədalətli olmalıdır. Siyasi məsələlərdə təqlid edəcəyimiz şəxs öncə ədalətli olmalı, sonra siyasi biliklərdən bəhrələnməlidir. Təcrübədə sübuta yetdi ki, İmam rahil fəqih olmaqla yanaşı, böyük siyasətçi idi. Böyük rəhbərlik məqamı da bu qəbildəndir. Böyük rəhbər həm fəqihdir, həm də böyük siyasətçi. Bir ömür fiqhlə məşğul olmuş İmam Cəmaranda çıxış edərkən dünyanın tanınmış siyasətçilərini heyran qoydu. Hətta həmin vaxt Amerikanın prezidenti işdən ayrılıb İmam rahili dinləmişdi. Əlbəttə ki, onların maraq dairəsində olan, İran rəhbərinin hansı addımlar atacağı idi. Fiqhi məsələlərdə insanlar üçün təqlid ünvanı olan fəqihlər siyasi məsələlərdə də öncül ola bilərlər. Çünki onlar siyasət və dövlətçilik məsələlərində də öncüllüyə başqalarından daha layiqdirlər.

Məsumların fəqihlərə təqlidi zəruri sayıb, siyasətçilərə təqlidə göz yumması mümkünsüzdür. Əvvəla, məsumun göstərişi fiqhi məsələlərlə bağılıdır. İkincisi, təqliddə əqli dəlillərə də ehtiyac var. Ağıl cahilin alimə təqlidini zəruri sayır.

Cahil, bilməyən insan istənilən bir sahədə bilmədiklərini alimdən öyrənməlidir. Bu baxımdan da fəqih fətva verirsə ki, xəstə şəxs oruc tutmasın, biz fəqihə tabe oluruq. Amma oruc tutmağın zərərli olub-olmamasını dəqiqləşdirmək üçün həkimə müraciət edirik. Əgər fəqih həm də həkim olsaydı, uyğun suala da özü cavab verərdi.

## q) Vasitələr sahəsində təqlid

Təqlid üçün dördüncü sahə vasitələr sahəsidir. Bu vasitələrlə insanlar öz ehtiyaclarını ödəyirlər. Geyim, iş alətləri, dil bu qəbildəndir. Ehtiyaclarımızı təmin etmək üçün bu vasitələrə müraciət etməyə məcburuq. Məsələn, başqa bir millətdən olan şəxslə danışarkən onun dilinə təqlid edib, həmin dildə danışmalı oluruq. Ərəblərlə ünsiyyətdə ərəb dilini, ingilislərlə ünsiyyətdə ingilis dilini bilmək lazım gəlir. Dəyər sayılmayan vasitələrə münasibətdə ehtiyacımızı ödəyə biləcək qarşı tərəfə təqlid edirik. İngilis dilini və yazısını öyrənmək istəyən bir şəxsin təqvalı müəllimə müraciət etməsinə ehtiyac yoxdur. Bu sahədə kafirə də müraciət etmək olar. Əlbəttə ki, ünsiyyət zamanı şəri ölçülər gözlənilməlidir. Deməli, ehtiyac duyulan vasitəni əldə etmək üçün insan həmin vasitəyə malik olan tərəfə üz tutur. Biz texniki vasitələr, nəqliyyat vasitələri əldə etmək üçün qeyri-islami ölkələrlə də əlaqə saxlaya bilərik. Çünki əldə etmək istədiklərimiz dəyər yox, vasitədir. Amma bu işdə də siyasi nöqtələr nəzərə alınmalıdır. Məsələn, sionist rejimi kimi təcavüzkar rejimlərlə rabitədən çəkinmək lazımdır.

Qısaca belə deyə bilərik ki, təqlidin yuxarıda qeyd etdiyimiz dörd sahəsinin etiqadlar və dəyərlər bölməsində 1400 il bundan öncə yaşamış Peyğəmbər və məsumlara təqlid etməyimiz zəruridir. Çünki etiqadlar və dəyərlər sabitdir, zaman və məkandan asılı olaraq dəyişmir. Amma üçüncü sahədə, yəni üsullar, taktikalar sahəsində siyasət və sosioloji biliklərə malik məsum canişininə, vəliyyi-fəqihə təqlid etməliyik. Belə bir təqlid məsuma vasitəli təqlid sayılır. Vəliyyi-fəqih (müsəlmanların rəhbəri) fəqih olmaqla yanaşı,

siyasət və idarəçilik sahələrində də mütəxəssis olmalıdır. Onun təqvalı və ədalətli olması da zəruridir. Vəliyyi fəqihin mütəxəssis olmadığı sahələrdə onun müşavirlərinin baxışı mötəbərdir. Təqlidin dördüncü sahəsində isə, qeyd etdiyimiz kimi, ehtiyac duyduğumuz vasitələrə malik tərəfə müraciət edə bilərik.

# BEŞİNCİ MƏCLİS

## DİNƏ ŞÜBHƏ YARADILMASI ÜSULLARINA BİR BAXIŞ

## *DİNƏ QARŞI ADDIMLAR BİGANƏLƏŞDİRMƏ SİYASƏTİNİN NƏTİCƏSİDİR*

Ötən söhbətimizdə Peyğəmbər əhli-beytinin (ə) nümunə seçilməsi və onlara itaət haqqında danışdıq. Cəmiyyətimizdə bu sahə ilə bağlı problem olmasa da, dünyaya hakim baxışlar, təəssüf ki, bizim də cəmiyyətimizə öz təsirini göstərməkdədir. Bu səbəbdən də əqidələrimizi və düşüncə əsaslarımızı dəlillərlə möhkəmləndirməyimizə ehtiyac var. Yalnız bundan sonra dinə münasibətdə yaradılan şübhələr təsirsiz qala bilər. Bu məqsədlə təqlidə münasibətdə ortaya atılan şəkk-şübhələrə, suallara cavab verdik. Qeyd etdik ki, bir qrup şəxs başqalarına təqlidi mənfi dəyərləndirir. Onlar bəhanə gətirirlər ki, insan öz düşüncəsi əsasında qərar çıxarmalı, seçim aparmalıdır. Əgər bu qəbil şübhələr cahil fərdlər tərəfindən ortaya atılsaydı, onları cavablandırmaq asan idi. Amma uyğun addımlar məqsədli şəkildə, dinə zərbə vurmaq məqsədi ilə atılır. Bir qrup insan İslam düşmənləri ilə əl-ələ verərək dini ictimai həyat səhnəsindən sıxışdırıb çıxarmaq məqsədi ilə fəaliyyət göstərirlər. Onlar bu işdə dini həqiqətləri sual altına alır, uyğun dəyərlərə münasibətdə tərəddüd yaradırlar. Böyük Rəhbərlik Məqamı hələ on il bundan öncə uzaqgörənliklə dinə qarşı ideoloji hücumlar barədə xəbərdarlıq edirdi. Həmən vaxt çoxları bu işin əhəmiyyətini dərk etmirdi. Amma bu gün hər birimiz dünya azğınlarının anti-islam fəaliyyətlərinin aşkar nümunələrini müşahidə edirik.

İş bir yerə çatıb ki, cəmiyyətdəki biganəlik ruhu səbəbindən müqəddəsliklər təhqir olunur, məsxərəyə qoyulur. Hətta dini zərurətlər inkar edilir. Cahil bir qadın “bu gün xanım Fatimə bizim üçün nümunə deyil” söylədiyi vaxt İmam

buyurmuşdu: "Əgər həmən qadın bu sözü bilərəkdən deyirsə mürtəddir." Bu qəbil xəbərdarlıqlar bir müddət cəmiyyəti sığortalayırdı. Bu gün isə küframiz sözlər o qədər təkrarlanır ki, qulaqlar buna vərdiş verir, hər hansı reaksiya göstərilmir. Hətta bu qəbil azğın sözləri danışanlar bəzi məsullar tərəfindən himayə olunur!

## *DİNƏ QARŞI TƏDRİCİ ADDIMLAR*

Dini dəyərləri və İslam nizamını aradan qaldırmaq istəyənlər müxtəlif üsullara əl atırlar. Onlar tədricən irəliləyir, öncə cüzi məsələlərə münasibətdə şübhə yaradırlar. Elə ki, həssaslıq zəifləyir və zəmin yaranır, dinin üsullarına hücum edirlər. Biz tədricən küfrə sürüklənən möminin psixologiyasını təhlil etdik. İnsan üçün hər hansı dini hökmü yerinə yetirmək çətin olduqda ona meyl göstərmir, nəfs istəkləri baş qaldırır. Öncə müctəhidin fətvası şübhə altına alınır. Deyirlər ki, müctəhid fətvasında səhvə yol verib. Müctəhidlərin fətvalarındakı fərqi dəlil göstərirlər. Bildirirlər ki, yanılma ehtimalı olan fətvalar mötəbər deyil. Bildirəndə ki, müctəhid öz fətvasında sünnə və məsumların buyuruqlarına əsaslanır, rəvayətləri şübhə altına alırlar. Deyirlər ki, bir çox rəvayətlərin sənədi zəifdir. Müctəhidin istinad etdiyi rəvayət də bu qəbildəndir. Onlara uyğun rəvayətin mötəbərliyi sübuta yetirildikdə məsumun buyuruğunu şübhə altına alırlar. Deyirlər ki, imamın sözünün mötəbərliyinə dəlil nədir? Guya təkcə biz şiələrin imamların buyuruqlarını mötəbər saymağımız şübhə üçün əsas ola bilər.

Hətta uyğun mövzunu təsdiqləyən Quran ayəsi göstərildikdə müctəhidin Quranı düzgün anlamasını şübhə altına alır və deyirlər ki, Quran ayələri müxtəlif cür şərh edilə bilər. Quran ayəsinin düzgün mənalandırıldığını sübuta yetirdikdə Quranın Allah tərəfindən nazil edilməsini şübhə altına alırlar! Bu gün Quranın Allah kəlamı olmadığını iddia edənlər var. Onların nəzərincə, Quran Peyğəmbərin öz

yaradıcılığıdır. Onlar Peyğəmbərin səhvə yol verə biləcəyini və buyuruqlarının etibarlı olmadığını iddia edirlər. Quranın Allah kəlamı olduğu sübuta yetirildikdə Allah kəlamının özünü şübhə altına alırlar. Universitet müəllimlərindən biri belə demişdir: "Tutaq ki, Quran Allah kəlamıdır. Əgər yaxşı və pis, düzgün və yalan şərtidirsə, Allah məsləhət bildiyindən yalan deyə bilər!"

Yuxarıda deyilənlər bəşəriyyəti azdırmaq üçün şeytanın qurduğu tələlərdəndir. Şeytan hər yolla insanı küfrə çəkir. Allahın hakimiyyətindən çıxıb şeytanın hökmünə tabe olanlar belə bir pis aqibətə düçar olur. Şeytan ona tabe olanları ardınca çəkir, nəhayətdə cəhənnəmə sürükləyir. Quranda oxuyuruq: "Onun (şeytanın) hakimliyi yalnız onu özünə hakim seçənlər üçündür. Beləleri Allaha münasibətdə şərik qoşurlar." [1] Şeytanın öz planlarını həyata keçirmək üçün əlaltıları var. Onlar Allahın bəndələrini aldadıb haqq yoldan azdırmağa çalışırlar. Şeytan and içir ki, onları birbəbir azdırasıdır.[2]

Böyük Rəhbər buyurmuşdu ki, bu gün gənclərimizin düşüncə və imanı hədəfə alınmışdır, onlara şübhələr təlqin olunur. Bəli, onlar zəruri şərtlərə malik fəqihə təqlidi yersiz saymaqla işə başlayırlar. Nəhayətdə, ayələr və rəvayətlər təhrif olunur. Düşmənlər öz cazibədar fəlsəfələri ilə təfsirə ehtiyaclı ayə və rəvayətləri öz bildikləri kimi yozur, dini müddəaların həqiqətdən uzaq olduğunu bildirirlər. Bir sözlə, öz alçaq niyyətlərinə elmi don geyindirərək gənclərin düşüncə və imanını zəhərləyirlər. Uyğun istiqamətdə fəaliyyətlər sayəsində inanılmayası şəxslər yolundan azdırılmışdır. Öncədən təsəvvür etmək olmazdı ki, bir neçə il ərzində bu qədər dəyişiklik baş verə. Bəli, ayıq olmalı, imanımızı hifz etməliyik. Həm də çalışmalıyıq ki, gənclərimizin düşüncə, əqidə və rəftarları azdırılmasın.

---

[1] "Nəhl", 100

[2] bax: "Sad", 82

## *DİN BAŞÇILARINA MÜNASİBƏTDƏ ŞÜBHƏ*

Ötən söhbətlərdə dedik ki, təqliddə məqsəd həqiqətə çatmaq deyilsə, insan kimə gəldi üz tutub, kimə gəldi itaət edəsidir. Belə bir təqlid düşüncəsiz və kor-koranədir. Milli qəhrəmanlara, kino aktyorlarına kor-koranə təqlidi misal göstərmək olar. Bu qəbil təqlidlər məzəmmət olunur və insana yaraşmır. Amma həqiqətin kəşfi məqsədilə, cahilin alimə müraciəti ilə müşayiət olunan təqlid ictimai bir zərurətdir və bundan qaçmaq mümkünsüzdür. Bu əsasla Peyğəmbər əhli-beytinin yolunu gedə bilərik. "Təqlid" sözünə münasibətdə "təəssi" sözü müəyyən məhdudiyyətlərə malikdir. Əgər təqlid düşüncə sahəsini də əhatə edirsə, təəssi dedikdə yalnız rəftarda nümunə götürmək nəzərdə tutulur. Peyğəmbər Əhli-beytinə (ə) təəssi, yəni ardıcıllıqda iki şübhə təlqin olunur: Nümunə götürüləsi fərdin rəftarları göz qabağında olmalıdır və 1400 il bundan öncə yaşayanlara ardıcıllıq mümkünsüzdür. İkinci şübhə budur ki, 1400 il bundan öncə yaşayanların dövrü başqa olub və həmin dövrdəki rəftarlar bu günə tətbiq oluna bilməz.

Birinci şübhənin cavabında deyə bilərik ki, Əhli-beytin (ə) rəftarlarını bu gün müşahidə edə bilməsək də, məsuma daha yaxın olanların yolunu gedə bilərik. Bu gün məsumların olmamasının səbəbi və ya imam Mehdinin (ə) qeybə çəkilməsinin illəti onlara münasibətdə zülmə yol verilməsidir. Bəli, məsum yoxsa, ona daha yaxın olanların rəftarını izləmək olar. Amma psixologiyada qəbul olunmuş ideal prinsipinə elmli, təqvalı, mənəviyyatlı nümunələr seçməklə də əməl etmək olar. İkinci bir tərəfdən, biz məsumların buyuruqlarını və həyat yolunu mütaliə etməklə onların yolunu tanıya bilər və rəftarlarını nümunə seçə bilərik.

İkinci şübhəyə münasibətdə deyə bilərik ki, düşmənlər öz məqsədlərinə çatmaq üçün məzəmmət olunmuş təqlidi də meydana çəkirlər. Bəli, onlar təqlid mövzusuna münasibətdə hiyləgərliyə əl atırlar. Quran ata-babalara kor-koranə təqlidi məzəmmət edir. Düşmənlər məsumlara təqlidi də ata-babalara

təqlidlə bir sıraya qoymağa cəhd göstərir. Qeyd etməliyik ki, məsumlara təqlid nəinki düzgündür, hətta vacibdir. Çünki məsumlara təqlid əcdadlara təqliddən fərqli olaraq düşüncəyə əsaslanır. Belə bir məqamda müxaliflər məsumların müəyyən rəftarlarını önə çəkərək iddialarını sübuta yetirməyə çalışırlar. Məsələn, iddia edirlər ki, məsumlar çiy kərpicdən ev tikmiş, ağac budaqlarından dam örtüyü hazırlamışlar və bu gün uyğun işi görmək mümkünsüzdür. Hansı ki, məsumların rəftarlarını izləmək dedikdə bu qəbil işlər nəzərdə tutulmur. Amma onlar dediklərini deyirlər. Geyim, məişət əşyaları, tikintiləri bəhanə gətirərək yalnız qərbə üz tutmağı mümkün sayırlar. Onlar məhz belə bir təqlidi təkamül səbəbi kimi təqdim edirlər.

## *DİNİ PRİNSİPLƏRİN VƏ MƏSUMLARIN HƏYAT YOLUNUN AKTUAL OLMAMASI İDDİASI*

Şübhə toxumu səpənlər yersiz misallarla Peyğəmbər və onun Əhli-beytinin (ə) rəftarlarını izləməyin mümkünsüzlüyünü bildirirlər. Onlar deyirlər ki, nəinki təqlid mərcəsi olan alimə təqlid düzgün deyil, hətta imamların da yolunu izləmək düşüncəsizlikdir. Onların nəzərincə, imamların öz dövründə faydalı olan rəftarlar aktuallığını itirmişdir və hazırkı dövrdə səmərəsizdir. Əhli-beytin (ə) yolunun izlənilməsini nəinki faydasız bilir, hətta zərərli sayırlar. Onların nəzərincə, Əhli-beytin (ə) yolu vaxtı ötmüş dərman kimidir və bir kənara qoyulmalıdır. Onlar bu mövzuda məqalələr yazır, çıxışlar edir, imkanları çatan bütün yollarla gəncləri azdırmağa çalışırlar. Əgər bu şeytani təlqinlərin qarşısı alınmasa, uyğun hərəkətlər mədəniyyət formasına düşüb dini dəyərlər üçün təhlükə yaradar.

Hər halda bu qəbil şübhələrə cavab verilməlidir. Araşdırılmalıdır ki, dini dəyərlər zaman ötdükcə gücdən düşür, yoxsa yox? Aydınlaşdırılmalıdır ki, Əhli-beytin (ə) rəftarları zaman ötdükcə aktuallığını itirirmi? Düşmənin Əhli-beytlə (ə) bağlı göstərdiyi misallar İslam alimləri tərəfindən də eyni

münasibətlə qarşılanır. Heç bir fəqih iddia etmir ki, bugünkü müsəlmanlar evini palçıqdan tikməli, ağac budaqları ilə dam örtüyü qurmalıdır. Amma düşmənlərdən fərqli olaraq İslam alimləri Əhli-beytin (ə) rəftarlarını iki yerə bölür və bir qrup rəftarların izlənilməsini zəruri sayır. Heç bir insan dəlil göstərmədən iddia edə bilməz ki, hansı rəftarlar izlənilməli, hansılar bir kənara qoyulmalıdır.

Bəzi cahillər fəqihlərin şərait dəyişdikcə müəyyən hökmləri dəyişdiyini görüb, iddia edirlər ki, İslam alimləri Allahın hökmünü dəyişir! Onların nəzərincə, fəqihlər bəşəriyyətin müəyyən hökmləri qəbul etmədiyini görüb onları dəyişir və gələcəkdə bütün haramlar halal sayılasıdır!

Yaxınlarımızdan biri bir neçə il xaricdə yaşamışdı. O öz müsəlman məmləkətinə qayıtdıqda təəccüblə deyirdi: "Hələ də filan işlər halal edilməyib?" Ona elə gəlirdi ki, zaman ötdükcə haramlar halal olur, dini hökmlər dəyişdirilir. Belə bir təsəvvürü yaradan qərb mədəniyyəti qarşısında təslimçilik, bir növ kilsə düşüncəsidir. Məsihi keşişləri dini göstərişlərə münasibət baxımından İslam alimlərindən çox fərqlənir. Biz fəqihlərə və təqlid mərcələrinə din sahəsində mütəxəssis kimi baxırıq. İnanırıq ki, onlar ayə və rəvayətləri başqalarından daha yaxşı anlayır və daha düzgün nəticə çıxarır. Qərbdə isə kilsəni ixtiyar sahibi bilirlər. Məsihilər elə düşünür ki, kilsə istədiyi hökmü verə bilər, Allahın hökmünü dəyişə bilər. Qərb mədəniyyətinin təsiri altında olanlar dini məsələlərə də kilsə prizmasından baxırlar.

Onların nəzərincə, müsəlmanlar haramı halal edə bilən alimlərə təqlid edir. Onlar anlamırlar ki, ilahi hökmləri dəyişmək şirk kimi böyük günahdır. Allah hökmünü dəyişmək istəyən Allaha şərik qoşmuş kimidir. Bu mövzuda Quranın sərt buyuruqları var. Allah-taala hətta öz peyğəmbərini belə bir işə görə bağışlamayacağını bildirir. Quranda oxuyuruq: "Əgər o (peyğəmbər) bizim adımızdan yalan söyləsə, ondan bərk

yapışar, ürək damarını qırarıq."[1] Onlar təqlid mərcəsinin Allah hökmünü dəyişməsi kimi xam bir xəyalla ictimai rəyi dəyişməyə, ruhaniləri bu rəyin təsiri altına salmağa çalışırlar. Guya ruhanilər xalqın bəyənmədiyi hökmləri dəyişməli, hamıya sərfəli hökmlər verməlidirlər.

Bu şübhəni yaymaqda məqsəd budur ki, insanlar Əhli-beyt (ə) rəftarlarının izlənilməsini mümkünsüz saysınlar. Guya Əhli-beytin (ə) rəftarlarını nümunə götürmək mümkünsüzdür, xanım Fatimə (s) qadınlara nümunə ola bilməz. Bir sözlə, biz idealları qərbdə axtarmalıyıq. Bir çox müsəlmannümalar da bir müddət qərbdə yaşadıqdan sonra ölkəsinə qayıdıb, özünü ideal kimi aparır. Onlar din rəhbərlərinə iqtidanın yetərsizliyini önə çəkməklə kifayətlənmir, dini hökmlərə də əl atırlar. İddia edirlər ki, bir çox İslam hökmlərinə hazırda əməl etmək mümkünsüzdür. Guya oğrunun əlini kəsmək, günahkarı qamçılamaq olmaz.

Bir vaxt universitetlər işini dayandırmışdı. İmam rahil göstəriş verdi ki, universitetdə islahatlar aparılsın, hövzə (dini elmi mərkəz) universitet müəllimləri ilə həmkarlıq etsin. Bu istiqamətdə fəaliyyətlər göstərildi, hövzə və universitet arasında həmkarlıq qurumu təsis olundu. Hövzə ustadları ilə universitetin etiqadlı müəllimləri universitet üçün münasib proqramlar hazırlamalı idilər. Dərsliklərə əl gəzdirilməli, islahatlar aparılmalı idi. Müəllif də həmin qurumla həmkarlıq edirdi. Yığıncaqlardan birində qərara gəldik ki, Tehran universitetinin ruhani libaslı doktorlarından birinə müraciət edək. Ondan xahiş edək ki, bu qurumla həmkarlıq etsin və islami hüquq dərsliyi hazırlansın. Düşünürdük ki, o bizim təklifimizi həvəslə qəbul edəcək. Qurum Şəhid Behişti adına universitetdə fəaliyyət göstərirdi. Həmin şəxs dəvət edildi və oraya gəldi. Öncə müqəddimə olaraq mən danışdım. Bildirdim ki, İslam prinsipləri əsasında universitetə tədris proqramı

[1] "Haqqə", 44-46

hazırlanmalıdır. Hüquq sahəsinin İslam hökmlərinin ayrılmaz tərkibi olduğunu nəzərə alıb islami hüquq dərsliyi hazırlanmalıdır. Həmin şəxs öncə təşəkkür etdi və dedi: “Hələ də bəzi axundlar elə düşünürlər ki, insanı qamçılamaq olar.” Onun bu sözləri bizi heyrətə gətirdi. Düşündük ki, gör kimi həmkarlığa çağırmışıq! Ədəb qaydalarını gözləyib yığıncağı birtəhər başa vurduq.

## *KÜFR VƏ MÜRTƏDLİK TƏZAHÜRLƏRİ İLƏ MÜBARİZƏ*

Böyük alimlərdən birinin yaxın qohumu məsul bir vəzifə daşıdığı halda belə demişdi: “Bizim azadlığımızı təmin etməyəcək dini rədd edirik!” O, azadlığı nədə görürdü? Bu barədə demişdi: “Azadlıq odur ki, xalq istədiyi vaxt İslam hökmlərini səhnədən çıxarsın!” Belə çıxırdı ki, onlar İslamı qəbul edərkən onun kökünü qazmaq ixtiyarını özlərində saxlayırdılar. Əgər İslam onlara belə bir icazə vermirdisə, demək bütünlüklə səhnəni tərk etməli idi. İslamın hüquqi əsaslarını, təyin etdiyi cəza növlərini məsxərəyə qoyanlar, "başqa yol varsa oğrunun əli kəsilməməlidir" deyənlər küfr tribunasından çıxış edir. Şəriətdə nəzərdə tutulmuş cəza növləri Quranın dəyişməz hökmlərindəndir və onları inkar edən imandan çıxmışdır. Küfrlə iman arasında çox az ara var. İmanlı bir insan bir anda küfr cəbhəsinə qatıla bilər. Rəvayətlərə əsasən, dünyanın sonlarında bu qəbil hadisələr çox baş verəsidir. İmam Sadiq (ə) son dövrün insanları haqqında buyurur: “İnsan sübh mömin olar, axşam kafir!”[1]

Hələ biz uşaq olan vaxt minbərdən deyilərdi ki, dünyanın sonlarında din saxlamaq əldə qızdırılmış dəmir saxlamaq kimi çətin olar. Həmin vaxtlar bunu təsəvvür etmək çətin idi. Təəccüb edirdik ki, Allaha inanmaq, dindarlıq, namaz və oruc necə olur əldə od saxlamağa bənzədilir? Uzun illər deyilənləri

---

[1] “Biharul-ənvar”, c.69, bab34, rəvayət17, s.225

anlamadıq. Bu günsə deyilənləri gözümüzlə görürük. Müsəlman ölkəsində 100 minlərlə nəşr olunan qəzet və jurnallarda islami dəyərlər inkar olunur. Dini hökmlər məsxərəyə qoyulduğu bir vaxt kimsə səsini çıxarmır. Elə düşünməyin ki, bəzi üzdəniraq qələm sahibləri məsum imamları və dini hökmləri məsxərəyə qoymaqla əl çəkəcək. Əgər beləlәri edam olunmasa, növbəti il onların sayı bir neçə dəfə artacaq. Onlar dünya imperialistlərinin təsiri və təşviqi ilə müqəddəsliklərə hücum edirlər.

Nigeriya 100 milyondan çox əhalisi olan Afrika ölkəsidir. Orada əhalinin əksəriyyəti müsəlman olsa da, hakimiyyət məsihilərin əlindədir. Qoca İngiltərə imperializmi xeyli pul xərcləyərək həmin ölkədə gözəllik müsabiqəsi keçirmək qərarına gəldi. Dünyanın əksər ölkələrindən əxlaqsızlar dəvət olundu. Öncə belə bir mərasimin keçirilməsi üçün ictimai rəyi öyrənməyə çalışdılar. Məsihi bir yazıçıya İslam dəyərlərini şübhə altına almaq tapşırıldı. Amma qeyrətli Nigeriya xalqı ayağa qalxıb bu çirkin işlərə yox dedi və yüzlərlə müsəlman şəhadətə yetdi. Orada baş verənləri dünyanın informasiya vasitələri işıqlandırdılar. Qeyd etməliyik ki, Nigeriyada dövlətin himayəsində olan islami qurumlar yoxdur və yalnız xalq dini dəyərləri müdafiə edir. Nigeriyada dini plüralizm də rəvac tapmayıb. Bu səbəbdən müsəlmanlar sözünü deyə bilir. Amma ciddi islami qurumlara malik müsəlman bir məmləkətdə iş bir yerə çatır ki. azğınlar mətbuatda və çıxışlarında islami dəyərlərə qarşı çıxır, İslam maarifini məsxərəyə qoyurlar. Hətta bəzi məsullar bu qəbil işlərə göz yumur və deyirlər: "Gərək belə deməyəydi!" Bu münasibət davam edərsə, vay halımıza!

Şübhəsiz ki, dini müqəddəsliklərə şeytani hücumlara münasibətdə hər birimiz məsuliyyət daşıyırıq. Məsuliyyət ilk növbədə ruhanilərin üzərinə düşür. Əhli-beyt (ə) məktəbi ilə tanış olanların vəzifəsi daha ağırdır. Onlar İslam və şiəliyin müdafiəsinə qalxmalıdır. Bugünkü sükut sabahkı cavab üçün də yükdür. Müsəlman xalq və İslam hökuməti vəzifəsinə əməl

etməlidir. Hamımızın müştərək vəzifələri var. Ruhanilərin isə vəzifəsi daha ağırdır. Biz şübhələri məntiqi baxımdan cavablandırmalı, dini etiqadların müdafiəsinə qalxmalıyıq.

# ALTINCI MƏCLİS

## AĞIL VƏ VƏHYƏ İTAƏT MÖVZUSU

## *TƏQLİDDƏ AĞILIN ROLU VƏ DÜZGÜN NÜMUNƏ SEÇİMİ*

Tərbiyə prosesində müəyyən şərtlər daxilində nümunə seçilməlidir. Bu istiqamətdə müəyyən şübhələrə cavab verdik. Bu gün tez-tez təkrarlanan şübhələrdən biri budur ki, insan düşüncə sahibidir və düşüncə sahibi olan kəs başqalarına təqlid etməməlidir. Guya ağıllı insan təqlid edə bilməz. Təqlid meymuna xas işdir. Qeyd etdik ki, bu şübhəni yayanlar məqsədlərinə çatmaq üçün həqiqətən də qəbul olunmayan təqlidi zəruri təqlidə qarışdırırlar. Biz də deyirik ki, hər sahədə təqlid etmək olmaz və təqlidin şərtləri var. Onlar isə İslamın məzəmmət etdiyi təqlidləri ünvan seçərək faydalı təqlidləri şübhə altına alırlar. Sonda bildirirlər ki, peyğəmbərlərə də təqlid etmək düzgün deyil və insan öz düşüncəsini dinləməlidir.

Bu mövzuda kitablar da çap olunmuşdur. Bəzi ziyalınümalar iddia edirlər ki, Quranda həqiqətdən uzaq bəyanatlar var. Bu qəbil iddiaların arxasında ciddi elmi dəlillər dayanmalıdır. Əgər dəlillər olsa, deyilənləri qəbul edərik. Amma dəlillər yoxdur və biz uyğun cəfəngiyyatları rədd edirik. İstənilən bir halda İslam və Əhli-beyt (ə) maarifinin daşıyıcısı olaraq uyğun şübhələri cavablandırmağa borcluyuq.

Qeyd etdik ki, müxaliflər kor-koranə, məzəmmət olunmuş təqlidi əldə əsas tutaraq bütün təqlid mövzusuna hücuma keçirlər. Deyirlər ki, insan yalnız öz ağlına müraciət etməlidir. Biz cavab olaraq bildirdik ki, həqiqətən də, qəbul olunmayası təqlidlər var. Quran bu qəbil təqlidləri məzəmmət edir. Amma elə təqlid sahələri də var ki, nəinki zərərsizdir, hətta vacibdir. Onlar ağıldan dəm vururlar. Amma ağılın təsdiqlədiyi təqlidlər var. İddia edirlər ki, bir şeyin düzgün və ya səhv olması ağılla müəyyənləşməlidir. Bəli, İslamın vacib saydığı təqlid ağıl

tərəfindən təsdiqlənir. Bu qəbil təqlid ağıl əsasında zəruri sayılmışdır. İslam məqam, vəzifə, var-dövlət, ad-san qazanmağa xatir təqlidi məzəmmət edir və düşüncəsizlik sayır. Quran bu qəbil təqlidləri məzəmmət edərək buyurur: “Onlara Allahdan nazil edilənə itaət edin söylənildikdə deyərlər: “Öz atalarımızdan qalana itaət edərik.” Əgər ataları bir şeyi dərk etməyibsə, doğru yolu getməyibsə (yenə də onların yolunu izləyəcəklər)?”[1]

“Zuxruf” surəsinin 24-cü ayəsində oxuyuruq: “(Peyğəmbər) dedi: “Sizə atalarınızın sitayiş etdiyindən daha çox hidayət edənini gətirsəm necə?” Dedilər: “Biz sizinlə göndəriləni inkar edirik.” Bu ayələrdə əcdadlara təqlid ona görə məzəmmət olunur ki, onların ağıla zidd rəftarlarına təqlid edilmişdir. Amma onlar ata-babalarının rəftarları ağıl və məntiqə zidd olsa da onların yolunu gedirdilər. Bu səbəbdən də Quran həmin insanları düşüncəyə itaətə çağırır. Ağılın təsdiqləmədiyi istənilən bir rəftar tərk edilməlidir. Quran uyğun zümrəni məzəmmət edərək bildirir ki, onlar daha sağlam, daha düzgün yolla rastlaşdıqları zaman da əcdadlarının yolundan əl çəkmir, insanları rahat buraxmırlar. Hansı ki, belə bir münasibət ağıl və məntiqə ziddir. Ağıl insanı dəvət edir ki, doğru yola aparan məsləki seçsin. Hansı ki, əcdadların qınanan yolu məntiqdən uzaq idi, sübuta yetirilmirdi. Bəli, onlara itaət etmək olmazdı. Əcdadlara təqlid, onların əməlləri ağıla uyğun olsa belə qəbuledilməzdir. Quran insanlara mötəbər dəlillərə malik yolu tutmağı tövsiyə edir. Əcdadların getdiyi yol əsassızdırsa onu qəbul etməyin. Peyğəmbərlər insanlara ağılın təsdiqlədiyi bir yol təqdim edirlər və bu yolu qəbul etmək lazımdır. Bu dəvətə boyun əyməyənlər ağıllarını ayaq altına almışlar. Bu qəbil insanlar cəhənnəm odu ilə görüşə hazırlaşmalıdır.

---

[1] “Bəqərə”, 170

Ağıl düzgün təqlidi zəruri sayır və ona çağırır. Təqlidə çağırış əsassız deyil. Təəssüf ki, könlümüzə yatan işlərdə təqlidi qəbul edir, həvəsimiz olmayan məqamlarda onu rədd edirik.

## *AĞILIN TƏSİR DAİRƏSİ*

Araşdırmalarımızdan aydın oldu ki, insan ilk addımda ağlına müraciət etməli və onun hökmünü dinləməlidir. Nəzərdə tutmuruq ki, insan yalnız həqiqəti isbat olunmuş ciddi dəlillərə malik addımlar atmalıdır. Müəyyən izahatlardan sonra istənilən bir düşüncə sahibinin qəbul edəcəyi dəlil kifayət edir. Təəssüf ki, bu gün ehtimallar, təxəyyüllər, nəfsani həvəslər də düşüncə məhsulu kimi təqdim olunur. Demək, ayrı-ayrı insanlar ağıl haqqında fərqli təsəvvürlərə malikdir. Hansı ki, əqli dəlilə malik bir təklifə münasibətdə ixtilaf olmamalıdır. Yalnız ağılın təsdiqləmədiyi işlərdə ixtilaf təbiidir. Sağlam ağılın xeyir saydığı addım qəbul olunmalı, bəla saydığı addım rədd edilməlidir.

Bəzən nəticə çıxarmaq üçün təkcə ağıl bəs etmir. Hissi, mənəvi, ictimai işlər arasında belələri çoxdur. Məsələn, ağıl müəyyənləşdirə bilməz ki, bir evin daxilində nələr baş verir. Bunu təyin etmək üçün hiss üzvlərinin iştirakına ehtiyac var. Bizdən soruşurlar ki, Makedoniyalı İsgəndər nə vaxt yaşayıb? Quranda adı çəkilən Zülqərneyn həmin İsgəndərdirmi? Bu suallara ağıl cavab verə bilməz. Uyğun sualları cavablandırmaq üçün tarixi məlumatlara ehtiyac var. Təbiət elmlərinin də bir çox sualları ağıl tərəfindən cavablandırılmır. Məsələn, ağıl müəyyənləşdirə bilməz ki, hansı dərman hansı xəstəliyə faydalıdır. Başqa bir misal: İlahi dinlərdə bildirilir ki, Allah mələk adlı mövcudlar yaratmışdır. Cəbrail, Mikail, İsrafil və Əzrail adlı dörd yaxın mələk var. Məgər ağıl onların varlığını sübuta yetirə bilərmi? Ağıl sübut edə bilməz ki, Allah neçə peyğəmbər göndərib. Demək, ağıl bir çox məsələlərdə mühakimə aparmaq gücündə deyil. Dini hökmlərin, əxlaqi və

ictimai qanunların tənzimlənməsi ağılın işi deyil. Məsələn, ağıl müstəqil şəkildə oğurluq edən insana cəza təyin edə bilməz.

Bəzi etiqadi əsaslar da ağıl vasitəsilə sübuta yetirilə bilməz. Məsələn, peyğəmbərdən sonra kimin canişin olması məsələsi şiələr və sünnilər arasındakı ixtilaflı məsələlərdəndir. Şiələr bu əqidədədirlər ki, həzrət Əli Peyğəmbərin canişinidir. Amma sünnə əhli bu müddəanı inkar edir. Bu qəbil məsələləri ağıl vasitəsilə aydınlaşdırmaq mümkünsüzdür. Ağıl sübuta yetirə bilməz ki, Peyğəmbərin Əli adlı bir canişini olmuşdur. Bu qəbil mövzular sırf tarixi yönümə malikdir və nəqli dəlillərlə sübuta yetirilir. Tarix və nəqli dəlillər təsdiqləyir ki, Əli ibn Əbu Talibin canişinliyi vəhy yolu ilə müəyyənləşmişdir. Ağıl heç nədən kömək almadan bu məsələni həll edə bilmir. Əli adlı bir şəxsin olduğu, onun imtiyazlara malik olması sübuta yetdikdən sonra ağıl bu məlumatlar əsasında Əli ibn Əbu Talibin peyğəmbər canişinliyinə daha layiqli olduğunu təsdiqləyir.

## *ETİQADLARI İLKİN MƏNBƏDƏN ÖYRƏNMƏYİN ZƏRURƏTİ*

Qeyd etdik ki, ağıl müstəqil şəkildə bir çox məsələləri dərk etmək gücündə deyil. Amma bir çox məsələlər ağıl tərəfindən dərk olunmasa da bir o qədər əhəmiyyət kəsb etmir. Məsələn, ağıl sübuta yetirə bilməz ki, Marsda həyat var, yoxsa yox. Əslində bu suala cavab tapılsa da, həmin cavab hansısa problemi həll etmir. Bu qəbil məsələlərə yanlış cavab verilsə də, elə bir qorxusu yoxdur. Müəyyən məsələlərsə aydınlaşdırılmadığı halda az zərər verir. Ona görə də onların aydınlaşdırılması istiqamətində ciddi təlaş göstərməyi zəruri saymırıq. Bilirik ki, onları bilməsək də, bir o qədər zərərə düşmürük. Amma elə məsələlər var ki, insan üçün həyati əhəmiyyət daşıyır, onun xoşbəxt və ya bədbəxt olmasında aparıcı rola malikdir. Onları ağıl dərk etmir deyə bir kənara qoymaq düzgün deyil. Məsələn, ilahi peyğəmbərlər ölümdən

sonrakı həyatdan danışır. Peyğəmbərlərin bu mövzuya toxunması ən azı bizi ehtiyatlı olmağa çağırır. Quranın qeyd etdiyi məad mövzusu inkar edilərsə, insan əbədi əzaba düçar olar. [1] Deməк, məad kimi mövzuların aydınlaşdırılması zəruridir və onların yanından asanlıqla ötüb keçmək olmaz. Məada inanmaqla inanmamağın eyni olduğunu iddia etmək düşüncəsizlikdir. Bu məsələyə ciddi yanaşılmalıdır. Məad bir həqiqətdirsə, onun inkarı insanı əbədi bədbəxtliyə düçar edər. Hətta bu qəbil mövzuları sübuta yetirə bilmədikdə inkar etməməliyik. Uyğun mövzulara ehyiyatla yanaşmalı, ya ağıl, ya da başqa səmərəli yollarla onun mahiyyətini dərk etməliyik.

Allah-taala buyurur ki, məadın inkarı insanı əbədi əzaba düçar edir. İnsan məadın varlığına azca ehtimal etsə belə, mövzu həyati əhəmiyyət kəsb etdiyindən onun mahiyyətini dərk etmək lazım gəlir. Məadla bağlı suallara qəti cavab verilməlidir. Əgər ağıl bu işdə acizdirsə başqa yollar tapmalıyıq. Müəyyən araşdırmalardan sonra məada inandıqda uyğun etiqad həyat yolumuza təsir göstərir. Bütün rəftarlarımız, hərəkətlərimiz, danışıqlarımız məad inancından başqa bir rəng alır. Məada inanan insan öz danışıq və rəftarlarına diqqət yetirir, ilahi bir məsuliyyət hiss edir. Qiyamətə inanan insan həyatının bir anını olsun belə boş keçirmək istəmir. Çünki bu mövzuya diqqətsizlik insanı əbədi əzaba düçar edir. Bəli, məada etiqadlı insan danışdığı hər sözə diqqətlidir.[2]

Məad və qiyamətə etiqadın məsuliyyət yaratması bəzilərini qorxuya salır və bu mövzu barədə düşünməməklə rahatlıq tapmağa çalışırlar. Onlar cilovsuz azadlıq əldə etməyə xatir əllərində dəlil olmadığı halda məadı inkar edirlər. Allah-taala bu barədə buyurur: "İnsan elə düşünür ki, onun sümüklərini bir yerə yığmayacağıq?! Bəli, Biz onun barmaqlarını bənd-bənd yığmağa qadirik. (İnsan məada şəkk etmir) O istəyir ki, (azad)

---

[1] "Fürqan", 11
[2] Bax: "Qaf", 18

özbaşına olsun. Soruşur ki, qiyamət nə vaxt olacaq?” [1]Digər bir ayədə oxuyuruq: “Elə ki onlara «Allahın vədi düzgündür və qiyamətə şəkk yoxdur» deyildi, söylədilər: “Biz bilmirik qiyamət nədir? Bu barədə yalnız gümanımız var, əmin deyilik!”[2]

Qiyaməti inkar edənlər məsuliyyətdən azad olmağa xatir ürəklərindən keçən işi görürlər. Onlar məad və qiyaməti inkar edirlər ki, düşüncələri asudə olsun. Əslində isə qiyamətin olmayacağına heç bir dəlilləri yoxdur. Dedikləri yalnız bəhanədir. Axı necə ola bilər ki, insanı heçdən yaradan Allah onu yenidən bərpa edə bilməsin?!

## *AĞIL VƏHYƏ TƏSLİM OLMALIDIR*

Ağıl məad və qiyamət kimi bir sıra mövzuların sübutu üçün yetərli olmasa da, əqli dəlillərlə Allahı tanımış və iman gətirmiş insanın onu inkar etməyə dəlili yoxdur. Allah qiyamətin varlığını xəbər verir və ağılı bu hökmün qəbuluna çağırır. Allah buyuruğunun qəbulu əqlin hökmüdür. Allah buyurursa ki, mən sizi əbədiyyət üçün yaratmışam və orada ölüm yoxdur, ağıl Allahın buyuruqlarını inkar edə bilməz. Çünki uyğun məlumatlar vəhy yolu ilə, vəhyin qəbuluna ləyaqətli şəxs tərəfindən çatdırılır. Allah tərəfindən seçilmiş və səlahiyyəti sübuta yetirilmiş şəxs bir söz deyirsə ona iman gətirmək zəruridir. Əgər peyğəmbər Allah tərəfindən bir xəbər bəyan edirsə, sağlam ağıl onu qəbul edir. Çünki xəbər mötəbər bir mənbədən gəlmişdir. Peyğəmbərlər bəşəriyyət arasında vəhyin qəbuluna və çatdırılmasına ləyaqətli yeganə fərdlərdir. Başqalarında bu sayağı ləyaqət yoxdur. İlahi səciyyələrə malik peyğəmbər vəhy gətirirsə, şübhəsiz ki, onun dedikləri Allahın sözüdür və bu sözlərə şübhə ilə yanaşmaq olmaz. Kimsə gözləməməlidir ki, Allah onunla bilavasitə danışacaq. Çünki

[1] “Qiyamət”, 3-6
[2] “Casiyə”, 32

Allah buyuruğunun qəbulu üçün ləyaqət olmalıdır və Allah yaxşı bilir ki, vəhyi kimə göndərməlidir.[1]

Elə ki bir sözün Allah tərəfindən buyurulduğu və Peyğəmbər tərəfindən çatdırıldığı məlum oldu, ağıl bu sözə tabeçiliyə çağırır. Çünki istənilən bir qövm və irqdən olan peyğəmbər məsum olduğundan onun dedikləri dəlildir. Biz ağıl əsasında ona tabe olmalı və dediklərini qəbul etməliyik. Əlbəttə ki, bəziləri nəfs istəklərinə tabe olub təəssüb göstərir, hətta bu səbəbdən öz qövmlərindən olan peyğəmbəri qəbul edirlər. Əgər Peyğəmbər başqa qövmdən olsaydı, bir çox ərəblər onu qəbul etməzdilər. Allah-taala buyurur ki, əgər onu (Quranı) qeyri-ərəb dilli bəzilərinə nazil etsəydik və peyğəmbər onları dəvət etsəydi, ona iman gətirməzdilər.[2]

## *PEYĞƏMBƏR VƏ ONUN ƏHLİ-BEYTİNƏ (Ə) İTAƏT MEYARI*

Bizim peyğəmbərə itaəti zəruri saymaqda məqsədimiz bu deyil ki, peyğəmbər bəşər nəslindəndir və aqildir. Biz onun islahatçılığını, mütəfəkkirliyini, xeyirxahlığını, cəmiyyətə canıyananlığını əsas götürmürük. Çünki bu xüsusiyyətlərdən heç biri deyilən sözü dəlil səviyyəsinə qaldırmır. Biz peyğəmbərə ona görə itaət edirik ki, o Allaha bağlıdır və dedikləri Allahın buyuruğu, yəni vəhydir. Onun peyğəmbərliyi ilahi möcüzələrlə bizə sübuta yetmişdir. Sübuta yetmişdir ki, onun dedikləri ilahi vəhydir. Bütün bu səbəblərdən ağıl hökm edir ki, onun dediklərinə iman gətirək. Hansı ki ağıl müstəqil şəkildə bu sahədə mühakimə apara bilmir. Ağıl yalnız həmin şəxsin mötəbərliyi barədə şəhadət verir. Ayədə buyurulur ki, onlara həmin bəşərdən olduğunu və yeganə Allah tərəfindən vəhy nazil edildiyini söylə."[3]

---

[1] "Ənam", 124
[2] Bax: "Şüəra", 198, 199
[3] Bax: "Kəhf", 110

Bəziləri təqlid mövzusuna şübhə ilə yanaşır, hətta Allahın peyğəmbərinə təqlidi şübhə altına alırlar. Biz şübhələri aradan qaldırmaq üçün uyğun mövzuların ağıl tərəfindən təsdiqləndiyini qeyd etdik. Peyğəmbər məsum, Allah tərəfindən seçilmiş, vəhy daşıyıcısı olduğundan ağıl ona itaətə çağırır. Bu əsaslarla biz peyğəmbərin bütün danışıq və rəftarlarını nümunə götürməliyik. Peyğəmbərin vəhydən qaynaqlanan buyuruqları əslində Allah kəlamı olduğundan dinlənilməli və qəbul edilməlidir. Peyğəmbərə itaət Allaha itaətdir. Peyğəmbərin sünnələri də ilahi hökmlərdən qaynaqlanır. Bu baxımdan həmin sünnələr də qəbul edilməlidir. Peyğəmbər danışıq və rəftarda xətalardan uzaq bir məsum olduğundan onun sünnə və buyuruqları dəlildir. Digər bir tərəfdən, Allah qəti şəkildə peyğəmbərin rəftar və danışıqlarını izləməyi tapşırır: "Onun elçisinin gətirdiyindən yapışın, çəkindirdiyi işlərdən uzaq dayanın."[1]

Bundan əlavə, biz şiələr inanırıq ki, Peyğəmbər əhli-beytinin də buyuruqları peyğəmbər buyuruqları kimi dəlildir. Peyğəmbərə itaət və təqlidi vacib saydığımız kimi onun Əhli-beytinə itaət və təqlidi də vacib bilirik. Ağıl bu barədə birbaşa hökm vermir. Amma Quran dəlillərindən, peyğəmbər buyuruqlarından sonra ağıl təsdiq edir ki, belə bir itaət zəruridir. Peyğəmbər Əhli-beytinə (ə) itaətin zəruriliyini təsdiqləyən ayələr var: "Ey iman gətirənlər! Allaha, Onun rəsuluna, özünüzdən olan əmr sahiblərinə itaət edin."[2] Şübhəsiz ki, bu ayə hakimiyyət kürsüsünə əyləşmiş hər adama şamil olunmur. Necə ola bilər ki, Allaha iman gətirənlər Onun düşmənlərinə tabe ola?! Peyğəmbərin öz dövründə də uyğun ayə dövrün hakiminə itaət kimi qəbul edilməmişdir. Cabir ibn Abdullah Ənsaridən nəql olunmuş rəvayətdə bildirilir ki, "ulil-əmr" ifadəsi ilə bağlı peyğəmbərdən soruşulduqda o buyurdu:

---

[1] "Həşr", 7
[2] "Nisa", 59

“Onlar mənim canişinlərimdir, məndən sonra müsəlmanlar üçün məsum imamlardır” Sonra həzrət Peyğəmbər on iki məsumun adını birbəbir sadalamışdır. Onların birincisi Əli ibn Əbu Talib, sonuncusu Əli övladlarından olan hazırda qeybə çəkilmiş imam Mehdidir (əc.).[1]

İmam Sadiqin (ə) dövründə İslam hakimiyyətini qəsb etmiş xəlifələr ədaləti bərpa etmək əvəzinə zalım sultanlar kimi davranırdılar. Xüsusilə Əhli-beyt (ə) şiələri sıxıntılara məruz qalır, təqib edilirdilər. Xəlifələrin ətrafındakı saray adamları onların hökmlərinə şəri don geyindirməyə çalışır, Quran ayələrinə istinad edirdilər. Onlar xalqı inandırmağa çalışırdılar ki, “ulil-əmr” dedikdə dövrün hakimləri nəzərdə tutulur. Xalqa təlqin olunurdu ki, öz hakimlərinə itaət etmək vacibdir. Əslində isə “ulil-əmr” dedikdə Peyğəmbər əhli-beyti nəzərdə tutulurdu. Əbu Bəsirin imam Baqirdən nəql etdiyi rəvayətdə bildirilir: “Ulil-əmr” Əli ibn Əbu Talib haqqında nazil olmuşdur.” Əbu Bəsir deyir: Xalq bizdən soruşurdu ki, nə üçün Allah Əli və onun Əhli-beytinin adını Quranda zikr etməyib? İmam cavab olaraq buyururdu: “Onlara söylə ki, Allah namaz hökmünü verdi, amma onun neçə rəkət olduğunu Peyğəmbər açıqladı. Allah həcc hökmünü verdi, amma yeddi dəfə təvaf etməyin zəruriliyini Peyğəmbər çatdırdı. Həmin ayə Əli, Həsən və Hüseyn haqqında nazil olmuşdur. Peyğəmbər (s) Əli (ə) haqqında buyurur ki, mən hər kimin mövlasıyamsa Əli də onun mövlasıdır.”[2]

Allah-taala Quranda “ulil-əmr”, yəni əmr sahibləri ifadəsini işlədərkən dövrün hakimlərini nəzərdə tutmur. Biz uyğun ifadənin kimə aid olduğunu müəyyənləşdirmək üçün peyğəmbər buyuruqlarına müraciət edirik. Çünki Allahla rabitədə olan peyğəmbərdir və onun vəhylərini də o açıqlayır. Peyğəmbərin Quran ayələrinə verdiyi təfsir bizim üçün dəlildir.

---

[1] “Biharul-ənvar”, c.3, bab 41, rəvayət 67, s. 25

[2] “Təfsiri-Əyyaşi”, c.1, s.276

Peyğəmbərdən savayı kimsədə belə bir səlahiyyət yoxdur. Bütün təfsirçilər də etibarlı dəlil olaraq peyğəmbərin buyuruqlarına istinad edirlər. Quran ayələrini yalnız məsumların buyuruqları sayəsində dərk edə bilərik. Bu işdə məsum olmayanların söylədikləri dəlil deyil. Bəli, Peyğəmbər "ulil-əmr" ifadəsinin məsum imamlara aid olduğunu bildirir. Bunu qəbul etdikdən sonra Əhli-beytin buyurduqları da bizim üçün dəlil olur. Allahın hökmlərinə itaət etmək ağlın əmridir. Əgər Peyğəmbər Allahın buyuruğunu çatdırırsa, onun da buyurduqlarına itaət vacibdir. Nəhayətdə, Peyğəmbərin buyuruqları əsasında məsum imamlara tabeçiliyi ağıl zəruri sayır.

Əksinə, bəziləri bir müddəanın qəbul olunması üçün əksəriyyətin rəyini əsas sayırlar. Onların nəzərincə, yalnız əksəriyyətin səs verdiyi müddəa qəbul edilə bilər. Əksəriyyət ağıl və vəhyin ziddinə çıxırsa da, onu qəbul etmək lazımdır! Hansı ki, əksəriyyətin rəyi vəhy və ağıl əsasında qəbul edilə bilər. Peyğəmbərin məbus olduğu dövrdə əksəriyyət kafir, müşrik və bütpərəst idi. Həmin əksəriyyət dinə qarşı çıxırdı. Belə bir əksəriyyətin rəyini necə qəbul etmək olar?! Onların nəzərincə, Peyğəmbər insanları tövhidə dəvət edə bilməzdi. Əksəriyyətin rəyi mötəbər olsaydı, həzrət İbrahim bütləri sındıra bilməzdi. Amma o əksəriyyətin rəyini nəzərə almadan bütləri qırır və tövhid bayrağı ucaldır. Nə üçün İslam peyğəmbəri hicazda əksəriyyət təşkil edən bütpərəstlərə qarşı çıxdı? Məlum olur ki, yalnız əqli və nəqli dəlillər mötəbərdir. Əgər ağıl bir həqiqətin təsdiqində acizdirsə, Peyğəmbər və imamların buyuruqlarına üz tutmalıyıq. Onlar həqiqətləri başqalarından daha yaxşı görür və bəyan edirlər. Məsumların buyuruğu itaət olunası ən üstün buyuruqlardır.

Təqlid dedikdə fəqihin fətvalarına itaət nəzərdə tutulsa da, təqlid sözünün daha geniş əhatəsi var. Təqlid dedikdə əqidə məsələlərində də idealları izləmək nəzərdə tutulur. Peyğəmbər və məsumların buyuruqlarına itaət də təqlid qismindəndir.

İnsanlar Peyğəmbər və məsumların buyuruğuna əqli dəlillər əsasında itaət edirlər. Biz müsəlmanları peyğəmbər və məsumlara təqliddən çəkindirənlərə deyirik ki, Allaha yaxın insanlara təqlid ağılın hökmüdür. Hətta ağılın dərk etmədiyi məsələlərdə məsumlara itaət əqli əsaslara malikdir. Peyğəmbər məsum olmaqla yanaşı nəhayətsiz biliyə sahib olmuşdur. Belə ki, peyğəmbərə itaət məntiqsiz bir itaət deyil. Ağıl hökm edir ki, insan bütün məsələlərdə mütəxxəsisə üz tutmalıdır.[1]

## *AQİLLƏRİN MÜNASİBƏTİ FƏQİHƏ TƏQLİD MEYARI KİMİ*

Məsumların qeyb dövründə, peyğəmbər və onun məsum canişinlərinə əl çatmayan bir zamanda təqlid mərcəsi olan alimlərə təqlid məsələsi ortaya çıxır. Bəziləri mərcə alimlərə təqlidi ağıla zidd iş sayır və meymunlara xas bir iş kimi tanıtdırır. Cavabımız budur ki, məsumlara ardıcıllıq ağılın tələbidir. Təqlid mərcələri isə məsum olmadığından onların fətvalarında fərqlər mövcuddur. Amma onlara təqlid ağıla əsaslanır və cahilin alimə müraciət növüdür. Cahilin alimə müraciətinin zəruriliyi aqillərin qənaətidir və onların bu qənaəti mərcələrə təqlid üçün də bir əsasdır. Əgər insan bir sahədən baş çıxarmırsa və ağıl da köməyə gəlmirsə, uyğun sahədə mütəxəssisə müraciət olunur. Bu yolla insanların ehtiyacları təmin edilir. Mütəxəssisə müraciət edən bilir ki, həmin şəxs məsum deyil və xətalara yol verə bilər. Amma məlum məsələdir ki, uyğun sahə ilə tamamilə tanışlığı olmayanın bütün hərəkətləri xətalı olasıdır. Belə bir şəxsin mütəxəssisə müraciət etməkdən savayı yolu qalmır. Səhrada yolu itirən kəs yolu tanıdığını deyənin məsləhətinə qulaq asır. Belə birinin baxışı, şübhəsiz ki, yoldan tamamilə xəbərsiz insanın köməyinə gəlir. İnsan düşünür ki, əgər özü yol seçsə azmayacağına ümid yoxdur. Amma ona yol göstərənin göstərişlərinin faydalı

[1] Bax: "Bəqərə", 151

olacağına daha böyük ehtimal var. Xəstənin həkimə müraciəti düşüncə sahibləri tərəfindən bəyənilir və əqli əsaslara malikdir. Həkimə müraciət edən öncədən bilir ki, həmin həkim səhvə yol verə bilər. Amma onun səhvə yol verəcəyinə ehtimal azdır. Ev almaq istəyən insan bu sahə ilə məşğul olan mütəxəssisə müraciət edir. Ev tikən insan memar və mühəndis soraqlayır. Dini məsələlərdən xəbərsiz birinin də fəqihin sorağınca getməsi, mərcə alimə təqlid etməsi tam məntiqidir. Əgər bir neçə fəqih varsa, insan onlardan daha elmli bildiyinə təqlid edir. Daha bilikli mərcənin həqiqətə daha yaxın hökm verəcəyi ehtimalı böyükdür. "Əgər xəstə həkimə müraciət edə biləcəyi halda bu işi görmürsə, məzəmmət olunur. Daha yaxşı həkimdən faydalanmaq üçün bəzən uzun yollar getmək, pul xərcləmək lazım gəlir. İmkanı olmayanlar isə yerli həkimə müraciət etməklə kifayətlənməli olur.

Deməк, müctəhidə müraciət ibadət yox, ağılın tələb etdiyi bir üsuldur. Aqil insanlar bir şəxsi daha bilikli saydıqda ona müraciət edirlər. Daha bilikli insana əl çatmadıqda qismən biliyi olanlara üz tutulur.

Bəli, müctəhidə müraciətdə meyar elm, təqva və ədalətdir. Bir şəxsi başqalarından bilikli gördükdə ona müraciət edir, onun fətvaları əsasında hərəkət edirik. Belə bir təqlid ağıla əsaslanır. Bu işdə əqli və şəri meyarlarla yanaşı elm və təqva meyarları da var. Təqliddə milli, irqi, qövmi yaxınlıqlar, dil birliyi meyar deyil.

## *DEMOKRATLARLA FİRONÇULARIN MƏNTİQ FƏRQLƏRİ*

Bəziləri iddia edirlər ki, hər işdə çoxluğun rəyini öyrənmək, ictimai rəyə tabe olmaq, inkişaf etmiş qərb mədəniyyətindən bəhrələnmək lazımdır. Onların nəzərincə, böyük elmi nailiyyətləri olan qərb bütün işlərdə örnəkdir. Bu düşüncəyə əsasən İslam peyğəmbəri bütpərəstliyə qarşı çıxmamalı idi. Çünki bütpərəstlik xalqın əqidəsi idi. Hansı ki,

Peyğəmbər insanları tutduğu yoldan dönməyə, əcdadlarının yolundan imtina etməyə çağırırdı. Belə çıxır ki, həzrət Musa Firona etiraz etməməli imiş. Fironun sərvət və qüdrəti vardı, dövrünün mədəniyyət təmsilçisi idi. Onun hakimiyyəti altında böyük elmi nailiyyətlər əldə olunmuşdu. Belə çıxır ki, hamı Firona itaət edib, onun yolunu izləməli imiş! Həqiqətən də, Fironun dövründə bir çox nailiyyətlər əldə olunmuşdu. Həmin nailiyyətlərin bir nümunəsi də Misir ehramlarıdır. Bu ehramların tikintisindən neçə min il ötsə də, onların sirri açılmamışdır. Məlum olur ki, həmin dövrdə elm bu günkündən də güclü olmuşdur. Firon xalqı özünə itaətə çağırırdı. Çünki onun bərəkətli torpaqları, böyük qüdrət və sərvəti vardı.

Həmin dövrdə Firon özünü məmləkətin sahibi bilir, gününü eyş-işrətdə keçirirdi. Həzrət Musa Kənan məntəqəsindən idi. Oranın əhalisi öz torpaqlarından qovulub didərgin salınmışdı. Həzrət Musa sadə libasla əlində ağac Fironun sarayının qarşısında dayanıb dedi: “Mən Allahın peyğəmbəriyəm və Firon mənə tabe olmalıdır.” Musanın Fironun sarayının qarşısında dayanıb peyğəmbərlik iddiası etməsi ətrafda gülüş doğururdu. Həzrət Musa bir müddət sarayın qarşısında dolandı. Amma onu saraya buraxmırdılar. Təlxək gündə Fironun hüzuruna gəlib həzrət Musanı yamsılayırdı. Nəhayət, Firon göstəriş verdi ki, Musanı onun hüzuruna gətirsinlər və onun kimliyini görsün. Həzrət Musanı saraya buraxdılar. O öz sözünü Firona dedi.

Firon Musanın yolunu izləyənlərə dedi: “Məgər bu bərəkətli torpaqların hakimiyyəti mənim əlimdə deyilmi?! Məgər böyük qüdrət və sərvət sahibi mən deyiləmmi?! Bəs necə olur ki, siz mənim kimi imkanlını qoyub Musa kimi zəifə iman gətirirsiniz?! Hansı ki, o ağıllı-başlı danışa da bilmir! Necə olur ki, belə bir yoxsulun sözünü dinləyirsiniz?!" Qurani-kərimdə bu barədə buyurulur: “Firon öz qövmünü çağırıb dedi: “Ey insanlar, misirin hakimiyyəti və altından axan çaylar mənə məxsus deyilmi? Yoxsa görmürsünüz? Mən doğru-dürüst

danışa bilməyən bu miskindən üstün deyiləmmi? Nə üçün onun qızıl qolbaqları yoxdur? Nə üçün onunla mələklər gəlməyib?”[1]

## *İSLAM QANUNLARINA İTAƏT, QƏRB QANUNLARININ İNKARI*

Əgər bir şəxs Firon məntiqi əsasında başqalarına təqlid edərsə, onun təqlidi kor-koranədir və meymunsayağıdır. Firon kimi elmi və var-dövləti ilə öyünən qərbə tabeçilik də bu qəbildəndir. Bir ölkənin texnoloji baxımdan tərəqqisi onu mənəvi cəhətdən nümunə götürmək üçün əsas deyil. Biz inkişaf etmiş ölkələrin yalnız elmi nailiyyətlərindən istifadə edə bilərik. Amma onların qanunlarını İslam qanunlarından üstün saymaq olmaz. İslam qanunlarının üstünlüyünü nəzərə alsaq, qərb qanunlarına təqlidçiliyi ağılsızlıq saymalıyıq. Biz müsəlmanlar Allahın peyğəmbərlər və məsum imamlar vasitəsilə bizə çatdırdığı qanunları insanların tənzimlədiyi qanunlardan üstün tuturuq. Çünki məsumlar bütün nöqsanlardan uzaq olmuşlar. Onlar bizim üçün ideal nümunələrdir. Hazırda onlara əlimiz çatmır və onların yolunu izləyən təqlid mərcələrinə, müctəhidlərə itaət edirik. Çünki din alimləri məsum imamlara daha çox oxşayır, onların buyuruqlarını daha yaxşı dərk edir. Xəstənin həkimə müraciəti ağıllı iş sayıldığı kimi, dini məsələlərin öyrənilməsi üçün fəqihə müraciət də məntiqi qəbul olunmalıdır. Deməк, bizim təqlidimiz kor-koranə və meymunsayağı deyil. Qərbin aldadıcı elmi nailiyyətlərinə aldanıb onların yolunu izləyənlər ağıl və məntiqdən uzaq addım atır. Qərbin məntiqi hiylə və yalandan ibarətdir. Onlar bəşər hüquqları, demokratiya adı altında millətlərin başına oyun açır, heç bir cinayətdən çəkinmirlər.

Amerikanın son prezidenti Buş əksəriyyətin rəyini qazana bilməmişdi və seçkilərdəki saxtakarlıq bütün dünyaya məlumdur. İş sonda məhkəməyə çəkildi və prosesdə iştirak

[1] “Zuxruf”, 51-53

edən yeddi hakimdən respublikaçılar partiyasından olan dördü Buşun xeyrinə hökm verdi. Bəli, haqq-ədalətdən danışılan ölkədə tərəfbazlıqla prezident seçildi. İndi özünüz deyin, biz min bir fırıldaqla seçilmiş hakimiyyəti, yoxsa elm, təqva və müdiriyyəti ilə ləyaqətini təsdiqləyən rəhbərliyi nümunə götürməliyik?! Elm və təqvalı insanlar cəmiyyətə can yandırır, sadə şəkildə yaşayır, peyğəmbərlərin və məsumların yolunu izləyir. Əgər Amerika və qərb insan haqlarının tapdanmasından narahatdırsa, nə üçün Fələstin xalqının başına od yağdırılır?! Hazırda avropalılar da, amerikalılar da öz dövlətlərinin işğalçı sionist rejimini himayə etməsini qınayır, öz etiraz səslərini ucaldırlar. Onlar öz dövlətlərinin atdığı addımlardan xəcalət çəkir, hər vasitə ilə ona təsir göstərməyə çalışırlar. Belə bir vəziyyətdə hansı ümidlə qərb və amerikanın yolunu izləməliyik?!

Peyğəmbərlərə və Allahın övliyalarına, onlara daha çox oxşayanlara arxa çevirib başdan ayağa çirkab içində olanları nümunə seçməyimiz hansı ağıl və məntiqə əsaslanır? Məgər Amerikanın sabiq prezidenti öz əxlaqsızlığını etiraf etmədimi? Bugünkü Amerika prezidentinin ayağında seçkilərin saxtalaşdırılması kimi bir cinayət yazılmayıbmı? Amerika demokratiyasını nümunə seçmək ağılsızlıq deyilmi? Fəqihin hakimiyyəti qərb hakimiyyəti ilə necə müqayisə oluna bilər? İslam inqilabının böyük rəhbəri və onun saleh canişininin hansı nöqsanı var? Bu saleh insanları azğın qərb və Amerika başçıları ilə müqayisə etməkmi olar?! Bu günədək kim mərhum İmamı və onun canişinini öz məqamından sui-istifadədə suçlayıb? Bu sayaqı ilahi rəhbərləri qoyub başqalarının ardınca getməyimiz ağılsızlıq deyilmi? Bu gün fəqih hakimiyyətinin yerinə qərb

demokratiyasını oturtmaq istəyənlər, hətta Salman Rüştünün himayəsini qazanmağa çalışanlar nə düşünür? Bu günlərdə Nyu-York Tayms qəzetində oxudum ki, məlun Salman Rüştü öz həmməsləkinə çıxarılan hökmə təəssüfləndiyini bildirmişdir! Quran buyurur: "Allahın nemətini küfrə dəyişən, öz qövmünü fəlakətə aparanı görmədinmi?![1]

[1] "İbrahim", 28

# YEDDİNCİ MƏCLİS

## İSLAM VƏ LİBERALİZMİN ADƏT-ƏNƏNƏLƏRƏ, ETİQAD VƏ DƏYƏRLƏRƏ MÜNASİBƏTİ

### *TƏQLİDİN ZƏRURİLİYİ VƏ ONUN MÜXTƏLİF SAHƏLƏRİNƏ YENİDƏN BAXIŞ*

Qeyd etdik ki, din sahəsində təqlid və ardıcıllıq əqli dəlillərə və aqillərin keçdiyi yola əsaslanır. Yəni ağılın müstəqil şəkildə dərk etmədiyi və isbat edə bilmədiyi işlərdə insan onun yolunu işıqlandıranların ardınca gedir. İlk addımda səlahiyyətli müctəhidə təqlid olunur. Ağıl hökm edir ki, insan istənilən bir nöqsan və xətadan uzaq olanlara təqlid etməlidir. Bu zümrəni isə peyğəmbərlər və məsum imamlar təşkil edir. Əgər məsumlara birbaşa təqlid mümkünsüz olarsa, ikinci addımda, ağılın hökmü ilə məsumlara daha çox oxşayanlara, ilahi maarif sahiblərinə üz tutulur. Şübhəsiz ki, din sahasində beləəri daha az səhvə yol verir və onlara ardıcıllıqla insanların dini ehtiyacları ödənir. Buna görə də müsəlmanlar fiqhi məsələlərdə fiqh bilicisi olan mərcəyə təqlid edirlər. Onlara müraciət cahilin alimə müraciəti nümunəsidir. Din sahəsində dini maarifə daha çox yiyələnənlərə üz tutmağımız zəruridir.

Növbəti sual budur ki, biz hansı sahələrdə təqlid etməliyik? Hər işdə təqlid olunmalıdır, yoxsa təqlidin öz sahəsi var? Əgər insanın uyğun sahədə şəxsi baxışı yoxsa və başqalarından istifadə etmirsə çətinliyə düşür. Məsələn, Marsda həyatın olub-olmamasını bilmiriksə, bu sahədə başqalarına tabe olmağımıza ehtiyac yoxdur. Çünki bu məsələdən xəbərdarlıq heç bir həyati əhəmiyyət kəsb etmir. Yalnız dünya və axirət səadətimiz üçün əhəmiyyət daşıyan məsələlərdə təqlid etməyimiz zəruridir. Şəxsən etiqadı olmayan və bu sahədə başqalarının yolunu izləməyən insan təhlükə ilə üzbəüzdür. Ağıl tələb edir ki, bu sahədə insan özünə çarə qılmalıdır. Ağıl nəinki zərərin, hətta ehtimal olunan zərərin aradan

qaldırılmasını əmr edir. İnsan din sahəsində ya çalışıb özü ictihada çatmalı, ya da ictihada çatanların nəzərinə tabe olmalıdır.

Din sahəsində müqəddəs şəriətin zəruri saydığı etiqadlara yiyələnməliyik. Allah və ilahi peyğəmbərlərin bəyan etdiyi göstərişləri yerinə yetirməyimiz vacibdir. Bu sahədə səhlənkarlıq edən şəxs Allahın əzabına düçar olacaq. İnsanın onun səadəti üçün zəruri olan biliklərə müstəqil yiyələnməsi çətindir. İnsanlardan az bir hissəsi zəruri dini biliklərə yiyələnib ictihada çata bilir. Əksəriyyət isə ictihad səviyyəsində biliklərdən məhrumdur. Hansı ki, bu biliklərsiz xoşbəxt olmaq mümkünsüzdür. Deməк, dini ehtiyacların ödənməsi üçün bu sahənin mütəxəssislərinə, müctəhidlərə üz tutmağımız vacibdir. Belə bir təqlid fiqhi məsələlərdə təqliddən daha geniş məna kəsb edir. Nəzəri və etiqadi məsələlər də bu çərçivəyə daxildir. Təqlid sahələrini tanımaq üçün müəyyən mütaliələrə ehtiyac var. Zəruri mütaliələrdən sonra məlum olur ki, dinin dörd sahəsində təqlid etmək zəruridir. Əlbəttə ki, bu sahələr arta da bilər.

Birinci sahə etiqadlar, inamlar sahəsidir. Bu sahədə varlıq və yoxluq kimi iki məfhumla rastlaşırıq. Məsələn, deyilir ki, Allah var, peyğəmbərlər Allah tərəfindən göndərilib və ya qiyamət haqdır. Demək, birinci sahədə gerçəkliklərdən danışılır. İkinci sahə göstəriş xarakterli dəyərlərdən ibarətdir. Bu sahədə vaciblərdən və olmazlardan danışılır. Məsələn, bildirilir ki, doğruçuluq yaxşıdır və doğru danışmaq lazımdır. Yalan pisdir və yalan danışmaq olmaz. Bu iki baxış yalnız doğru və yalanın müsbət və mənfi dəyərlərini bəyan edir. İnsan doğruçuluq göstərişinə əməl etməli, yalandan çəkinməlidir. Əlbəttə ki, dəyərlərin etiqadlarla əlaqəsi var. İnsan etiqadlara sahib olduqdan sonra, məsələn, Allah və peyğəmbəri qəbul etdikdən sonra müəyyən dəyərlərlə üzləşir. Əgər Allahın varlığına inanırıqsa, ona itaət edib razılığını düşünməli, onun

bəndələrinə xidmət edib razılığını qazanmalıyıq. Allaha qarşı müxalifət, cəmiyyətin xeyrinə biganəlik mənfi dəyərlərdəndir.

Üçüncü sahə yollar və üsullar sahəsidir. Dəyərlərin həyata keçməsi üçün üsullara ehtiyac var. Dəyərlər zaman və məkan kimi şərtlərdən asılı olaraq fərqlənə bilər. Məsələn, əmin-amanlıq bir dəyərdir. Cəmiyyətdə əmin-amanlıq yaradılması mühüm işdir.

Təqlidin dördüncü sahəsi vasitələr sahəsidir və bu sahədə heç bir məhdudiyyət yoxdur. Çünki bu sahədə dəyər və əxlaqlardan danışılmır. Biz vasitələri istənilən bir şəxsdən qəbul edə bilərik. Məsələn, yazı və ya dil öz-özlüyündə dəyər sayılmır. Onlar sadəcə vasitədir. Eyni dildə danışmayan insanlar xətt və yazı vasitəsilə əlaqə saxlayırlar. Bu vasitələri həm müsəlman, həm də kafirdən almaq olar.

## *TƏQLİDLƏ BAĞLI BƏZİ NÖQTƏLƏR*

Təqlidin etiqadlar sahəsində ilahi peyğəmbərlərə və onlardan sonra məsum imamlara, səlahiyyətli alimlərə təqlid etmək olarmı? Peyğəmbər və imamın, onlardan sonra mütəxəssislərin sözü mötəbərdirmi? Bu sualları cavablandırmaq üçün düzgünlük və yanlışlıq meyarını təyin etməliyik. Biz qeyd etdik ki, təqliddə meyar ağıldır. Sübuta yetirilib ki, peyğəmbər məsumdur və Allahın rəsuludur. Ağıl ona itaətə çağırır. Əlbəttə ki, insan öz etiqadını əqli dəlillərlə sübuta yetirə bilirsə bu işi görməlidir. Allahın varlığının və peyğəmbərliyin sübutunda təqlid qəbul deyil. Əgər bir şəxs üçün Allahın varlığı sübuta yetməyibsə, bu həqiqətin sübutu əvəzinə peyğəmbər buyuruğuna itaət mənasızdır. Amma etiqadın qeyri-zəruri məsələlərində ağılın gücü çatmayan sahələrdə nəqli dəlillərə istinad etmək olar. Məsələn, peyğəmbərliyin zəruriliyini və həzrət Məhəmmədin (s) peyğəmbərliyini əqli dəlillərlə sübuta yetirdikdən sonra həmin dəlillər Peyğəmbərin son peyğəmbər olduğunu sübuta yetirmək üçün bəs etmir. Bu mövzuda nəqli dəlillərə ehtiyacımız var.

Əlbəttə ki, peyğəmbərliyin həqiqətini sübuta yetirən dəlillər vəhyin də Allah tərəfindən gəldiyini təsdiqləyir. Amma bu dəlillər Quranda bəyan olunmamış, peyğəmbər tərəfindən açıqlanan sünnələrin qəbulu üçün bəs etmir. Bu sahədə digər dəlillərə ehtiyac var. Əlbəttə ki, uyğun məsələni sübuta yetirən ayələr də mövcuddur.

Məsələn, peyğəmbər bərzəx aləmindən, qiyamət səhnəsindən, qəbir sıxıntısından danışır. Uyğun nöqtələr Quranda açıqlanmamışdır. Bu sahədə peyğəmbərin buyuruqlarını qəbul etməyə vəzifəliyik. Bunu Quran ayələri təsdiqləyir. Peyğəmbərin dilə gətirdiyi göstərişlər hətta Quranda bəyan olunmamışdırsa da, qəbul edilməlidir.

## *SÜNNƏNİN MÜTLƏQ QƏBULU, İMAN VƏ KÜFR ARASINDA SƏRHƏD*

İstənilən halda İslam peyğəmbərinin risalətinə etiqad tələb edir ki, onun bütün buyurduqlarına iman gətirək. Peyğəmbər nə buyurmuşsa həqiqətdir və ona tabe olmaq lazımdır. Bu sahədə əqli dəlillərə malik olub-olmamağımızın fərqi yoxdur.

Bu məqamda ağıl məsələləri ətraflı dərk etməsə də, həmin məsələ Allahın elçisi tərəfindən bəyan olunduğundan ağıl onun qəbulunu əmr edir. Əgər peyğəmbərin buyuruqlarından bəzisini qəbul edib, bəzilərini inkar etsək, əslində ona iman gətirməmişik. Tövhid və peyğəmbərliyə şəhadət vermişiksə də, hələ ki, iman sərhəddinə çatmamışıq. İnsanı xoşbəxt edən əqidələr, qanunlar və hökmlər toplumuna iman gətirməkdir. Bu həqiqətlər peyğəmbər və onun məsum canişinləri tərəfindən vəhy və sünnə şəkilində bizə çatdırılmışdır.

İslam peyğəmbərinin Allah tərəfindən göndərildiyini qəbul edib onun bəzi buyuruqlarına etiraz edən şəxs şübhəsiz ki, həqiqi iman gətirməmişdir. Əgər bir şəxs peyğəmbərin özündən həzrət Əlinin canişinliyini eşitmişsə, amma onun vilayətini qəbul etmirsə, imanı naqisdir. İnsan inanırsa ki, peyğəmbər yalnız Allahın buyuruqlarını çatdırır, necə ola bilər ki, həmin

buyuruqların bir hissəsini qəbul etməsin?! Sübh namazının günəşin tülusundan öncə qılınması peyğəmbərin göstərişidirsə, bu məsələyə necə əhəmiyyət verməmək olar? Bu qəbil insanların imanı nöqsanlıdır. Əgər Quranda namaz göstərişi verilirsə, amma namazın necə qılınması açıqlanmırsa, İslam peyğəmbərinin risalətinə inanan şəxs həm Quranın namaz göstərişinə, həm də peyğəmbərin bu barədəki sünnəsinə tabe olmalıdır.

Fəqihlər bildirirlər ki, dini zərurətlərin inkarı insanın dindən çıxmasına səbəb olur. Əslində bir şəxs peyğəmbər tərəfindən bəyan olunmuş qeyri-zəruri hökmü də inkar edərsə kafir olar. İnsan deyə bilməz ki, mən yalnız ağlımın təsdiqlədiyinə iman gətirirəm. İnsan ağılı bəzi həqiqətlərin dərkində acizdir. Əgər bütün həqiqətləri ağıl vasitəsilə dərk etmək olsaydı, ilahi peyğəmbərlərə ehtiyac qalmazdı. Bu səbəbdən də ağılı həqiqətlərin dərki sahəsində yetərli saymaq olmaz. Ağıl sadəcə zəruri biliklərin qazanılmasında fəaliyyət göstərir və yalnız vəhyin köməyi ilə insanın dünya və axirət səadəti təmin olunur. Bəli, İslam tövsiyə edir ki, insan bütün etiqadlarında əqli dəlillər əldə etməyə çalışsın. Amma bu iş hamı üçün müyəssər deyil. Əksəriyyətin Allahın nazil etdiyinə, peyğəmbər və məsumların buyuruqlarına etiqadı bəs edir. Əlbəttə ki, belə bir etiqad şərtləndirilməməlidir. Əgər insan meracın ruhani və ya cismani olduğunu bilmirsə, ağılı əsasında hökm yürüdə bilməz. Bu qəbil məsələlərdə peyğəmbərin buyuruqları qəbul olunmalıdır.

## *İSLAHAT PƏRDƏSİ ALTINDA SÜNNƏ VƏ FİQHİN İNKARI*

Etiqadlarımızdan biri İslam peyğəmbərinin son peyğəmbər olması və İslam qanunlarının, hökmlərinin əbədiliyidir. İslam peyğəmbərinin risalətinə iman tələb edir ki, onun son peyğəmbər olduğuna və gətirdiyi qanunların qiyamətədək işləkliyinə inanaq. İslam qanunlarının hansısa bir dövrə aid

olduğunu iddia etmək olmaz. İslam peyğəmbərinin risalətini və İslam qanunlarını müəyyən bir dövrə aid edən, bu qanunların texnoloji tərəqqi ilə ayaqlaşmadığına inanan insan əslində İslam və İslam peyğəmbərinə iman gətirməmişdir. Axı belə bir etiqad həzrət Musa və həzrət İsanın risalətinə etiqaddan nə ilə fərqlənir? Əqidəmiz budur ki, bütün peyğəmbərlərin risaləti müəyyən dövr üçün nəzərdə tutulmuşdur, İslam peyğəmbəri isə son peyğəmbərdir. İslam qanunlarından savayı bütün qanunlar dəyişdirilmişdir, amma Quranın dəyişilməzliyinə Allah-taala özü zəmanət vermişdir. Əgər bir şəxs İslam qanunlarını bir dövrə aid edərsə, demək, İslam peyğəmbəri ilə digər peyğəmbərlər arasında, İslam şəriəti ilə digər şəriətlər arasında fərq qoymur.

Bu gün bəzi ziyalınümalar İslam peyğəmbərinin risalət dövrünün başa çatdığını, İslam qanunlarının aktuallıqdan düşdüyünü iddia edirlər. Hətta siyasi partiyalardan birinin başçısı açıq-aşkar bildirir ki, İslam fiqhində dəyişikliklər aparmaq lazımdır. Guya şəriət müəyyən dəyişikliklərlə demokratiyaya uyğunlaşdırılmalıdır. Bəzi azğınlar isə dini nəinki millətlər, hətta hökumətlər üçün tiryək adlandırır. İslam fiqhi və ilahi hökmlər bizə tapşırılmayıb ki, onu oyuncağa çevirək, qərbin liberal demokratiyasına uyğunlaşdıraq. İslam qanunlarını məsxərəyə qoyan, dini hökumətlər və millətlər üçün tiryək adlandıran şəxslər doğrudanmı müsəlmandır?! İslamı müdafiə etməyə vəzifəli olanlar dini hökmlərin və fiqhin dəyişilməsi təhlükəsi yarandığı bir vaxtda fəryad çəkməli deyilmi?! Doğrudanmı, oğrunun əlini kəsmədən əmin-amanlığı müdafiə etməyin mümkünlüyündən danışan, dini hökmlərə əl gəzdirmək fikrinə düşənlər İslam fiqhini qəbul edir?! Unutmamalıyıq ki, belələri sabah ayətullahlar quralayıb öz qara əllərini dinin taleyinə uzada bilərlər!

Neçə illər bundan öncə İmam rahil Salman Rüştüyə ölüm hökmü verəndə belə buyurmuşdu: "Mən narahatam ki, on il bundan sonra kimlərsə "bu hökm diplomatik olmayıb"

söyləyə.” İmam bu günü görürdü. Dara çəkilməli olan həmin Salman Rüştü bu gün İrandakı həmməsləkinin müdafiəsinə qalxır, onun üçün çıxarılmış edam hökmünə təəssüf edir. O iddia edir ki, mötədil müsəlmanlar İslam mədəniyyətində islahat aparıb islami protestantlığı yaratmasalar, onlar özü işə başlayacaq! Maraqlıdır, materialist təfəkkür, qərb liberalizmi əsasında dini dəyişmək, müqəddəslikləri təhqir etmək, peyğəmbər və məsumlara münasibətdə şübhə yaratmaq, din üçün istifadə müddəti təyin etmək mədəni islahatdırmı?

## *İSLAM VƏ LİBERALİZMİN ETİQAD VƏ DƏYƏRLƏRƏ FƏRQLİ MÜNASİBƏTİ*

Biz inanırıq ki, ilahi və dini dəyərlər prinsipcə sabitdir və yaxşı nə vaxtsa pis ola bilməz. Amma dinin rolunu inkar edənlər bütün dəyərləri dəyişkən sayırlar. Onların nəzərincə, bu gün müsbət sayılan bir iş sabah mənfi sayıla bilər. Bir vaxt qərbdə homoseksualizm əxlaqsızlıq sayılırdı. Bu gün isə bu hal dəyər kimi qəbul olunur, hətta bəziləri onunla iftixar edir. Onlar bildirirlər ki, homoseksualizm genişləndikcə dövlətin xərcləri azalacaq, sosial partlayışların qarşısı alınacaq. Biz isə dini etiqadların və dəyərlərin sabitliyinə inanırıq. Dəyərlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Ağıl onları dərk etsə də, dərk etməsə də ədalət gözəldir, zülm pis! Ağıl özü ilahi hökm mənbələrindəndir. Mümkündür ki, insan müəyyən bir həqiqəti dərk etməkdə aciz olsun, amma peyğəmbər həmin işin halal və ya haram olduğunu buyursun. Bir sözlə, istər əql, istər vəhy yolu ilə müəyyənləşdirilmiş etiqad və dəyərlər sabitdir, dinin yalnız qeyri-zəruri hökmlərində qismən dəyişiklik mümkündür. Qərbdə dində dəyişikliklərə yol açmaq üçün, onu ictimai həyatdan sıxışdırıb çıxarmaq məqsədilə fəlsəfə kitablarında "dinin gövhəri və sədəfi" (içi və qabığı) kimi mövzular açıqlanır. Onların nəzərincə, dinin yalnız gövhəri sabitdir, qalan nə varsa dəyişkəndir. Ziyalınüma islahatçılar dinin gövhəri və sədəfi kimi anlayışları meydana atmaqla

əqidələri, hökmləri, dəyərləri dinin sədəfi (qabığı) kimi tanıtdırırlar. Dinin gövhəri (içi, zatı) dedikdə isə yalnız bəşərin Allah sayılmamasını nəzərdə tuturlar. Deməк, insan yalnız bəşərin Allah olmadığına inanmalıdır. Qalan nə varsa dəyişkəndir. Hətta yeganə Allaha etiqadı dinin sədəfi sayırlar. Yəni insan Allahı qəbul etməyə də bilər! Hansı ki Quran etiqadları, ilahi dəyərləri dəyişməz sayır. Bu həqiqətlərin ağıl, vəhy və ya sünnə tərəfindən təsdiqlənməsi mümkündür. Allahın və peyğəmbərin buyuruğunu hətta qəlbində inkar edənlər mürtəd və kafirdir. Onlar zahirdə müsəlman sayılsa da, İslam haqlarından məhrumdurlar. Onları cəhənnəm əzabı gözləyir. Bəli, biz müsəlmanlar əqli və ya nəqli dəlillərlə sübuta yetmiş etiqadları və dəyərləri toxunulmaz sayırıq. Yalnız ictihad elminə sahib olmayanlar etiqad və dəyərlər sahəsində təqlid edə bilər. Onların təqlidi nəinki düzgün, hətta zəruridir. Peyğəmbər və məsumların rəftarları isə şəri hökm kimi tanındıqda izlənilməlidir. Təqlidin vasitələr sahəsində isə heç bir şərt qoyulmur. İnsan istifadəsi üçün yararlı vasitəni istənilən bir şəxsdən qəbul edə bilər. Məsələn, Peyğəmbər və onun əhli-beyti ərəbcə danışmışdırsa, bizim ərəbcə danışmağımıza ehtiyac yoxdur. Ehtiyac yoxdur ki, bütün müsəlmanlar Peyğəmbər və onun əhli-beyti kimi geyinib, onlar kimi görünsünlər. Əgər peyğəmbər evini palçıqdan tikmişsə, müsəlmanların bu işdə ona təqlidi lazım deyil. Əlbəttə ki, kimlərsə peyğəmbər aşiqi kimi hər işdə onların yolunu izləyə bilər. Belə bir ardıcıllıq yalnız övliyaların gücündədir. Mərhum Əllamə Təbatəbainin əxlaq ustadı ona tapşırmışdı ki, “Biharul-Ənvar”dan peyğəmbərin bütün rəftarlarını öyrənsin və onlara əməl etsin. Əllamə öz ustadının göstərişi ilə “Sünəni-nəbiyy” kitabını tərtib etmişdir. Əllamə hətta bir-bir peyğəmbərin istifadə etdiyi qidalardan istifadə etmişdir.

## *DİNİ RƏHBƏRLƏRƏ İTAƏTLƏ BAĞLI ŞÜBHƏLƏR*

Qeyd etdik ki, bəziləri Peyğəmbər və onun əhli-beytinin (ə) bu gün izlənilməsi çətin olan rəftarlarını bəhanə gətirərək onlara təqlidə qarşı çıxır, onların bütün rəftar və danışıqlarının köhnəldiyini iddia edirlər. Biz Xanım Fatimənin (s) qadınlar, Əli ibn Əbu Talibin kişilər üçün nümunə olduğunu deyəndə onlar xanımın əl dəyirmanı ilə arpa üyütdüyünü qabardır və bu gün belə bir həyat tərzinin nümunə olmadığını bildirirlər. Bəli, bütün bunlar ilməni dolaşıq salmaqdır.

Biz xanım Fatimənin və Əli ibn Əbu Talibin nümunə götürülməsi dedikdə onların şəri hökmlərə münasibətini nəzərdə tuturuq. Şəri hökm yox, sırf vasitə ünvanlı rəftarlar isə təqlid ünvanı sayılmır. Peyğəmbər və onun əhli-beytinin (ə) hansı rəftarlarının nümunə olduğunu müəyyənləşdirmək üçün din alimlərinə müraciət edilməlidir. Onların həyatı öyrənilməli, hansı rəftarlarının nümunə olduğu müəyyənləşdirilməlidir.

Qeyd etməliyik ki, dini rəhbərlərin rəftarlarının zahiri və batini olmuşdur. Olsun ki, hansısa rəftarın zahiri şəkli dəyişsin. Mahiyyət isə qorunmalıdır. Xanımın öz dövründə əl dəyirmanı ilə un hazırlaması bu gün təqlid ünvanı sayılmır. Bu gün texnoloji tərəqqi sayəsində uyğun işlər xeyli asanlaşmışdır. Amma xanımın uyğun işi onun ailə ehtiyaclarının təminində iştirakını göstərir. Bəli, xanımın ailədəki zəhmətləri bugünkü qadınlar üçün nümunədir. Xanım toy gecəsi köynəyini yoxsula bağışlayır. İftar üçün hazırladığı çörəyi yoxsula verir. Bu əməllərin mahiyyəti haqqında düşünmək lazımdır. Bugünkü insanın yoxsula arpa çörəyi və ya köynəyini verməsi zəruri deyil. Əsas məsələ yoxsula əl tutulmasıdır. Xanım özü yediyi arpa çörəyindən verirdisə, bugünkü insan qidalandığı qidalardan verməlidir. Əhli-beytin (ə) rəftarlarının mahiyyətini izləmək istəyənlər ən gözəl libaslarından, ən üstün qidalarından infaq etməlidir. Qurani-kərimdə oxuyuruq: “Sevdiyiniz

şeylərdən infaq etməyincə yaxşılığa nail olmazsınız."[1] Əmirəl-möminin haqqında nəql olunmuş rəvayətdə bildirilir ki, imam yediyi çörək quru olduğundan onu dizi ilə sındırarmış. İmamın dövründə arpa çörəyi əsas qida idi, yoxsullar bundan da məhrum idilər. Yoxsullar çörək qazanmaqda aciz qalmışdılar. Zəkat olaraq arpa çörəyi verilərdi. Bu gün isə zəkat təkcə çörəyi olmayanlar üçün nəzərdə tutulmur. Dövrün münasib imkanlarından məhrum olan hər bir insan məhrum sayılır. Bir vaxt müqəddəs Qum şəhərində varlıların da kondinsioneri yox idi. Yay aylarında zirzəmidən istifadə olunardı. Bu gün isə əksəriyyətin kondinsioneri var, kondinsioneri olmayana zəkat vermək olar.

Bəli, biz peyğəmbər və onun Əhli-beytinin (ə) əməllərinin mahiyyətinə varmalıyıq. Əməllərin zahirinə yox, onların mahiyyətinə təqlid lazımdır. Əmirəl-mömininin nümunə seçilməsi dedikdə məsulların, vəzifəli şəxslərin eynən imam kimi öz həyatlarında yoxsulların həyat səviyyəsini nəzərə almaları başa düşülməlidir. İmama təqlid o demək deyil ki, evimizi palçıqdan tikək, arpa çörəyi yeyək. İmamın uyğun rəftarlarını izləmək çətindir. Amma həmin əməllərin mahiyyətini nəzərdə tutub imama təqlid etmək olar.

---

[1] "Ali-İmran", 92

# SƏKKİZİNCİ MƏCLİS

## QANUNLAR VƏ HÖKMLƏR SABİTDİRMİ?

## *DİNDƏ İSLAHATLAR İSTƏYİNİN KÖKÜ*

Ötən söhbətlərimizdə Əhli-beytin (ə) nümunə seçilməsindən, onların danışıq və rəftarlarının izlənilməsindən danışdıq. Qeyd etdik ki, din düşmənləri dini etiqadlarımızı və dini üsul-idarəmizi hədəfə almışlar. Onlar əsrin elmi nailiyyətlərindən, qərbin ictimai-siyasi təcrübələrindən faydalanaraq xalqımızın etiqadını süstləşdirməyə cəhd göstərirlər. Onlar şəkk-şübhə yaradır, öz şeytənətlərinə fəlsəfi və elmi don geyindirirlər. Son illər uyğun şübhələrə yetərincə cavablar verilmişdir. Müxtəlif kitablar çap olunmuşdur. Amma az insanların mütaliə imkanına malik olduğunu nəzərə aldıqda uyğun həqiqətlərin sadə bir dillə açıqlanması zəruri olur. Bu məqsədlə ötən söhbətlərimizdə itaət, təqlid, ardıcıllıq mövzularına toxunduq və bu mövzularla bağlı sualları cavablandırdıq.

Göz qarşısındadır ki, din düşmənləri və imperializmin nökərləri öz çirkin məqsədlərinə çatmaq üçün xalqın etiqadlarını zəiflətməyə cəhd göstərirlər. Onlar çalışırlar ki, İslam cəmiyyətində təfriqə yaratsınlar, cəmiyyəti fundamentalist, ənənəçi, islahatçı, yenilikçi kimi zümrələrə bölsünlər. Əlbəttə ki, bu bölgünü aparanlar, hər vəchlə modernizmə yer açanlar İslam prinsiplərinə etiqadsızdırlar. Onlar, adətən, bu bölgüləri cəmiyyəti çaşdırmaq üçün aparırlar. Özlərini islahatçı müsəlman sayan belələri İslam şüarları verməklə öz küframiz düşüncələrini müsəlmanların beyninə yeritməyə cəhd göstərirlər.

Ölkəmizdə yenilikçilik və islami protestantlıq mövzuları təzə mövzu deyil. Bu cərəyanların uzun keçmişi var. Bu mövzunu ilk dəfə ortaya atanlardan biri Axundov soyadı ilə tanınmış Fəthəli Axundzadədir. Axundovdan sonra framasonlar

islami protestantlıq cərəyanını davam etdirmişlər. Bu gün də özünü millətçi sayan bəzi ziyalınümalar uyğun cərəyandan qidalanaraq eyni sözləri təkrarlayırlar. Onlar hətta danışıqda Fəthəli Axundzadənin sözlərini işlədirlər. İddia edirlər ki, İslamın adı saxlanılmalı, mahiyyəti dəyişdirilməlidir!

## *DİNİ MƏNBƏLƏRLƏ BAĞLI ŞÜBHƏLƏR*

Yenilikçilər İslamı öz istədikləri formaya salmaq məqsədilə dini mənbələri hədəfə almışdılar. Öncə rəy əsasında təfsirlər aparmış, digər tərəfdən islam tarixini, peyğəmbər sünnəsini təhrif etmişlər. Onlar üçün meyar nəfs istəkləridir. İlkin İslam dövrünün tarixi haqqında bildirilir ki, Peyğəmbər Məkkədə peyğəmbərlik iddiası edəndə bütpərəstlər tərəfindən işgəncəyə məruz qaldı. Münasib fürsət düşən kimi Mədinəyə hicrət etdi. Mədinədə mövqeyini möhkəmləndirdikdən sonra düşmənlərindən intiqam almaq qərarına gəldi. Məkkədə ona zülm edənlərə qarşı çıxdı. Beləcə, Bədr savaşı və başqa savaşlar baş verdi. Peyğəmbər ömrünün sonunadək öz düşmənləri ilə vuruşdu, amansızlığa amansızlıqla cavab verdi. Bildirirlər ki, Peyğəmbər dünyasını dəyişəndən sonra Əlini (ə) məsçidə gətirib ondan zorla Əbu Bəkrə beyət aldılar. Bir neçə il ötdü və müsəlmanlar Əliyə beyət etdilər. Həzrət Əli hakimiyyətə çatdıqdan sonra düşmənlərindən intiqam almağa başladı. Onun beş illik xilafəti amansız müharibələrlə ötüşdü. Ondan sonra hakimiyyətə İmam Həsən gəldi. O da bir müddət Müaviyə ilə vuruşdu. Nəhayət məğlub olub sülhlə razılaşdı. Növbə İmam Hüseynə çatanda İmam qiyam qaldırıb sonda məğlub oldu. Peyğəmbərdən İmam Hüseynədək müharibələr davam etdi. Nəhayət, Əhli-beyt (ə) məğlub oldu! Sonrakı imamlar öz rəftarlarını dəyişdilər. Həmin doqquz imam əlinə qılınc almadı... Yenilikçilər Peyğəmbər və onun əhli-beytinin (ə) rəftarlarını iki növə bölür və bununla bağlı üç fərziyə irəli sürürlər:

1.İslamda iki fərqli qanun var. Birinci qanun ləğv olunduqdan sonra ikinci işə düşmüşdür. İmam Hüseynədək savaş qanunları hökm sürmüş, ondan sonra sülh siyasəti yeridilmişdir. Demək, İslamın sabit prinsipləri yoxdur. Beləcə, İslam qanunları və hökmləri tarixi şəraitdən asılı olaraq dəyişir. Demək, bu gün oğrunun əlini kəsmək, günahkarı qamçılamaq zamanımıza uyğun olaraq dəyişməlidir.

2. Din rəhbərləri iki növ baxışa malik olmuşlar: İmam Hüseynədək barışmazlıq nümayiş olunmuş, İmam Hüseyndən sonra dinc-yanaşı yaşamaq prinsipi əsas götürülmüşdür. Demək, İslam rəhbərləri ziddiyyətli hərəkət etmişlər. Hətta peyğəmbər və imamların məsumluğunu qəbul etsək, onların fərqli davrandığını təsdiqləməliyik. Budur plüralizm, dini tolerantlıq. Dini prinsiplər sabit deyil, dini mənbələrdən müxtəlif qənaətlərə gəlmək olar. Nə şiələr, nə də sünnilər özlərini haqlı bilsinlər. Nə modernistlər ənənəçiləri məhkum etsin, nə də ənənəçilər modernistləri. Əgər imamlarımız arasında fikir müxtəlifliyi olmuşdursa, demək dindən fərqli nəticələr çıxarılmışdır. Biz də onlar kimi başqalarının fikirlərinə hörmətlə yanaşmalı, tolerant olmalıyıq. Bütün problemlər danışıqlarla həll olunmalıdır.

3. İmam Hüseynin dövrünədək din rəhbərləri düzgün addım atmamışlar. Onlar təsəvvür edirdilər ki, savaş və amansızlıqla məqsədə çatmaq olar. Amma təcrübə göstərdi ki, bu üsul düzgün deyil. Bu səbəbdən də digər imamlar öz hərəkət üslubunu dəyişdi. Onlar öz atalarından ibrət götürüb əqidələrini yenidən nəzərdən keçirdilər və islahatlar apardılar. İmam Səccaddan başlayaraq hər bir imam öz dövrünün ictimai-siyasi durumuna uyğun hərəkət etdi. Əlbəttə, onlar arasında uğursuzluğa düçar olanlar da vardı. İmamlardan uzun illər zindanda saxlanılanlar da olub.. Hər halda inkişaf da olmuşdur. Belə ki, nəticədə İmam Riza xəlifənin canişini oldu, yaxşı məqama çatdı. İmamlar da başqaları kimi səhvə yol vermişlər. Onlar təcrübə qazandıqca öz fikirlərində islahatlar aparmışlar.

Xeyr, onların rəftarları ilahi olmayıb və xətalara yol veriblər. Bu da bir dəlildir ki, dini prinsiplər sabit deyil. Biz dini əqidələri və dəyərləri dəyişməz saya bilmərik. Dini rəhbərlərin istənilən bir səhvdən uzaq olması da düzgün deyil. Onlar məsum olmamış, başqaları kimi səhvə yol vermişlər. Onları müqəddəs saymaq olmaz. Dini rəhbərlər Quran və rəvayətlər əsasında yox, öz düşüncələri əsasında hərəkət etmişlər! Yenilikçilər deyir: Dini rəhbərlərin fərqli hərəkət etdiyi üzə çıxdıqdan sonra məlum olur ki, kimsənin məsum saymadığı müctəhidlər də fərqli düşünmüşlər. Onların hərəsi dindən bir nəticə çıxarır. Onların fərqli fətvaları var. Məsələn, bir vaxt onlar fətva verirdilər ki, qızlar mədrəsəyə getməsin. Zaman dəyişdikdən sonra onlar da fikirlərini dəyişdilər və bu işi caiz saydılar. Bir vaxt radio-televiziyadan istifadə etmək haram buyurulmuşdu. Zaman ötdü və hər şey dəyişdi. Deməк, müctəhidin fətvası da şəraitə uyğun olaraq əvəz edilir. Hətta eyni bir dövrdə də müctəhidlər fərqli fətvalar verir. Bu həmin plüralizmdir. Bəli, dini əsasların sabitliyindən danışmağa dəyməz!..

Beləcə, yenilikçilər çalışırlar ki, dini hökmlərdəki üslub fərqlərini prinsip fərqləri kimi qələmə versinlər. Bu isə dünya imperializminin, İslam düşmənlərinin proqramlarının tərkib hissəsidir. Ölkə daxilindəki nökərlər insanlarda dini əsaslara şübhə yaradır, Peyğəmbər və onun əhli-beytinin (ə) məsumluğunu hədəfə alırlar. Bəli, Salman Rüştü kimi bir mürtəd bizim yenilikçilərdən fərqli düşünmür. O da dini əsasların yenidən nəzərdən keçirilməsini istəyir. Əslində bütün bunlar dinsizlikdən başqa şey deyil.

Əgər onlardan İslamın ruhu haqqında soruşsanız, cavab verərlər ki, İslamın ruhu demokratiyadır. Onlar xalqın rəyinə uyğun siyasi nizamın dəyişməsini İslamın ruhu sayırlar. Yəni İslamın ruhu budur ki, İslam olmasın!!

## *UYĞUN ŞÜBHƏLƏRƏ CAVAB*

Yuxarıda qeyd olunan şübhələr insanlarda belə bir fikir yaradır ki, həm məsumların əməl və rəftarlarında, həm də din alimlərinin fətvalarında ziddiyyətlər vardır. Onlar düşüncələrin fərqli olduğunu bildirməklə yanaşı, İslam hökmlərinin müvəqqəti, zamandan asılı olduğunu iddia edirlər. Guya hökmlərin vaxtı var və vaxtı keçmiş hökmlər bir kənara qoyulmalıdır. Cavab olaraq deməliyik ki, bizim Peyğəmbər və onun əhli-beytinin məsumluğu ilə bağlı fikrimiz qətidir və sübuta yetmişdir ki, onlar vahid bir nurdurlar. Onların müxtəlif şəraitlərdəki müxtəlif hərəkətləri fərqli düşüncədən yox, şəraitlə bağlı səliqədən yaranır. Uyğun səliqə fərqləri hökmlərin dəyişkən olduğunu göstərmir. Dəyişən hökmlər yox, nümunələrdir. Hər bir hökm mövzuya tabedir və xüsusi ünvan üçün nəzərdə tutulur. Eyni bir dövr və eyni bir məkanda eyni bir hökm müxtəlif üsullarla tətbiq oluna bilər.

Məsələn, bütün fəqihlər fətva vermişlər ki, hər bir yetkin müsəlmana oruc tutmaq vacibdir. Digər bir tərəfdən fətva verilir ki, xəstə şəxs oruc tutmaya bilər. Hətta bəziləri insana zərər verəcəyi təqdirdə oruc tutmağın haram olduğunu bildirirlər. Bu iki hökmü fərqləndirən mövzuların ayrılığıdır. Birinci hökm sağlam, ikinci hökm xəstə insana aiddir. Demək, fətvalarda heç bir fərq yoxdur, sadəcə mövzular fərqlidir. Sağlam insana oruc tutmaq vacibdir, xəstə insan üçün isə vacib deyil. Bu iki hökm arasındakı fərqin səbəbi zaman və məkan fərqləri deyil.

Məsələn, namaz qılmaq istəyən yeniyetmə şəxs dəstəmaz almalı, cənabətli olduqda qüsl verməlidir. Amma su əldə edə bilməyən insan dəstəmaz və qüsl əvəzinə təyəmmüm edir. Uyğun fətvalar arasındakı fərq mövzularla bağlıdır. İxtiyarında su olan insanla əli suya çatmayan insanın hökmləri ayrıdır. Dəstəmaz və qüsl mövzuları ixtiyarında su olan insana aiddir. Başqa sözlə, dəstəmaz və qüslü vacib edən hökm ixtiyari hökmdür. Bu hökm ixtiyarında su olan müsəlmanlara aiddir.

Təyəmmüm hökmü isə müstəsna bir hökmdür. Əli suya çatmayan və ya xəstə olan insan namaz üçün təyəmmüm edir. İxtiyari hökm bəzən ilkin hökm adlandırılır. Yəni ilk vəzifə dəstəmaz və qüsldür. İstisna halda ikinci hökm ortaya çıxır və bu təyəmmümdən ibarətdir. Təyəmmüm ikinci dərəcəli (sanəviyyə) hökmlər sırasındadır. Sanəviyyə hökmlər adətən böhranlı vəziyyətlərdə işlək olur. Bu qəbil hökmlərin bəzən Quran və sünnədə adı çəkilmir. Sanəviyyə hökm bəzən o qədər genişləndirilir ki, başqa müəyyən hökmlərə şamil olunur. Məsələn, İslam qaydasınca kəsilmiş qoyunun əti halaldır. Amma qəsbi qoyunun əti haramdır. Yəni əti halal olan qoyun ara (etibari) səbəblərdən haram olur. Halal əti haram edən onun qəsbiliyidir. Nəticədə qəsblə bağlı haram hökmü əti halal qoyuna tətbiq edilir. İlkin hökm zati olaraq tətbiq edilən hökmdür. Sanəvi hökm ara səbəblərdən yaranmış mövzu ilə bağlıdır. Hökmlərdə fərq yaradan onların müxtəlif şəkillərdə dərk edilməsi deyil. Allah öncədən hər bir mövzu üçün hökm müəyyənləşdirmişdir. Mövzu dəyişdikdə hökm də dəyişir. Sudan istifadə edə bilənə dəstəmaz və qüsl vacibdir. Sudan istifadə edə bilməyən üçün təyəmmüm vacib olur. Uyğun hökmlər dində dəyişiklik mənasında deyil.

Hökmlərdəki dəyişikliklərdən biri də hökumət və vilayət mövzusu ilə bağlıdır. Bu mövzu xüsusi hökmə malikdir. İmam rahil öz dərslərində buyurardı: "Əgər şəri hakim İslamın xeyrinə məndən əbamı istəsə, onu verməyim vacibdir. Hansı ki, bu vaxtadək həmin əba mənim olmuşdur və kimsə məndən icazəsiz ondan istifadə edə bilməzdi. Şəri hakimin verdiyi hökumət hökmləri ilkin hökmlərdəndir. Dini mövzular yarandıqda verilən hökmlər isə sanəvi hökmdür.

## *HÖKM VƏ QANUNLARIN İCRASINDA MƏSLƏHƏT AMİLİ*

Həzrət Peyğəmbərin haqlarından biri də itaət haqqı olmuşdur. Bu barədə Allah-taala buyurur: "Ey iman gətirənlər!

Allaha, onun peyğəmbərinə və özünüzdən olan əmr sahiblərinə itaət edin."[1] Şübhəsiz ki, Peyğəmbərə itaət Qurandakı hökmlərə itaətdən fərqlənir. Çünki belə bir itaət ayrıca zikr olunmuşdur. Peyğəmbərə itaət dedikdə onun öz tərəfindən verilən hökmlər nəzərdə tutulur. Əllamə Təbatəbai buyurur: "Şübhə yoxdur ki, Allah özünə itaət dedikdə vəhy vasitəsilə göndərdiyi hökmlərə itaəti nəzərdə tutur. Amma peyğəmbərin iki yönümü var: vəhyi çatdırmaqdan ibarət şəriət yönümü və peyğəmbərin öz hökumət və mühakiməsi əsasında buyuruqları. Aydın olur ki, peyğəmbərə itaət müstəqil bir mövzudur."[2]

Əgər Allah-taala öz peyğəmbər və imamlarına şəriət məqamı vermişsə, bu o demək deyil ki, onlar uyğun hökmləri dəyişə bilərlər. Mövzuya uyğun fərqli hökm fərqli bir məsələdir. Məsələn, Əmirəl-möminin Əli ibn Əbu Talib İslam hökmlərinin və dəyərlərinin hifz olmasına xatir iyirmi beş il öz haqqı olan hakimiyyətdən əl çəkdi. Əgər peyğəmbər və digər imamlar da onun yerinə olsaydılar, eyni cür hərəkət edərdilər. Demək, rəhbərlərin rəftarlarındakı fərq hökm yox, mövzu fərqləridir. Onların fərqli hərəkətləri hökmlərin dəyişməsi kimi qəbul edilməməlidir.

Demək, dini rəhbərlərin hökm və rəftarları mövzulara uyğun olaraq dəyişir və onlardan bəzilərini müəyyənləşdirə bilərik. Məsələn, dinşünas bir fəqih həzrət Əlinin iyirmi beş il xilafətdən əl çəkməsinin səbəblərini araşdırıb tapa bilər. Eyni şərait təkrarlandıqda dini rəhbər də eyni cür hərəkət edə bilər. Demək, sabit əhkam və rəftar mövzu və ünvandan asılıdır. Onları dəyişən zaman deyil. Sadəcə, hər mövzunun öz hökmü var. Məsələn, səfərdə olan şəxsin namazı vətəndə olan şəxsin namazından fərqlənir. Vətənində olan günorta namazını dörd rəkət qılırsa, səfərdə olan bu namazı yarı qılır. Bu iki hökm iki müxtəlif mövzuya aiddir.

---

[1] "Nisa", 59

[2] "Təfsiri-Əlmizan"

Demək, hökmlər və rəftarlar arasındakı fərqlərin səbəbi plüralizm yox, mövzuların müxtəlifliyindən qaynaqlanır.

Əlbəttə ki, fərqli mövzularla bağlı müxtəlif hökmlərin mövcudluğu dinin kamilliyini göstərir. İslamın kamilliyi ondadır ki, hər mövzuya aid hökm mövcuddur. Sağlam adamın öz hökmü, xəstə adamın öz hökmü var. Müsafirin öz hökmü, vətəndə olanın öz hökmü var. Dəstəmaz ala bilməyən təyəmmüm edir. Orucdan zərər çəkən oruc tutmur. Əgər din sağlam adamı xəstə adamdan fərqləndirməsəydi, bu nöqsan olardı. Mövzuların dəyişməsində ictimai şərait, hətta iqlimin rolu var. Dini rəhbərlər hər bir şəraiti nəzərə alaraq hökm verir. İslam hakimi öz ixtiyari çərçivəsində cəmiyyətin məsləhətini nəzərə alır. O, İslam cəmiyyətinin xeyiri üçün nəyisə haram, nəyisə vacib edə bilər. Bir vaxt mərhum Mirza Şirazi tərəfindən tütünün haram buyurulması buna misal ola bilər. Bu hökm hökuməti bir hökm olmuşdur. Hökmdə müsəlmanların ümumi xeyiri nəzərə alınmışdır. Həmin vaxt qərb ölkələri bir neçə vasitə ilə, o cümlədən tütünçülük bəhanəsilə müsəlman ölkələrini əsarət altında saxlayırdılar. Uyğun hökm İslam cəmiyyətini uyğun əsarətdən qurtardı. Cəmiyyətin xeyri istənilən bir şəraitdə nəzərə alınır. Əgər ölkəyə hücum olmuşsa müdafiə gücü olanların müdafiəyə qalxması vacibdir. Əgər bu gün Amerika və sionist rejim İslamın müqəddəs məkanlarından olan Qüdsü işğal edib Fələstin xalqını qırırsa, İslam hakimi bu ölkələrlə ticarətə qadağa qoya bilər. Nefti olan ölkələr Amerikaya neft verməkdən imtina edə bilər. Belə olsa Amerika və İsrail diz çökər, təcavüzkarlığından əl götürər. İmam (ə) buyururdu: “Əgər hər bir müsəlman İsrailin üzərinə bir qab su töksə İsrail qərq olar.” Bu buyuruqlar İslami birliyin əzəmətindən danışır. Təəssüf ki, özünəinamsızlıq və qərbpərəstlik hazırda bu vəhdətin qarşısını alan amillərdəndir.

Vəliyyi-fəqihin, İslam hakiminin verdiyi hökm məsumun verdiyi hökm kimidir. Qeyd etdik ki, dini rəhbərlərin hökmlərindəki fərq fərqli baxışlardan yox, mövzular arasındakı

fərqdən yaranır. Dini rəhbər yalnız ona verilən ixtiyar çərçivəsində hökmü dəyişir. Belə bir dəyişiklik dində dəyişiklik deyil. Əgər mərhum Mirza Şirazi tütünü haram buyurdusa, bu işdə məqsəd İngiltərə imperializminin müsəlman cəmiyyətinə uzanmış çirkin əlini kəsmək idi. Uyğun hökm müsəlmanları izzətə çatdırmaq məqsədi izləyirdi. Allah buyurmurmu ki, O möminlərin ziyanına kafirlərə yol qoymamışdır.[1]

Ölkələr arasında ədalətli rabitələr təbiidir. Hər bir ölkə öz ehtiyaclarının təmini üçün digər ölkələrlə əlaqə qura bilər. Bir şərtlə ki, bu əlaqələr tərəflərdən birinin müstəqilliyini zərbə altında qoymasın. Belə olduqda İslam hakimi uyğun rabitələri qadağan edə bilər. Belə bir hökm qismən maddi zərərə səbəb olsa da, nəticədə müstəqillik qorunun.

Qeyd etmək yerinə düşər ki, biz İslam hakimi, şəri hakim dedikdə ya Malik Əştər kimi, məsum tərəfindən xüsusi təyin olunmuş hakim, ya da məsum imam vasitəsilə ixtiyar verilmiş hakim nəzərdə tuturuq. Belə bir hakimin hökuməti qanuni və ilahidir, ona itaət etmək vacibdir. Allaha, peyğəmbər və məsum imamlara itaət vacib olduğu kimi, şəri hakimə də itaət edilməlidir. Daha geniş mənada isə vəliyyi-fəqih tərəfindən təyin olunmuş şəxslər də mötəbərdir. Bundan savayı heç bir hakimiyyət etibarlı sayılmır. Çünki hakimlik məsumun icazəsilə müəyyənləşməlidir və bu işdə Allahın izni nəzərə alınır. İmam rahil buyurmuşdur: “Əgər iş başında fəqih dayanmasa bir azğın dayanasıdır. Prezidenti fəqih təyin etməsə, o qeyri-qanuni sayılır. Qeyri-qanuni rəhbər isə tağutdur, ona itaət tağuta itaətdir.” [2] İmamın bu sözləri əbədi olaraq yaddaşımıza yazılmalı, siyasətçilərimizin və məsullarımızın şüarına çevrilməlidir. Kimsə düşünməsin ki, hakimiyyət xalqın rəyi ilə etibarlı olur, hətta vəliyyi-fəqih də xalqın rəyi ilə etibar qazanmışdır.

---

[1] “Nisa”, 141

[2] “Səhifeyi-Nur”, c.9, s.253

## *FİQHİ FƏTVALAR ARASINDA FƏRQİN SƏBƏBİ*

Qeyd etdik ki, dini rəhbərlər məsumdurlar və Allahın əsil hökmlərindən xəbərdardırlar. Buna görə də məsumlar arasında baxış fərqi yoxdur. Fəqihlər isə məsum deyillər və şəxsi araşdırmaları ilə öz fətvalarını bəyan edirlər. Bəzən onların dəlilləri arasında fərqlər olur. Buna görə də fətvalar arasında fərq təbiidir. Biz bunu inkar etmirik. Bəzi fiqhi mənbələr mötəbər dəlillərə malikdir və həmən mənbələrlə bağlı heç bir ixtilaf yoxdur. Bütün fəqihlər şəri hökmlərin isbat üsulu ilə tanışdırlar. Onlar həmin mənbələr arasında yekdil qərarlarını bildirirlər. Qeyd olunan mənbələr əsasında çıxarılan hökmlər zəruri və qətidir. Bəzi fiqhi dəlillərin isə mənbələri qəti olmadığından fətvalar arasında fərq yaranır.

Həzrət Mehdinin (əc.) qeyb dövründə fəqihlər məsumla görüşə bilmədiklərindən şəri hökmlərin isbatı üçün rəvayət kitablarına müraciət etməyə məcburdurlar. Bu kitabların müxtəlif nüsxələri var və ayrı-ayrı nüsxələr arasında fərqlər mövcuddur. Bəzən köhnəlmiş kitabları oxumaq çətin olur. Qədim xətləri oxuyarkən fərqli mülahizələr yaranır. Nəzərə alsaq ki, bugünkü nəşrlərdə də fərqlər olur, uyğun problemi anlamaq asanlaşar. Əgər fəqih bütün mənbələri əldə edə bilmirsə, təbii ki, fətvalar arasında fərq olasıdır.

Rəvayət mənbələri arasında da fərqlər var. Bəzən müxtəlif rəvayətçilər tərəfindən nəql olunmuş hədislər arasında fərq olur. Fəqih rəvayətin mötəbərliyini təyin edir. Məsələn, “İbn Sənan” adı ilə iki rəvayətçi tanınmışdır. Onların biri Məhəmməd ibn Sənan, digəri Abdullah ibn Sənandır. Fəqih min bir zəhmətlə rəvayətin hansı ibn Sənan tərəfindən nəql olunduğunu müəyyənləşdirir.

Rəvayətlərin anlaşılmasında da problemlər var. Bir neçə rəvayətçi tərəfindən ötürülmüş buyuruqların mötəbərliyi dəqiqləşdirilməlidir. Bəzən eyni bir söz məsumun dövründə bir mənada, hazırkı gündə başqa mənada işlədilir. Məsələn, Quran və “Nəhcül-Bəlağə”də “təqiyyə” sözü “təqva” mənasında

işlədilmiş “təqah” sözü ilə eyni kökdəndir. Bu söz İmam Sadiqin (ə) dövründə təqiyyə, yəni əqidəni açıqlamamaq mənasında işlədilmişdir. Məsumların müəyyən buyuruqları təqiyyəyə əsaslana bilər. Fəqih bütün bu problemləri həll etməlidir. Bu qəbil araşdırmalarda fərqli baxışların olması təbiidir.

Fəqihlərin fətvaları arasındakı fərq müxtlif sahələrdə mütəxəssislərin baxışları arasındakı fərq kimidir. Biz ağılın mühakiməsindən istifadə etməli, daha elmli insanlara üz tutmalıyıq. Bu səbəbdən də daha elmli fəqihə müraciət edilməsi tapşırılır. Əlbəttə ki, ələm (daha elmli) fəqihin fətvasının Allah hökmü olduğunu iddia etmək olmaz. Hər halda daha alim fəqihin fətvası daha mötəbərdir.

Fiqhi mənbələrdə ictihad və şəri hökmlərin çıxarılması müəyyən üsullara əsaslanır. Fəqih bu çərçivədən çıxa bilməz. Fəqihin ixtiyarı yoxdur ki, öz baxışını məsumun baxışı kimi təqdim etsin. Rəvayətlər rəy əsasında şərh oluna bilməz. Demək, fətvalar arasındakı fərq dövrün dəyişməsi ilə əlaqədar deyil. Eyni bir dövrdə də fətvalar arasında fərq olur. Hətta eyni bir fəqih öncə bir fətva verir, bir müddət sonra fətvasını dəyişir. Fəqihin fətvası bəzən min il bundan öncəki fəqihin fətvasına uyğun olur. Bəzən də eyni dövrdə yaşayan fəqihlərin fətvası fərqlənir. Fəqih vəzifəlidir ki, din çərçivəsində fiqhi qaydalardan istifadə edərək dini hökmlər barədə rəy bildirsin. Bu yönümdə kimsə öz meyl və həvəsinə əsaslana bilməz. Bəli, fəqihlərin fətvaları arasındakı fərqin kökü dini plüralizmlə yox, mənbələrlə bağlıdır.

Ədalətli və təqvalı fəqihlər öz araşdırmaları nəticəsində fərqli fətvalar verirsə, onların fətvaları möhtərəmdir. Kimsənin onlara eyb tutmağa ixtiyarı yoxdur. Başqa sahələrdə də mütəxəssislər fərqli fikirlər söyləyir və onların fikirləri hörmətlə qarşılanır. İxtisası olmayanların sözü isə mötəbər deyil. Həkim olmayan bir şəxs tibb elmindən nə danışsa, məqbul deyil. Dini biliklərdən xəbərsiz insanın da fətva vermək

haqqı yoxdur. Əlbəttə ki, kimlərsə xalqın və ya Amerikanın istəyinə uyğun fikir söyləyə bilər. Amma yalnız mütəxəssislərin söylədikləri mötəbər sayılır.

# DOQQUZUNCU MƏCLİS

## NİFAQ VƏ KÜFR CƏBHƏSİ HAQQ CƏBHƏSİNƏ QARŞI

## *HAQQ MEYARI ALLAHA VƏ ONUN SEÇİLMİŞLƏRİNƏ İTAƏTDİR*

Son illərdə dini müqəddəsliklərin adiləşdirilməsi, dini təəssübün aradan qaldırılması üçün bir sıra məkirli planlar həyata keçirilir. Təəssüf ki, bu qəbil proqramlar bəzi müsəlman məsullar tərəfindən də himayə olunur. Uyğun proqramları tərtib edənlər xalqa məxsus etiqad və müqəddəslikləri sual altına alır, hətta Peyğəmbər və onun əhli-beytinin (ə) məsumluğuna münasibətdə şübhə toxumu səpirlər. Ən dəhşətlisi, Quranın Allah tərəfindən olub-olmaması müzakirəyə çıxarılır. Şübhəsiz, bütün dindarlar vəzifəlidirlər ki, bu qəbil fitnə-fəsadların qarşısını almaq üçün çalışsınlar. Biz də uyğun mövzuda söhbətlər etmişik və uyğun söhbətləri davam etdirəcəyik.

Qurani-kərimdə Allaha, peyğəmbərlərə və onların canişinlərinə itaət vacib sayılmışdır. Eyni zamanda, Quran baxımından itaət meyarı haqqa üz tutub azğınlıqdan uzaqlaşmaqdır. Bu müqəddəs amala yalnız Allah, onun peyğəmbərləri və din rəhbərlərinə itaətlə çatmaq olar. Allah haqdır, haqqa hidayət edir, onun peyğəmbərləri xalqı haqqa çağırır, onlara doğru yolu işıqlandırır. Ən layiqli yol Allaha baş əyib, azğınlıq yoluna çəkənlərdən üz çevirməkdir. Quranda oxuyuruq: “De ki, şəriklərinizdən elə biri varmı ki, haqq yolu göstərsin? De ki, Allah haqq yolu göstərir. İtaətə haqq yolu göstərən layiqdir, yoxsa yol göstərilməyincə onu tapmayan? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz? Onların çoxu yalnız gümana uyur. Güman heç vaxt həqiqətə ehtiyacı ödəmir. Bəli, Allah gördüyünüz işlərdən agahdır.”[1]

[1] “Yunus”, 35, 36

“Yunus” surəsində “haqq” sözü çox işlədilmişdir. Zikr olunmuş iki ayədə uyğun söz dörd dəfə təkrarlanır. Haqqa hidayət Allaha hidayətin zəruri meyarı sayılır. Yuxarıdakı ayələrdə bildirilir ki, haqqa çağıran və hamını haqqa hidayət edən Allah itaətə daha layiqdir. Ayədə möhtac olanlara üz tutmağın nə faydası?! Həmin məqamda Allah-taala insanların ağıl və vicdanını mühakiməyə çağırır. Şübhəsiz ki, haqqa bağlı düşüncə və vicdanlar Allaha itaət yolunu seçir. Axı özü şübhə içində vurnuxanlara necə tabe olasan?!

Digər bir nöqtə budur ki, Allaha itaət insanın hidayətində mehvər kimi tanıtdırılır. Əsas məsələ, ilahi dinlərdə maya Allaha itaətdir. Allah insanların səadəti üçün yol açmışdır. Peyğəmbərlərə və məsum din başçılarına itaət Allahın izni ilə rəsmiləşir. Allah buyurur: “Allahın əmrinə tabe olmayan heç bir peyğəmbər göndərmədim.”[1]

Digər bir ayədə Allah-taala peyğəmbərə itaəti önə çəkir: “Peyğəmbərə tabe olan, həqiqətən, Allaha tabe olmuşdur.”[2]

Allahın elçilərinə itaətin Allaha itaət olması ağıl tərəfindən təsdiqlənir. Çünki onları Allah öz yoluna hidayət etmişdir. Onlara əmr olunmuşdur ki, başqalarını da Allahın yoluna dəvət etsinlər və onlara səadət zəmini hazırlasınlar.

## *MƏSUMLUQ (GÜNAHDAN UZAQLIQ) ALLAH PEYĞƏMBƏRLƏRİNİN ZATİ SƏCİYYƏSİDİR*

«Ənam» surəsində Allah-taala on səkkiz peyğəmbərin adını çəkdikdən sonra 90-cı ayədə buyurur: “Bunlar (peyğəmbərlər) Allahın doğru yol göstərdikləridir, onların doğru yolunu tutun.”

Öncə Allah-taala buyurur ki, biz peyğəmbərləri haqqa və öz yolumuza hidayət etdik. Bəli, peyğəmbərlər tutduqları yola əmindirlər və Allah tərəfindən onlara zəmanət verilmişdir.

[1] “Nisa”, 64
[2] “Nisa”, 80

Peyğəmbərlər insanları zənn-gümanları əsasında dəvət etmirlər. Sonra buyurulur ki, siz də onlara itaət edin, doğru yolu tutun. İşarə olunmuş ayələr peyğəmbərlərin məsumluğunu göstərir. Peyğəmbərlərin məsumluğu bizim zəruri etiqadlarımızdandır. Onların məsumluğunun fəlsəfəsi başqa ayələrdə belə açıqlanır: "Allah qeybi bilir və kimsəyə qeybdən xəbər vermir. Yalnız peyğəmbərliyə bəyənib seçdiyi istisnadır. Onun (peyğəmbər) üçün qarşıdan və arxadan nəzarətçilər qoyacaq. Bilsin ki, (peyğəmbərlər) Rəblərinin əmrini çatdırmışlar. Onlarda olandan tam xəbərdardır, hər şeyi saymışdır."[1]

Özünü müsəlman sayan bəzi ziyalınümalar peyğəmbərlərin məsumluğunu inkar edir, deyirlər ki, peyğəmbərlər də vəhyi başqaları kimi anlayırlar və səhvə yol verə bilərlər. Onlar öz danışıqlarında, məqalələrində, kitablarında müsəlmanların müqəddəsliklərini və etiqadlarını şübhə altına alırlar. Əslində bu iş dini zərurətlərin inkarıdır. Təəssüf ki, bu qəbil hərəkətlər hətta müsəlman məsullar tərəfindən himayə olunur!

## *ŞEYTANIN AZĞINLARA BƏLƏDÇİLİYİ*

Haqqa dəvət edən və Allah tərəfindən seçilmiş peyğəmbərlərə qarşı şeytanlar və şeytansifətlər fəaliyyətdədir. Allah-taala ciddi şəkildə insanları şeytan və şeytansifətlərə itaətdən çəkinməyə çağırır. Çünki onlar ağıl və fitrətin ziddinə hərəkət edirlər. Özü haqq yoldan çıxmış beləleri başqalarını da azdırır, bədbəxtliyə sürükləyirlər. Qəlblərdə nifaq və küfr toxumu səpən bu zümrə şeytana itaətdədir. Onlar şeytanların dostu cərgəsində dayanır. Belələrinin qəlbinə şeytan hakimdir və onların cilovu şeytanın əlindədir. Quran buyurur: "O (şeytan) yalnız onu sevən və onun rəhbərliyini qəbul edən kəslərə hakimdir."[2]

---

[1] "Cin", 26, 28
[2] "Nəhl", 100

Allah peyğəmbərlərinə vəhy nazil edir, onlara doğru yolu, səadət yolunu göstərir. Onları xalqı doğru yola dəvət etmək üçün seçir. Şeytan da öz dostlarına və ardıcıllarına təlqin edir, onları azdırır. Onlara başqalarını azdırmaq yolunu öyrədən də şeytandır. Quranda oxuyuruq: “Həqiqətən, şeytanlar gizlində öz dostlarının qulağına pıçıldayırlar ki, sizinlə düşmənçilik etsinlər. Əgər onlara itaət etsəniz, şübhəsiz, siz də müşriksiniz.”[1]

Şeytan öz ardıcıllarına onların bilmədikləri üsulları öyrədir. Şeytandan ilham alanlar həmin üsullarla haqqa qarşı mübarizəyə qalxır, peyğəmbər məktəbilə vuruşur, möminlərin qəlbinə şəkk-şübhə toxumu səpir. Buna görə də Quran möminlərə xəbərdarlıq edir ki, şeytanın ardıcıllarından özlərini qorusunlar, onlarla oturub-durmasınlar. Çünki onların məqsədi ətrafdakıları azdırmaqdır və bu işdə zəif əqidəli insanlardan yapışırlar. Bəli, bəziləri öz dini inancını müdafiə etməkdə acizdir. Beləlri çox tez təsir altına düşür, imanlarını əldən verir. Şübhəsiz ki, şeytan həqiqi alimlərin və haqq yolu tanıyanların sorağınca getmir. Yaxşı bilir ki, onları azdıra bilməz. Bəli, şeytanın hədəfi şəkk-şübhələrdən yaxa qurtarmağı bacarmayanlardır. Quranda belələrinə xitabən buyurulur: “Allah bu kitabda sizə nazil etmişdir ki, onun ayələrinin inkar olunduğunu, məsxərəyə qoyulduğunu eşitdikdə onlarla əyləşməyəsiniz. Belə ki, söhbətlərini dəyişsinlər. Yoxsa siz də onlar kimi olarsınız. Allah bütün münafiqləri və kafirləri cəhənnəmdə bir yerə toplayacaq.”[2]

---

[1] “Ənam”, 121
[2] “Nisa”, 140

# *YENİLİKÇİLƏRİN VƏ MÜNAFİQLƏRİN AZDIRICI TƏBLİĞATINA QURBAN GEDƏN GƏNCLƏR*

Münafiqlər və biganələrlə əyləşənlər onların təsiri altına düşürlər. Beləları zahirən müsəlman kimi tanınsalar da, qəlbləri nifaqa bulaşmışdır. Münafiqlər və din düşmənlərilə mübahisəyə girmək istəyən şəxs öncə öz etiqad əsaslarını möhkəmləndirməli, yetərincə dini maarifə yiyələnməlidir. Söhbət zamanı mübahisə üsullarını bilmək, dəlillərə malik olmaq lazımdır. Yalnız bu yolla etiqadların müdafiəsinə qalxmaq olar. Güləş fəndlərilə tanış olmayan insan peşəkar güləşçi ilə meydana çıxa bilməz. Əgər meydana çıxsa ilk addımda məğlub olar. Dini etiqadlar haqqında xülasə məlumata malik olanlar da şübhələri cavablandırmaq imkanında deyillər. Onlar dini etiqadlarla bağlı suallarla rastlaşdıqda istər-istəməz təsir altına düşür, sonda imanlarını əldən verirlər.

Münafiqlər və fitnəkar biganələr etiqadlı insanlar qarşısında dayanmaq gücündə deyillər. Bu səbəbdən də onlar dini biliklərə malik insanlara yox, bu sahədə biliyi zəif olan gənclərə üz tuturlar. Gənclərin düşüncəsinə demokratiya, azadlıq şüarları ilə hakim olurlar. Gənclərə deyirlər ki, siz sözləri dinləyin və onun yaxşısını seçin! Biz də bu qəbil azadlığın tərəfdarıyıq. Amma peşəkar şeytansifətin təcrübəsiz gənclərlə üzbəüz əyləşməsi yolverilməzdir. Peşəkar şeytansifətlər aldadıcı fəndlərə yiyələnmişlər və lazımınca biliyi olmayanları tovlamaq onlar üçün çətin deyil. Dünyanın şeytansifətlərini iyirmi ildir ki, mübahisəyə çağırırıq. Hər dəfə bir bəhanə ilə bu mübahisədən qaçırlar. Onlar yaxşı bilirlər ki, İslam alimləri ilə üzbəüz oturmaq gücündə deyillər. Bu səbəbdən də alimlərdən yayınıb gənclərə üz tuturlar.

# *HAQQA ARDICILLIĞIN VƏ PUÇ QƏRB DÜŞÜNCƏSİNƏ ARXA ÇEVİRMƏYİN ZƏRURİLİYİ*

Elmi Allahdan öyrənmiş, insanları doğru yola hidayət edə biləcək peyğəmbərlərə itaət etmək yaxşıdır, yoxsa danışıq və rəftarı ziddiyyətlə dolu azğınlara? İnsan kimi dinləməlidir? Aşkar möcüzə və ayələrlə gəlmiş peyğəmbərləri, yoxsa azğın nəfs istəyi əsasında danışanları? Tarix boyu bəşəriyyət 124 min peyğəmbərlə ünsiyyətdə olmuşdur. Onlar eyni yola çağırmış, eyni sözü demişlər. Bu ilahi elçilərə inanaq, yoxsa sözünün əvvəli ilə axırı düz gəlməyənlərə? İslam düşmənlərinin danışığına diqqət yetirsək, onların iki cümləsinin bir-birinə uyğun gəlmədiyini görərik. Ondan soruşanda ki, dünən dediyin nə idi, bu gün dediyin nə? Cavab verir ki, dünən dediyim dünənə aid idi, bu gün dediyim bu günə! Guya hər şey dəyişir və insan gündə bir söz danışmalıdır! Bir yazıçıdan soruşurlar ki, bu gün danışdıqların doqquz il bundan qabaq danışdığınla uyğun gəlmir, bunun səbəbi nədir? Cavab verir ki, mən doqquz il bundan qabaq ölmüşdüm, indi dirilmişəm! Beləl追 üçün əqidə dəyişikliyi su içmək kimi asandır.

Peyğəmbərlərin və onların ardıcıllarının məntiqi budur ki, yolumuz Allah yoludur, dediklərimiz ağıl və fitrətə uyğundur. İnsanları öz ardlarınca çağıran biganələr isə yeni söz danışmaqla öyünür və xalqın rəğbətini dəlil göstərirlər! Məgər əksəriyyətin rəğbəti haqlılıq göstəricisidir?! Belə bir məntiq Allahın məntiqi ilə uyğun deyil. Allah peyğəmbərə buyurur: "Əgər yer əhlinə tabe olsan, onlar səni Allahın yolundan azdıracaq. Onlar yalnız zənn-gümana uyur, boş və əsassız danışırlar."[1] Yuxarıdakı ayədə peyğəmbərə xitab olunsa da, Allah bütün bəşəriyyətə müraciət edir. Burada "qızıma deyirəm, gəlinim eşitsin" məsəli yada düşür.

---

[1] "Ənam", 116

Allah bizi əksəriyyətə itaətdən çəkindirir. Çünki xalqın əksəriyyəti əsaslı bilikdən məhrumdur. Onlar haqqı batildən seçmək gücündə deyillər və elmi dəlilləri yoxdur. Əksəriyyət zənn-güman əsasında danışır, nəfs meyillərinə əsaslanır. Haqq yolu tapmaq istəyən haqq yolda olana müraciət etməli, dəlillərə malik olmalıdır. Havadan danışanların ardınca gedənlər, sözsüz ki, yolunu azasıdır. Din düşmənləri gözəl və aldadıcı danışmaqla əksəriyyətin ağlını oğurlayır, dini etiqadlara münasibətdə şəkk-şübhə yaradırlar. Bu işin uzun tarixi var. Tarix boyu din düşmənləri olmuş və eyni üsulla hərəkət etmişlər.

Yenilik deyəndə elmi araşdırmlar sayəsində kəşf olunmuş həqiqət nəzərdə tutulur. Bu qəbil yeniliklərin elmi əsasları olur. Amma cəhaləti dirçəltmək, min illər təkrarlanmış sözləri təzə libasda meydana çıxarmaq yenilik deyil. Onlar deyirlər ki, təcrübədə sübuta yetirilməyən bir şey qəbul olunmur. Məgər bu təzə sözdürmü?! Bu sözü bir vaxt Bəni-İsrail söyləmişdi. Onlar həzrət Musaya dedilər: "Ey Musa, əgər Allahı aşkara görməsək heç vaxt ona iman gətirmərik."[1] Bir sözün təzə olması da onun həqiqət olduğunu göstərmir. Dünyada bir çox yeni nəzəriyyələr əsassız olub və ayaq açan kimi də meydanı tərk edib. Əqli və elmi dəlillərə malik olan, ehtiyaclara cavab verən nəzəriyyə həqiqi nəzəriyyədir. İstənilən bir nəzəriyyənin ya dəlilləri olmalıdır, ya da bu nəzəriyyə Allah tərəfindən təsdiqlənməlidir. Allahın təsdiqlədiyi istənilən bir baxış mötəbərdir.

Bəli, insanın qarşısında iki yol var: Allah yolu və şeytan yolu. Allah bizə əmr edir ki, onun yolunu tutaq. Bizlər peyğəmbər və məsumların yolu ilə gedib haqqa yaxınlaşmalıyıq. Belə etsək fitri istəklərimiz və xoşbəxtliyimiz təmin olunar. Allah-taala eyni zamanda şeytana itaətdən çəkindirir. Çünki şeytanın yolu batildir və cəhənnəmə aparır.

---

[1] "Bəqərə", 55

## *QURAN VƏ ƏHZAB SAVAŞININ İBRƏTLƏRİ*

İslam peyğəmbəri və digər peyğəmbərlərə itaəti zəruri sayan ayələrlə yanaşı onları nümunə kimi tanıtdıran ayələr mövcuddur. Ayədə buyurulur: "Şübhəsiz, sizin üçün Allahın rəsulunda nümunə, yaxşı öyüd var."[1]

Təfsirçilər və tarixçilər bildirirlər ki, "Əhzab" surəsi Ühüd savaşından sonrakı Əhzab savaşı ilə bağlı nazil olmuşdur. Ühüd savaşı müsəlmanların zahiri məğlubiyyəti ilə sonuclandı. Müsəlmanlara ağır zərbə dəydi. Peyğəmbərin yaxınlarından bir hissəsi şəhid oldu, bir hissəsi yaralandı. Həzrət Peyğəmbərin dişi sındı, Əmirəl-möminin yaralandı. Bu məğlubiyyət münafiqləri daha da həvəsləndirdi. Onlara elə gəlirdi ki, artıq İslamın süqut anı çatıb. Digər bir tərəfdən, özünü qalib görən müşriklər müsəlmanlara son zərbəni vurmağa çalışırdılar. Onlar Peyğəmbərlə bağladıqları müqaviləni nəzərə almadan savaşa qalxdılar. Həmən vaxt müşriklər, yəhudilər və münafiqlərdən ibarət düşmən üçbucağı yarandı. Onlar eyni bir məqsəd ətrafında birləşdilər.

## *ÜHÜD SAVAŞINDAN SONRA PEYĞƏMBƏRƏ TƏKLİF*

Ühüd savaşından sonra müsəlmanların ruhdan düşdüyünü görən müşriklər peyğəmbərə sülh təklif etdilər. Onlar öz başçılarından Əbu Süfyan, Əkrəmə ibn Əbu Cəhl, Əbul Əvər Səlmini Mədinəyə göndərdilər. Onlar Mədinədə münafiqlərin rəisi Abdullah ibn Ubəyin evinə gəldilər. Sonra ev sahibi və başqa iki münafiqlə birlikdə peyğəmbərin görüşünə getdilər. Onlar dedilər: "Bizim aramızdakı düşmənçiliyin sonu hər iki tərəf üçün ziyandır. Gəlmişik ki, düşmənçiliyə son qoyaq, sülh müqaviləsi bağlayaq. Qərarımız dinc-yanaşı yaşamaqdır. Sizin bizimlə, bütlərimiz Lat, Üzza, Mənatla işiniz olmasın, biz də

---

[1] "Əhzab", 21

sizin əqidələrinizə toxunmayaq. Biz dost olmaq, get-gəl etmək, ticarət qurmaq istəyirik. Gəlin bir-birimizin əqidəsinə toxunmayaq, hərə öz dininə itaət etsin.” Həzrət Peyğəmbər bu təklifi qətiyyətlə rədd etdi.

Bir qədər diqqətlə nəzər salsaq görərik ki, müşriklərin həmin vaxtkı təklifləri bugünkü plüralizm, tolerantlıq şüarlarına çox bənzəyir. Bu gün də hərənin dini özü üçün şüarı verilir. Müşriklər yaxşı bilirdilər ki, peyğəmbər onların təklifilə razılaşsa, sülh müqaviləsi imzalansa, müşriklər tədricən sadəlövh müsəlmanları yoldan çıxara biləcək. Onlar bu yolla İslamı süquta uğratmaq istəyirdilər. Allah buyurdu: “Yalançılara tabe olma. Onlar səndən mülayimlik istəyirlər ki, mülayimlik göstərsinlər.”[1]

Zahirən müsəlmanlığı qəbul etmiş münafiqlər də müşriklərlə gizli rabitədə idilər. Onlar da müşriklərlə sazişə tərəfdarlıqlarını bildirirdilər. Deyirdilər: “Ətrafımızı düşmən tutub, müşriklər və yəhudilər əl-ələ verib. Əgər bu düşmənlərlə sülhə getməsək, inadkarlıq göstərsək, onlar bizi məhv edəcəklər.” Amma Allah-taala öz peyğəmbərinə göstəriş verdi ki, onların təkliflərini rədd etsin: “Ey peyğəmbər, Allahdan qorx, kafirlərə və münafiqlərə tabe olma. Həqiqətən, Allah bilən və hikmət sahibidir.”[2]

## *XƏNDƏK SAVAŞINDA MÜNAFİQLƏRİN FİTNƏKARLIĞI*

Peyğəmbər (s) müşriklərin sülh təklifini qətiyyətlə rədd etdi. Onu bu işdən Allah çəkindirdi. Müşriklər qərara gəldilər ki, müsəlmanlara son zərbəni vursunlar. İslamla tarixi düşmənçiliyi olanlar özlərinə həmfikir toplamağa başladılar. Onlar ərəb tayfalarına, yəhudilərə üz tutdular. Bütün bu güclər bir yerə toplandı və İslamı aradan qaldırmaq qərara alındı.

[1] “Qələm”, 8,9
[2] “Əhzab”, 1

Müxtəlif firqələrdən təşkil olunmuş bu qüvvə Əhzab adlanırdı. ("Əhzab" firqələr mənasını bildirir.)

Müşriklərdən və yəhudilərdən təşkil olunmuş Əhzab müsəlmanlarla savaş üçün hərbi hazırlığa başladı. Onlar çox böyük bir qoşun səfərbər edib Mədinəyə göndərdilər. Həzrət Peyğəmbər (s) də səfərbərlik apardı, müdafiə hazırlığı gördü. Salman Farsinin təklifi ilə şəhər ətrafında xəndəklər qazıldı. Bu xəndəklər düşmənin nüfuzuna mane olmalı idi. Müsəlmanlar xəndəkləri qazmaq üçün çox əziyyət çəkdilər. Aclıqdan əziyyət çəkən müsəlmanlar qarınlarına daş bağılayıb işi dayandırmırdılar. Peyğəmbər onları fədakarlığa səsləyir, qələbə vəd edirdi. Peyğəmbər (s) vəd edirdi ki, bütün Ərəbistan fəth olunası, İran və Rum diz çökəsidir. Münafiqlər peyğəmbərin sözlərini məsxərəyə qoyurdular. Düşünürdülər ki, qarınlarını doyura bilməyənlər İran və Rumu məğlub etmək fikrindədirlər!

Münafiqlər müsəlmanları qorxudur, Əhzab ordusunun gücündən danışırdılar. İmanı zəif olanlar təsir altına düşüb işdən soyuyurdular. Amma həqiqi möminlər düşmənə müqavimət göstərməkdə əzmli idilər. Onlar Əhzab qoşununu gördükdə "peyğəmbərin vədi gerçəkləşdi" söylədilər. Onlar tezliklə qələbə qazanacaqlarına ümidvar idilər. Onlar nəinki qorxmadılar, hətta imanları artdı. Ölüb-öldürməyə hazırlıqlarını bildirdilər. Allah-taala onların iman və möhkəmliyi haqqında buyurur: "Möminlər həmin qoşunları görüb dedilər: "Budur Allahın və onun peyğəmbərinin vəd etdiyi. Allah və Onun peyğəmbəri düz dedi. Onların yalnız iman və itaəti artdı!"[1]

Nəhayət, müşriklərin və onların ətrafındakıların qoşunu Mədinəyə yaxınlaşdı, amma xəndək onların nüfuzuna mane oldu. Onlar iyirmi gündən çox Mədinə ətrafında qaldılar. Qüreyş başçıları düşündülər ki, burada qalmaq ziyanadır və hücum etmək lazımdır. Nəhayət, Əmr ibn Əbduvəd adlı döyüşçü xəndəyi keçib meydana mübariz çağırdı. Bu şəxs Əli

[1] "Əhzab", 22

ibn Əbu Talibin zərbəsilə dünyasını dəyişdi. Beləcə müsəlmanlar qalib gəldilər.

## *PEYĞƏMBƏRİN ALLAH TƏRƏFİNDƏN NÜMUNƏ TANITDIRILMASI*

Peyğəmbər (s) müşriklərin sülh təklifini qəbul etmədi. Həzrət bütün varlığı ilə şirk qarşısında dayanıb müqavimət göstərdi. Nəhayət, müsəlmanlar qəti qələbə qazandılar. Allah-taala "Əhzab" surəsinin 21-ci ayəsində peyğəmbəri nümunə kimi tanıtdırdı. Peyğəmbərin nümunə olaraq üç xüsusiyyəti qeyd olunurdu:

1.Allaha ümidvarlıq; çünki insan Allaha ümidvarlıq, sonsuz qüdrətə sığınma sayəsində vəzifələrini mətanətlə icra edir, heç bir amil onu öz yolundan döndərə bilmir.

2. Axirətə ümidvarlıq; axirətə inanan insan nəfs istəkləri və şeytani istəklərlə mübarizə aparır, işin sonunu düşünərək günahdan çəkinir, əbədi səadətə çatmaq məqsədilə Allahın onun öhdəsinə qoyduğu vəzifələri yerinə yetirir. Digər bir tərəfdən, Allah yolunda mübarizəni səadət sayan insan heç bir təhlükədən qorxmur. O əbədi səadət və Allahın görüşünə çatmaq üçün canından keçməyə hazırdır. O başa düşür ki, bu yolu gedən insan zahirdə məğlub olsa da, əslində qalibdir. Çünki o Allahın razılığını qazanmış, əbədi səadətə çatmışdır.

3. Allahı çox yada salması; Allahı çox zikr edən insan qəlbini çirkablardan və zülmətlərdən təmizləyir, Allahla rabitə sayəsində aramlıq tapır. Allah zikri insanın qəlbini, rəftarını və düşüncəsini ali məqsədlərə yönəldir.

İşarə ediləsi nöqtələrdən biri budur ki, bizim bugünkü vəziyyətimiz ilkin İslam dövründəki vəziyyətə çox bənzəyir. Əgər həmin vaxt yəhudilər və müşriklər müsəlmanları mühasirəyə almışdısa, bu gün də dünya imperializmi və Amerika islami məmləkətimizi mühasirəyə almışdır. Onların məqsədi müsəlmanların diz çökməsidir. Amerika İranın bütün sərhədyanı ölkələrində öz mövqelərini gücləndirmişdir. Bir çox

müsəlman ölkələr nəinki Amerika, hətta sionist rejimi ilə də diplomatik rabitə saxlayır. Onlarla İsrail arasında hərbi müqavilə də var. Amma son dövrdə bir sıra dəyişikliklər müşahidə olunmaqdadır. Məsələn, Türkiyədə hakimiyyətə gəlmiş İslam firqəsi orada kök atmış laik (dinsiz) dövlətçilik ənənələrilə mübarizə aparır. İslam firqəsinin hakimiyyətə gəldiyi seçkilər son illərdə vahid partiyanın qələbəsilə başa çatmış yeganə seçki idi. Hər halda bütün müsəlmanlar kafirlərin və münafiqlərin qurğularına diqqətli olmalıdırlar.

## *KÜFR VƏ ŞİRK QARŞISINDA HƏZRƏT İBRAHİM NÜMUNƏSİ*

"Üsvə" (nümunə) sözünün işləndiyi surələrdən biri də "Mumtəhinə" surəsidir. Həmin surədə həzrət İbrahim möminlərə nümunə kimi tanıtdırılır. Bu surə də "Əhzab" surəsi kimi ibrətamiz dərslərlə zəngindir. Surədə küfr və nifaqla mübarizə üçün bir sıra göstərişlər verilir. Həqiqət axtaranlar bu iki surəni, onların təfsirini və surələrlə bağlı rəvayətləri oxusalar yaxşı olar. "Mumtəhinə" surəsinin başlanğıcında möminlər Allah düşmənləri ilə rabitə qurmaqdan çəkindirilir. Bildirilir ki, onlar sizin məhəbbətinizdən sui-istifadə edib İslam cəmiyyəti üçün təhlükə yaradarlar. Möminlərə tövsiyə olunur ki, bütün varlıqları ilə Allah düşmənlərinə müqavimət göstərsinlər. Surənin ilk ayəsində buyurulur ki, Allahınızın və özünüzün düşmənlərinizi dost tutmayın. Surənin üçüncü ayəsində buyurulur ki, İbrahim və onunla olanlar yaxşı bir nümunədir. İbrahim öz qövmünə dedi: "Mən sizdən və Allahın əvəzinə pərəstiş etdiklərinizdən zara gəlmişəm..." Həzrət İbrahim və onun azsaylı ardıcılları Nəmrud və onun bütpərəst qövmü qarşısında dayandılar. Onlar az olsalar da qorxmadılar. Bu səbəbdən də möminlərə nümunə kimi tanıtdırılırlar. Nəmrudun böyük imkanları vardı. Amma İbrahim qorxudulası bir şəxs deyildi. Nəmrudun var-dövləti, gücü, çoxsaylı ətrafı İbrahimi sazişə sövq edə bilmədi. Biz də bu işdə İbrahimə

iqtida etməli, bizi düşmənlərlə sülhə çağıranlara rədd cavabı verməliyik. Heç nədən qorxmamalıyıq. Bizim Allahımız var. Əgər sabitqədəmliyimiz olsa, qələbəyə çatasıyıq.

Həzrət İbrahim əmisinin bütpərəstlikdən əl çəkmədiyini görüb ondan ümidini üzdü. Allah buyurur ki, İbrahimin atası (əmisi Azər) üçün istədiyi bağışlanma ona verdiyi vəddən başqa bir şey deyildi.[1]

## *KÜFR CƏBHƏSİNƏ MÜQAVİMƏTİN ZƏRURİLİYİ*

Peyğəmbərə, haqqa itaətdə, düşmənə müqavimətdə, fitnəkarlara qarşı mübarizədə ardıcıllıq lazımdır. Görürüksə ki, düşmən bizi mühasirəyə alıb, süstləşməməli, Allahın yardımına ümid bağlamalı və şəhadət şərbətini içməyə hazır olmalıyıq. Peyğəmbərlərin həqiqi ardıcılları belə olmuşlar. Quranda buyurulur: “Onlardan bəziləri şəhadətə çatdılar, bəziləri intizardadırlar...”[2]

Əgər düşmənin güclü olduğunu, texnoloji tərəqqiyə çatdığını görürüksə qorxmalı yox, Allaha sığınmalıyıq. Nə qədər zəif olsaq da, Allaha sığınmaq sayəsində düşmənə qalib gələ bilərik. Allah mömin bəndələrini böhranlı vəziyyətdə tənha buraxmır. Allah Bədr döyüşündə kafirlərin və müşriklərin ordusunu dağıtdığı kimi, bu gün də öz qüdrətini nümayiş etdirə bilər.[3]

Biz aşiq və mömin könüllülərin fədakarlığı sayəsində çox zəif texniki imkanlara malik olmağımıza baxmayaraq, düşmənin (Səddamın) hərbi maşınını sındırdıq, Allahın qüdrətilə onları ölkəmizdən çıxardıq. Allaha iman və təvəkküllə meydana qədəm qoysaq qalib gələsiyik. Bu yolda qalib gəlməyimizin şəhid olmağımızdan fərqi yoxdur. Əsas məsələ

---

[1] “Tövbə”, 114
[2] “Əhzab”, 23
[3] “Ali-İmran”, 123

əbədi səadətə, qurtuluşa nail olmaqdır. Quranda buyurulur: “De ki, biz yalnız Allahın yazdığına çatasıyıq, Odur bizim hamimiz. Möminlər yalnız Allaha təvəkkül etməlidir. De ki, bizim üçün iki yaxşılıqdan başqa bir şeymi gözləyirsiniz?!”[1]

Biz Allaha təvəkkül, Peyğəmbər və onun əhli-beytinə (ə) təvəssüllə ruhiyyə və imanımızı gücləndirməliyik. Əmin olmalıyıq ki, Allahın istək və iradəsi dəyişməzdir. Əsas məsələ dərin inanmağımızdır! Peyğəmbər və övliyaların yolunu izləyərək düşmənlərə müqavimət göstərməliyik. Son damla qanımızadək onlarla vuruşmalıyıq. Düşüncəmizdə qəddar düşmənlə sülh təkliflərinə yer verməməliyik. Bütün bunlar boş şüardan başqa bir şey deyil. Bilməliyik ki, düşmən heç vaxt haqla vuruşdan əl çəkəsi deyil. Buna görə də son imamımız həzrət Mehdi (əc.) silahlı qiyam qaldırasıdır!

«Dünya sülh tərəfdarıdır» deyənlər Fələstinə baş çəksinlər. Məzlum fələstinlilərin sülhsevər dünyadan nə çəkdiyini görsünlər. Onlara azca da olsa haqq vermək istəyirlərmi? İnsan haqları, Amerika demokratiyasına tərəfdarlıq adı altında məzlum millətin başına mərmi yağdırır, hətta qadınlara və uşaqlara rəhm etmirlər. Onlar hətta ərzaq anbarlarına, əkin sahələrinə od vurub yandırırlar. Beləlləri insan qanına susamışlardır. Nə vaxtadək bu şeytanlara aldanacaq, onlara təslim olmaq barədə düşünəcəyik? İndi də İrana hücumdan dəm vururlar. Hansı ölkəyə hakim olarlarsa, orada Əfqanıstan və İraq təcrübəsi təkrarlanacaq. Əgər ölüm labüddürsə, gəlin Allahımız və əqidəmiz yolunda ölək! Əfqanıstan və İraqdan sonra növbə İran, Suriya, Ərəbistanındır. Dini təlimlər və tarixi təcrübə göstərir ki, yeganə doğru yol müsəlmanların öz istiqlaliyyətini qorumaq üçün çalışması, sabitqədəm olması, son qələbə və ilahi yardıma ümidvarlığıdır!.

[1] “Tövbə”, 51, 52

Mündəricat


***MÜQƏDDİMƏ _3***

***BİRİNCİ SÖHBƏT _6***

**PEYĞƏMBƏR VƏ MƏSUM İMAMLARIN MƏQAM VƏ VƏZİFƏLƏRİNƏ BİR BAXIŞ _6**

QƏDR GECƏSİNİN ƏHƏMİYYƏTİ _6
PEYĞƏMBƏR VƏ MƏSUM İMAMLARIN MƏQAMI _8
QURAN TƏFSİRİ, ƏHKAM VƏ MAARİF BƏYANI MƏQAMI _8
VİLAYƏT VƏ HAKİMİYYƏT MƏQAMI _11
VİLAYƏTİ-FƏQİHİN YERİ VƏ QANUNİLİYİ _14
MÜHAKİMƏ MƏQAMI _15
VƏHY HAQQINDA XÜLASƏ ARAŞDIRMA _17
TƏZKİYƏ (PAKLAMA) VƏ TƏRBİYƏ MƏQAMI _20

***İKİNCİ MƏCLİS _22***

**TƏQLİDİN MAHİYYƏTİ, YERİ VƏ ZƏRURİLİYİ _22**

TƏZKİYƏ (PAKLANMA) VƏ TƏRBİYƏNİN MAHİYYƏTİ _22
İNSANIN TƏRBİYƏSİ ÜÇÜN ƏN ALİ NÜMUNƏ _24
QURAN VƏ DOĞRU YOLDA OLANLARA ARDICILLIQ _25
TƏQLİDİN MAHİYYƏTİ, ONUN AĞIL VƏ FİTRƏTDƏ YERİ _26
QURANIN MƏSUMLARA TƏQLİD ÇAĞIRIŞI VƏ AZĞINLARA TƏQLİDƏ QADAĞASI _28
FAYDALI TƏQLİDLƏ ZƏRƏRLİ TƏQLİDİN BİR-BİRİNDƏN SEÇİLMƏSİ _30
DÜZGÜN TƏQLİD VƏ ONUN ŞƏRTLƏRİ _32
İCTİHAD ZƏRURƏTİ VƏ DİNDƏ TƏQLİD _33

***ÜÇÜNCÜ MƏCLİS _35***

**TƏQLİD AMİLLƏRİ VƏ BAŞQALARINA İTAƏT _35**

TƏQLİDİN ZƏRURƏTLƏRİ VƏ TƏQLİDİN DAXİLİ BİR MEYL SAYILMASI _35
DÜZGÜN TƏQLİD HƏQİQƏTƏ APARAN YOLDUR _37
KOR-KORANƏ TƏQLİDİN NÖVLƏRİ _38
QƏRB MƏDƏNİYYƏTİNƏ KOR-KORANƏ TƏQLİD _42
MÜNAFİQLƏRİN BİGANƏLƏRLƏ HƏMRƏYLİYİ _43
DİNİ DƏYƏRLƏRİ GÖZDƏN SALAN PROQRAMLAR _46

***DÖRDÜNCÜ MƏCLİS _48***

**MƏSUMLARA İTAƏT MÜMKÜN VƏ ZƏRURİDİR _48**

ÖTƏN SÖHBƏTƏ BİR BAXIŞ _48

QEYB DÖVRÜNDƏ MƏSUMA NECƏ TƏQLİD ETMƏK OLAR? ____ 49
MƏSUMLARA İQTİDA MÜMKÜNSÜZ DEYİL ____ 50
TƏQLİD SAHƏLƏRİ ____ 51

*BEŞİNCİ MƏCLİS* ____ *62*

**DİNƏ ŞÜBHƏ YARADILMASI ÜSULLARINA BİR BAXIŞ ____ 62**
DİNƏ QARŞI ADDIMLAR BİGANƏLƏŞDİRMƏ SİYASƏTİNİN NƏTİCƏSİDİR ____ 62
DİNƏ QARŞI TƏDRİCİ ADDIMLAR ____ 63
DİN BAŞÇILARINA MÜNASİBƏTDƏ ŞÜBHƏ ____ 65
DİNİ PRİNSİPLƏRİN VƏ MƏSUMLARIN HƏYAT YOLUNUN AKTUAL OLMAMASI İDDİASI ____ 66
KÜFR VƏ MÜRTƏDLİK TƏZAHÜRLƏRİ İLƏ MÜBARİZƏ ____ 69

*ALTINCI MƏCLİS* ____ *72*

**AĞIL VƏ VƏHYƏ İTAƏT MÖVZUSU ____ 72**
TƏQLİDDƏ AĞILIN ROLU VƏ DÜZGÜN NÜMUNƏ SEÇİMİ ____ 72
AĞILIN TƏSİR DAİRƏSİ ____ 74
ETİQADLARI İLKİN MƏNBƏDƏN ÖYRƏNMƏYİN ZƏRURƏTİ ____ 75
AĞIL VƏHYƏ TƏSLİM OLMALIDIR ____ 77
PEYĞƏMBƏR VƏ ONUN ƏHLİ-BEYTİNƏ (Ə) İTAƏT MEYARI ____ 78
AQİLLƏRİN MÜNASİBƏTİ FƏQİHƏ TƏQLİD MEYARI KİMİ ____ 82
DEMOKRATLARLA FİRONÇULARIN MƏNTİQ FƏRQLƏRİ ____ 83
İSLAM QANUNLARINA İTAƏT, QƏRB QANUNLARININ İNKARI ____ 85

*YEDDİNCİ MƏCLİS* ____ *88*

**İSLAM VƏ LİBERALİZMİN ADƏT-ƏNƏNƏLƏRƏ, ETİQAD VƏ DƏYƏRLƏRƏ MÜNASİBƏTİ ____ 88**
TƏQLİDİN ZƏRURİLİYİ VƏ ONUN MÜXTƏLİF SAHƏLƏRİNƏ YENİDƏN BAXIŞ ____ 88
TƏQLİDLƏ BAĞLI BƏZİ NÖQTƏLƏR ____ 90
SÜNNƏNİN MÜTLƏQ QƏBULU, İMAN VƏ KÜFR ARASINDA SƏRHƏD ____ 91
İSLAHAT PƏRDƏSİ ALTINDA SÜNNƏ VƏ FİQHİN İNKARI ____ 92
İSLAM VƏ LİBERALİZMİN ETİQAD VƏ DƏYƏRLƏRƏ FƏRQLİ MÜNASİBƏTİ ____ 94
DİNİ RƏHBƏRLƏRƏ İTAƏTLƏ BAĞLI ŞÜBHƏLƏR ____ 96

*SƏKKİZİNCİ MƏCLİS* ___ *98*

**QANUNLAR VƏ HÖKMLƏR SABİTDİRMİ?** ___ **98**
DİNDƏ İSLAHATLAR İSTƏYİNİN KÖKÜ ___ 98
DİNİ MƏNBƏLƏRLƏ BAĞLI ŞÜBHƏLƏR ___ 99
UYĞUN ŞÜBHƏLƏRƏ CAVAB ___ 102
HÖKM VƏ QANUNLARIN İCRASINDA MƏSLƏHƏT AMİLİ 103
FİQHİ FƏTVALAR ARASINDA FƏRQİN SƏBƏBİ ___ 107

*DOQQUZUNCU MƏCLİS* ___ *110*

**NİFAQ VƏ KÜFR CƏBHƏSİ HAQQ CƏBHƏSİNƏ QARŞI** ___ **110**
HAQQ MEYARI ALLAHA VƏ ONUN SEÇİLMİŞLƏRİNƏ İTAƏTDİR ___ 110
MƏSUMLUQ (GÜNAHDAN UZAQLIQ) ALLAH PEYĞƏMBƏRLƏRİNİN ZATİ SƏCİYYƏSİDİR ___ 111
ŞEYTANIN AZĞINLARA BƏLƏDÇİLİYİ ___ 112
YENİLİKÇİLƏRİN VƏ MÜNAFİQLƏRİN AZDIRICI TƏBLİĞATINA QURBAN GEDƏN GƏNCLƏR ___ 114
HAQQA ARDICILLIĞIN VƏ PUÇ QƏRB DÜŞÜNCƏSİNƏ ARXA ÇEVİRMƏYİN ZƏRURİLİYİ ___ 115
QURAN VƏ ƏHZAB SAVAŞININ İBRƏTLƏRİ ___ 117
ÜHÜD SAVAŞINDAN SONRA PEYĞƏMBƏRƏ TƏKLİF ___ 117
XƏNDƏK SAVAŞINDA MÜNAFİQLƏRİN FİTNƏKARLIĞI ___ 118
PEYĞƏMBƏRİN ALLAH TƏRƏFİNDƏN NÜMUNƏ TANITDIRILMASI ___ 120
KÜFR VƏ ŞİRK QARŞISINDA HƏZRƏT İBRAHİM NÜMUNƏSİ ___ 121
KÜFR CƏBHƏSİNƏ MÜQAVİMƏTİN ZƏRURİLİYİ ___ 122